Xalqın qəzeti!

# Xalq qəzeti

№ 100 (30504) 15 may 2024-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzeti

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikasının Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


## Bayramov–Borq təması: ATƏT və Cənubi Qafqazda sülhün tənzimlənməsi



Səhifə ⇨ 3

## Xaos və müharibə “duaları”



Səhifə ⇨ 4

## “Baqratizm” və Ermənistan üçün iflas moizəsi



Səhifə ⇨ 3

## ABŞ Ukraynaya dəstəyini davam etdirəcək



Səhifə ⇨ 11

# Azərbaycanın Ermənistanla sülh danışıqlarında vasitəçiyə ehtiyacı yoxdur

## Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borqun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

İan Borq Azərbaycan Prezidenti ilə bu il Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən görüşü və müzakirələri məmnunluqla xatırlayaraq səfərinin regional xarakter daşıdığını dedi.

O, Maltanın Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşmasını və sülh müqaviləsi üzrə danışıqlar prosesini dəstəklədiyini diqqətə çatdırdı.

Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin və bu prosesin əsasını təşkil edən fundamental prinsiplərin təşəbbüskarı məhz ölkəmiz olub və sülh müqaviləsinin mətni də Azərbaycan tərəfindən hazırlanaraq müzakirəyə təqdim edilib. Dövlətimizin başçısı bildirdi ki, hazırda sülh gündəliyinin irəliyə aparılması üçün Azərbaycan ilə Ermənistan arasında danışıqlar prosesi davam etdirilir.

Dövlətimizin başçısı qeyd etdi ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün və torpaqlarımızın işğalının nəticələrinin aradan qaldırılmas bu təsisatın gündəliyində olmasına baxmayaraq, nə bu təşkilat, nə də ATƏT-in Minsk qrupunun həmsədrlik mexanizmi münaqişənin nəticələrinin aradan qaldırılması, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi, məcburi köçkünlərin geri qayıtması üçün heç nə etməmişdir. Bu illər ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən aparılan danışıqlar prosesi də Azərbaycan ərazilərinin işğalının davam etdirilməsinə xidmət göstərmişdir. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan öz iradəsi və gücü hesabına beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Nizamnaməsinə uyğun olaraq ərazi bütövlüyünü və suverenliyini təmin edərək işğala son qoyub. Artıq Ermənistan–Azərbaycan münaqişəsinin tarixdə qaldığını və mövcud olmadığını deyən dövlətimizin başçısı qeyd etdi ki, buna görə ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtıdır. Azərbaycan tərəfi bu məsələni qaldırıb və Ermənistan tərəfinin də buna razı olmaması üçün hər hansı bir səbəb görünmür.

Görüşdə ATƏT çərçivəsində nəqliyyat bağlantıları məsələlərinə dair fikir mübadiləsi aparıldı.

İan Borq ölkəsinin kiçik ada dövlətləri və inkişaf etməkdə olan dövlətlər konsepsiyasını yaxından dəstəklədiyini və bu ölkələrin Avropa İttifaqı ilə əlaqələrinin inkişafına daim dəstək verdiyini diqqətə çatdırdı. O, Azərbaycanın COP29-a sədrlik etdiyini nəzərə alaraq bu mövzuda da ölkəmizlə əməkdaşlığa hazır olduğunu bildirdi.

Prezident İlham Əliyev qeyd etdi ki, ölkəmizin COP29-a sədrliyi çərçivəsində kiçik ada dövlətləri və inkişaf etməkdə olan dövlətlər mövzusu Azərbaycanın prioritetlərindən biri olacaq. Bu xüsusda Azərbaycan Prezidenti Millətlər Birliyi təşkilatının (Commonwealth) baş katibi Patrisia Skotlendin ölkəmizə səfərini qeyd edərək, bu təşkilat çərçivəsində olan kiçik ada dövlətləri və bu kateqoriyadan olan digər ölkələrlə əməkdaşlığın inkişaf etdirilməsi, onların üzləşdiyi ekzistensial problemlərlə bağlı məsələnin COP çərçivəsində qaldırılması və müxtəlif tədbirlərin keçirilməsinə toxundu. Bu xüsusda Azərbaycanın da Malta ilə əməkdaşlıqda maraqlı olduğu ifadə edildi.

***AZƏRTAC***

## Karvan Şuşaya qayıdır



Səhifə ⇨ 6

## Kilsə Tolstoyu niyə əfv etmir?



Səhifə ⇨ 11

## Qərbi Azərbaycan – aşıqlar yurdu

Səhifə ⇨ 10

# Hindistanın da Qərbə qısa yolu Azərbaycandan keçir

## Çabahar limanının Şimal–Cənub dəhlizinə qoşulması Nyu-Dehlinin ölkəmizin logistik üstünlüyünü qəbul etməsidir

**Şərqlə Qərbin kəsişməsində, olduqca əlverişli coğrafi mövqedə, mühüm tranzit yollarının üzərində yerləşən, regionda önəmi günü-gündən artan ölkəmizə dünya dövlətləri tərəfindən maraq durmadan artır. Eyni zamanda, Cənubi Qafqazda hər hansı layihə həyata keçirmək istəyən ölkələr Azərbaycanın iştirakı olmadan həmin təşəbbüsün baş tuta bilməyəcəyini getdikcə daha aydın dərk edirlər. Görünən odur ki, belə ölkələrdən biri də Hindistandır.**



Hər zaman İrəvana dəstək verən, 2020-ci ilin payızında baş tutan 44 günlük Vətən müharibəsindən sonra Ermənistanla əməkdaşlığı daha üst səviyyəyə qaldıran, ona müxtəlif çaplı silah-sursat tədarük edən Nyu-Dehli, deyəsən, yürütdüyü siyasətin yanlış olduğunu dərk etməyə, Azərbaycanın önəmini anlamağa başlayıb. Mayın 13-də Hindistan və İran arasında Çabahar limanının icarəyə verilməsi haqqında sənəd imzalanıb. “The Economic Times” nəşrinin yazdığına görə, sənədə Hindistanın Limanlar, su yolları və gəmiçilik naziri Sarbanand Sonoval və İranın Yollar və şəhərsalma naziri Mehrdad Bazarpaş imza atıblar. Sənədə əsasən, razılaşma 10 il sonra yenilənəcək və limanın idarəçiliyi Hindistanda qalacaq.

Çabahar İranın Hind okeanına çıxışı olan yeganə böyük limanıdır. “The Economic Times” nəşri yazır ki, Hindistan ilk dəfədir xarici limanın idarə olunmasını öz üzərinə götürür. Qeyd edilir ki, Nyu-Dehli mövcud limanı idarəçiliyə götürməklə Rusiya, Cənubi Qafqaz, Avropa və Mərkəzi Asiya ilə ticarət əlaqələrini genişləndirməyi planlaşdırır. Bu liman Azərbaycanın, necə deyərlər, mühüm halqası olduğu Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin tərkib hissəsi kimi qiymətləndirilir. Belə ki, Hindistan rəhbərliyi onu Şimal–Cənub nəqliyyat dəhlizi ilə əlaqələndirmək niyyətindədir.

*(ardı 5-ci səhifədə)*

# Avropanın Azərbaycan qazına tələbatı artır



Səhifə ⇨ 7

# Prezident İlham Əliyev Çin nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 14-də Çin Xalq Respublikasının Çin Xalq Siyasi Məşvərət Şurasının Ümumçin Komitəsinin sədr müavini, Şanxay Əməkdaşlıq Təşkilatının Mehriban Qonşuluq, Dostluq və Əməkdaşlıq üzrə Çin Komitəsinin sədri Şen Yueyuenin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

İkitərəfli münasibətlərimizin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı əlaqələrimizin dostluq, qarşılıqlı anlaşma və dəstək prinsiplərinə əsaslandığını qeyd etdi.

Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşlərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu görüşləri dostluq münasibətlərimizin nümayişi kimi dəyərləndirdi və Si Cinpinlə növbəti görüşü məmnuniyyətlə gözlədiyini dedi.

Əlaqələrimizin daha yüksək səviyyəyə qaldırılması üçün real imkanların olduğunu və artıq ölkələrimizin müxtəlif sahələrdə çox yaxından əməkdaşlıq etdiklərini bildirən dövlətimizin başçısı son vaxtlar Azərbaycan ilə Çin arasında müxtəlif səviyyədə qarşılıqlı rəsmi səfərlərin sayının artdığını dedi, bunun da əlaqələrimizin möhkəmlənməsi işinə xidmət etdiyini vurğuladı.

Prezident İlham Əliyev iqtisadiyyat, ticarət, nəqliyyat sahələrində artımın olduğunu deyərək, insanların qarşılıqlı gediş-gəlişinin artdığını da məmnunluqla qeyd etdi.

Dövlətimizin başçısı Şen Yueyuenin Azərbaycana səfərinin məhsuldar olacağına, dostluq əlaqələrimizin daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə və əməkdaşlıq perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaradacağına əmin olduğunu bildirdi.

Qəbula və xoş sözlərə görə minnətdarlığını bildirən qonaq dedi: "Uzun illərdir ki, Siz Çin Xalq Respublikasının Sədri Si Cinpinin və Çin xalqının dostusunuz. İlk növbədə, Sizə Çin Xalq Respublikasının Sədrinin salamlarını və ən xoş arzularını çatdırmaq istərdim. Son illər Sizin qətiyyətli və müdrik rəhbərliyinizlə Azərbaycan xalqı birlik göstərərək inkişaf yolu ilə gedir. Ölkənizdə dayanıqlı sabitlik, sürətli iqtisadi inkişaf müşahidə edilir və Azərbaycanın qüdrəti böyük dərəcədə artmışdır".

Şen Yueyue Çinin Azərbaycan xalqının öz inkişaf yolu ilə bağlı etdiyi seçimini və Azərbaycanın Cənub-Cənub xətti üzrə qlobal iqlim dəyişiklikləri ilə bağlı fəal beynəlxalq əməkdaşlığını dəstəklədiyini vurğuladı. O, dünyada Azərbaycanın nüfuzunun daim artdığını deyərək bildirdi ki, bu, ölkəmizin yaxın dostu və etibarlı tərəfdaşı kimi Çini sevindirir.

Azərbaycanda keçirilən prezident seçkilərinə toxunan Şen Yueyue dövlətimizin başçısının bu seçkilərdə inamlı qələbə qazandığını vurğulayaraq təbriklərini çatdırdı və bunu Azərbaycan xalqının Prezident İlham Əliyevin siyasətinə olan böyük dəstəyinin nümayişi kimi dəyərləndirdi. Qonaq Çin xalqının özünə yaxın hesab etdiyi Azərbaycan xalqına inkişaf yolunda yeni uğurlar arzuladı. O, Si Cinpin ilə Azərbaycan Prezidentinin ikitərəfli münasibətlərimizin gələcək inkişafı ilə bağlı planları müəyyənləşdirdiklərini qeyd edərək iki dövlət başçısının strateji rəhbərliyi ilə Çin-Azərbaycan münasibətlərinin yeni mərhələyə qalxacağına və xalqlarımızın rifahına xidmət edəcəyinə əminliyini bildirdi.

Çin Xalq Respublikasının Sədrinin salamlarına, təbriklərə və xoş sözlərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan Çinin ərazi bütövlüyünü və "Vahid Çin" siyasətini daim dəstəkləyib. Azərbaycanın Xarici İşlər Nazirliyi tərəfindən verilmiş açıqlamada Tayvanda keçirilən seçkilərin pislənilməsi və Çinin ərazi bütövlüyünə bir daha dəstəyin ifadə olunması qeyd edildi. Dövlətimizin başçısı vurğuladı ki, dünyada hələ də separatizmin dəstəklənməsi və ikili standartlara əsaslanan siyasətin aparılması tendensiyaları özünü büruzə verməkdədir.

Qonaq vurğuladı ki, Çin Xalq Respublikası daim Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və müstəqilliyini dəstəkləyib. O, "Vahid Çin" siyasətinə dəstəyə görə Azərbaycana təşəkkürünü bildirdi.

Azərbaycanın öz milli maraqları əsasında siyasət həyata keçirdiyini deyən Prezident İlham Əliyev vurğuladı ki, Si Cinpinin rəhbərliyi ilə Çin Xalq Respublikasının, o cümlədən Çin iqtisadiyyatının əldə etdiyi nailiyyətlər Azərbaycanı dost və tərəfdaş kimi sevindirir. Çinin dünya iqtisadiyyatında mühüm yer tutduğunu vurğulayan dövlətimizin başçısı bunun qlobal iqtisadiyyatın inkişafı üçün çox vacib olduğunu dedi.

Qonaq COP29-un Azərbaycanda keçirilməsi münasibətilə də təbriklərini çatdırdı və bu çərçivədə əməkdaşlıq məsələlərinə toxundu.

Söhbət zamanı vurğulandı ki, Azərbaycan Qlobal Cənubun tərkib hissəsidir və bu xüsusda Qoşulmama Hərəkatı çərçivəsində bu ölkələrin maraqlarını müdafiə edib. Həmçinin COP29 çərçivəsində də Azərbaycan Qlobal Cənub ölkələrinin maraqlarının təmsil olunmasına öz səylərini əsirgəməyəcək.

Vurğulandı ki, ölkəmiz COP29 çərçivəsində də Çin Xalq Respublikası ilə əməkdaşlığa hazırdır və Azərbaycanın COP29 nümayəndə heyəti Çinə səfər edərək müzakirələr aparıb.

Görüşdə hakim partiyalar - Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu. Çin nümayəndə heyətinin üzvləri Heydər Əliyev Fondunun dünyanın müxtəlif ölkələrində həyata keçirdiyi layihələri qeyd edərək, xalq diplomatiyası çərçivəsində Çinin aidiyyəti təşkilatları ilə əməkdaşlığın ölkələrimiz arasında əlaqələrin inkişafına töhfə verdiyini vurğuladılar.

Prezident İlham Əliyev hakim partiyalar arasında əməkdaşlığa toxunaraq, Çin Xalq Respublikasının müxtəlif təşkilatları ilə Heydər Əliyev Fondu arasında xalq diplomatiyası əsasında həyata keçirilən mədəni-humanitar tədbirlərin əhəmiyyətini qeyd etdi.

Söhbət zamanı bərpaolunan enerji sahəsində Çin şirkətlərinin Azərbaycan ilə əməkdaşlığa böyük maraq göstərdikləri bildirildi, Azərbaycanda elektroavtobusların və elektroavtomobillərin, həmçinin bərpaolunan enerji vasitələrinin istehsalının təşkili və bu istiqamətdə Çin şirkətləri tərəfindən investisiyaların qoyulması məsələsi müzakirə olundu.

Görüşdə Azərbaycanla Çin arasında siyasi, iqtisadi, sərmayə, nəqliyyat, yaşıl enerji, xalq diplomatiyası və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, Çin-Azərbaycan əlaqələrinin keyfiyyətcə yeni müstəviyə çatdığı bildirildi. Ölkələrimizin bir-birinə qarşılıqlı dəstəyi, "Bir kəmər, bir yol" layihəsi, Orta Dəhlizin inkişafı və qarşılıqlı maraq doğuran digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# Əli Əsədovun Belarus Baş nazirinin müavini ilə görüşü



**Mayın 14-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Belarus Respublikasının Baş nazirinin müavini İqor Petrişenko ilə görüşüb.**

Görüşdə Belarus Prezidenti Aleksandr Lukoşenkonun Azərbaycana dövlət səfərinin əhəmiyyəti qeyd olunub, səfərin iki ölkə arasında dostluq münasibətlərinin möhkəmləndirilməsinə yeni təkan verəcəyinə əminlik ifadə olunub.

Bundan əlavə, ticarət-iqtisadi əməkdaşlıq üzrə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının cari ilin iyun ayında Minskdə keçiriləcək 14-cü iclasının vacibliyi vurğulanıb.

Görüşdə iki ölkə arasında müxtəlif sahələrdə münasibətlərin inkişafından məmnunluq ifadə olunub, qarşılıqlı maraq doğuran istiqamətlər üzrə gələcək qarşılıqlı əlaqələrin perspektivləri müzakirə olunub.

***XQ***

# Gərəksiz quruma istinadlar normallaşma prosesinə əngəldir

**Mayın 14-də xarici işlər naziri Ceyhun Bayramov ölkəmizə səfəri çərçivəsində ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borqun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Ceyhun Bayramov və İan Borq arasında təkbətək müzakirələrdən sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib, bir neçə əsas istiqamət üzrə ətraflı müzakirələr aparılıb.

Azərbaycan və Malta arasında siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə toxunulub, enerji və turizm kimi sahələrdə münasibətlərin gücləndirilməsi üçün geniş imkanların mövcudluğu qeyd edilib.

Maltanın ATƏT-də sədrliyinin prioritetləri arasında ətraf mühit, bağlantılar kimi sahələrin əks olunmasının Azərbaycan tərəfindən müsbət qarşılandığı bildirilib. Xüsusilə Azərbaycanın COP29 sədrliyi ilə Maltanın ATƏT sədrliyinin birgə səylər sayəsində qlobal ətraf mühit dəyişikliyinə reaksiya verilməsində sinerji effekti yarada biləcəyi diqqətə çatdırılıb.

Avropada təhlükəsizliyin ciddi çağırışlarla üzləşdiyi hazırkı dövrdə ATƏT-in regional ölçülü məsələlərin həllində rolunu qoruyub saxlaya bilmək üçün özünün hərtərəfli təhlükəsizlik konsepsiyasından və geniş üzvlük coğrafiyasından maksimum istifadə etməli olduğu vurğulanıb. Burada suverenlik, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı kimi prinsiplərin ATƏT çərçivəsində təhlükəsizliyin təmini, inamın bərpası və əməkdaşlıq üçün təməl rolunu oynamalı olduğu xatırladılıb.

Ceyhun Bayramov postmünaqişə dövründə regional vəziyyət, Azərbaycan–Ermənistan normallaşma prosesi barədə maltalı həmkarına ətraflı məlumat verib. Ermənistan–Azərbaycan əlaqələrinin normallaşdırılması və nəticə etibarilə sülh sazişinin imzalanması üzrə birbaşa ikitərəfli danışıqların irəliyə getmək üçün ən yaxşı yanaşma olduğu bildirilib.

Keçmiş münaqişə dövründə bir sıra ATƏT təsisatlarının Ermənistan ilə Azərbaycan arasında 30 il davam etmiş münaqişənin həlli prosesində müvafiq mandat daşımasına baxmayaraq, hər hansı irəliləyişə nail ola bilmədiyi qeyd olunub. Keçmiş münaqişənin nəticələrinin aradan qaldırılması mövzusu üzrə danışarkən aktuallığını itirmiş təsisatlara istinadlar edilməsinin Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesinə xələl gətirdiyi bildirilib.

Postmünaqişə dövründə Azərbaycan tərəfinin tələbatı və müvafiq müraciətinə əsaslanaraq, ölkəmizdə minalardan və partlamamış sursatlardan təmizləmə, eləcə də məcburi köçkünlərin qayıdışını sürətləndirmə işlərinə dəstək verilməsinin vacibliyi vurğulanıb.

Nazirlər daha sonra mətbuat brifinqində görüşlərin nəticələrinə dair bəyanatlarla çıxış edib, jurnalistlərin suallarını cavablandırıblar.

***XQ***

# İşçi qrupunun növbəti iclası Xankəndidə keçirildi

**Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin nəzdində fəaliyyət göstərən Nəqliyyat, rabitə və yüksək texnologiyalar üzrə İşçi Qrupunun növbəti iclası Xankəndidə keçirilib.**

İclasda "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəqliyyat və rabitə infrastrukturu üzrə qarşıya qoyulmuş tapşırıqların icrası ilə bağlı görülmüş işlər, hazırda davam edən layihələr və gələcək planlara dair aidiyyəti qurumların məlumatları dinlənib, layihələrin icrası ilə bağlı cari vəziyyət, qarşıya çıxan çətinliklər və onların həlli yolları ətraflı müzakirə edilib.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini, İşçi qrupunun rəhbəri Rəhman Hümmətov çıxış edərək bildirib ki, Dövlət Proqramına uyğun olaraq, hazırda həmin ərazilərdə avtomobil və dəmir yollarının bərpa və tikintisi, yeni hava limanlarının inşası, telekommunikasiya şəbəkələrinin qurulması kimi strateji layihələrin icrası davam etdirilir.

R.Hümmətov hazırda Laçın hava limanının tikintisi üzrə işlərin ümumi icra vəziyyətinin 65 faiz təşkil etdiyini, eləcə də ümumi uzunluğu 2500 kilometr olan 26 layihə üzrə avtomobil yollarının tikintisi işlərinin qrafikə uyğun aparıldığını qeyd edib. Bildirib ki, Bərdə-Ağdam (47,1 km) və Horadiz-Ağbənd (110,4 km) dəmir yolu xətlərinin tikintisi işləri də davam etdirilir. Layihələr üzrə əldə edilmiş fiziki tərəqqi müvafiq olaraq 92,5 və 52 faiz təşkil edir. Bununla yanaşı, hazırda Ağdam-Xankəndi dəmir yolu xəttinin layihə-smeta sənədlərinin hazırlanması üzrə işlər həyata keçirilir.

Qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərə əhalinin qayıdışı, bərpa-quruculuq işləri, eləcə də səfərlərin təşkili ilə əlaqədar Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən mövcud marşrutlara əlavə və tələbata uyğun olaraq yeni istiqamətlərdə avtobus marşrutlarının açılması üzrə işlər görülür. Qarabağa turist səfərlərinin genişləndirilməsi məqsədilə "Yolumuz Qarabağa" portalı vasitəsilə vətəndaşlara fərdi minik avtomobilləri ilə də Şuşa şəhərinə, Suqovuşan qəsəbəsinə və Laçın şəhərinə səfər etmək imkanı yaradılıb.

Bildirilib ki, Laçın şəhərinin Baş Planına uyğun olaraq, şəhərdaxili ictimai nəqliyyat xidmətlərinin təşkili məqsədilə nəqliyyat planı hazırlanıb, Şuşa şəhəri üzrə işlər davam edir. Bununla yanaşı, aparılmış təhlillər əsasında Xankəndi şəhərinin nəqliyyat planının layihəsi hazırlanıb. Nəqliyyat planında nəzərdə tutulan şəhərdaxili marşrut xətləri və marşrut sxemi, avtobus dayanacaqlarının sayı və yerləri, şəhərlərarası marşrut şəbəkəsi və marşrutları, eləcə də Xankəndi şəhərində avtovağzalın və avtobus deposunun yaradılması üzrə planlaşdırılan işlər və təkliflər əksini tapıb.

İclasda yaxın zamanda məskunlaşması nəzərdə tutulan ərazilərdə, o cümlədən Xocalı və Xankəndi şəhərlərində, Kərkicahan qəsəbəsində və Malıbəyli



kəndində zəruri yol-nəqliyyat infrastrukturunun qurulması, ictimai nəqliyyat, sərnişindaşıma və telekommunikasiya xidmətlərinin təşkili məsələləri, mövcud tələbat və imkanlar geniş müzakirə edilib.

Sonra nazir müavini işğaldan azad edilmiş ərazilərdə radio-televiziya yayımı, mobil rabitə və sabit telekommunikasiya şəbəkəsi üzrə görülmüş və planlaşdırılan işlər barədə məlumat verib. Bildirib ki, hazırda ərazidə bərpa edilən radio-televiziya yayım stansiyaları vasitəsilə 10 televiziya və 7 radio proqramının yayımı həyata keçirilir. Mobil telekommunikasiya xidmətlərinin təşkili üçün antiterror tədbirləri nəticəsində işğaldan azad edilən ərazilər də daxil olmaqla, ümumilikdə 300 baza stansiyası quraşdırılıb. Şuşa, Laçın, Füzuli, Zəngilan, Xankəndi və digər ərazilərdə telefon və yüksəksürətli internet xidmətləri göstərilir.

Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının sektor müdiri Elmir Vəlizadə, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Əvəz Qocayev, Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin İdarə Heyəti sədrinin müavini Heydər Rüstəmov, "Teleradio" İB-nin baş direktoru vəzifəsini icra edən Elman Həsənov, "Aztelekom" MMC-nin baş direktoru vəzifəsini icra edən Tural Pirverdiyev və digər iştirakçılar da iclasda çıxış ediblər. Çıxışlarda işğaldan azad edilmiş ərazilərdə "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq həyata keçirilən infrastruktur layihələrinin əhəmiyyəti, onların icrasının İdarələrarası Mərkəz vasitəsilə əlaqələndirilməklə aidiyyəti qurumlar tərəfindən həyata keçirilməsi, ərazilərdə mina təhlükəsizliyi üzrə tədbirlərin daim nəzarətdə saxlanılması, yeni salınacaq yaşayış məntəqələrinə əhalinin köçürülməsi və məşğulluğunun təmin edilməsi və digər vacib məsələlərlə bağlı qarşıda duran vəzifələrdən söz açılıb.

İclasda Dövlət Proqramında sahə üzrə nəzərdə tutulan tədbirlərin vaxtında icrası ilə əlaqədar aidiyyəti qurumlarla birgə tədbirlər görülməsi, həmçinin yerlərdə tikinti-quraşdırma və bərpa işlərində müasir texnologiyaların tətbiqinin zəruriliyi və digər məsələlərlə bağlı müvafiq qərarlar qəbul olunub.

Səfər çərçivəsində Xankəndi şəhərinin daxili yol-nəqliyyat şəbəkəsinin mövcud vəziyyətinə, şəhərdə telekommunikasiya şəbəkəsinin qurulması və rabitə xidmətlərinin təşkili üzrə görülən işlərə, Ağdam şəhərinin daxili yol-nəqliyyat, həmçinin kommunikasiya şəbəkəsinin qurulması işlərinə, Bərdə–Ağdam, eyni zamanda, tikintisi davam edən Ağdam–Əsgəran–Xocalı–Xankəndi–Şuşa avtomobil yollarına baxış keçirilib.

***XQ***

# Bayramov–Borq təması: ATƏT və Cənubi Qafqazda sülhün tənzimlənməsi

## Bakı–İrəvan sülh danışıqlarındakı prinsipial məqamlara baxış

**“Maltanın hazırda təşkilata sədrliyi ATƏT məkanında kifayət qədər mürəkkəb dövrə təsadüf edir”. Bu fikirlər Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramova məxsusdur. Ölkəmizin baş diplomatı ATƏT-in fəaliyyətdə olan sədri, Maltanın xarici işlər naziri Yan Borqla Bakıda keçirdiyi birgə mətbuat konfransında belə deyib. Ümumən, C.Bayramovla Y.Borqun görüşü əsnasında mediada yer alan fikirlər bir sıra mətləblərdən xəbər verir. Söhbətimiz bu barədədir.**



© Trend News Agency

Yada salaq ki, ATƏT-in fəaliyyətdə olan sədri Azərbaycandan bir gün əvvəl Ermənistanda səfərdə olmuşdu. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Y.Borqla görüş sonrası keçirdiyi mətbuat konfransında aşkar manipulyativ yol tutmuşdu. Onun dilə gətirdiyi fikirlərdə iki başlıca məqam var idi. Birincisi, 1991-ci ilin Alma-Ata Bəyannaməsini ehkamlaşdırmaq xətti. İkincisi isə həmin bəyannaməni ehkamlaşdırmaq üçün ATƏT-in boynuna məsuliyyət qoymaq.

Maraqlıdır ki, cənab Borq Bakıda Alma – Ata Bəyannaməsindən söhbət belə açmadı və bu, pozitiv məqam kimi qiymətləndirilə bilər. ATƏT-in boynuna məsuliyyət qoyulmasına gəlincə, Mirzoyan demişdi ki, geosiyasi proseslər kontekstində ATƏT ciddi çağırışlarla üzləşir və bu çağırışlar təşkilatın alətlərindən və bütün mexanizmlərindən səmərəli istifadə etməklə, qurumun məsuliyyət zonasında mövcud olan problemlərin həllini bütün iştirakçı dövlətlərdən tələb edir: “Cənubi Qafqaz da ciddi problemlərlə üz-üzədir və onlar öz növbəsində dövlətlərin ərazi bütövlüyü və suverenliyi kimi əsas prinsipləri pozur. Bunlar birbaşa ATƏT-in mandatı ilə bağlı olan çağırışlardır və strukturun məqsədyönlü iştirakının vacibliyini vurğulayır”.

Hesab edirik ki, C.Bayramovun Y. Borqla birgə mətbuat konfransında səsləndirdiyi fikirlər həm də Ermənistanın baş diplomatının söylədiklərinə cavab mahiyyəti daşıdı. Azərbaycanın XİN başçısı bildirdi ki, bir sıra üzv dövlətlər arasında inam və qarşılıqlı əməkdaşlığın olmaması, təməl prinsiplərə riayət edilməməsi halları var. Həmin prinsiplərə saymazyana yanaşan Ermənistandır. Azərbaycan isə onların gözlənilməsinin, ölkələrin suverenliyinə hörmətin tərəfdarıdır. Uzun müddət ölkəmizin suverenliyinə məhəl qoymayan da rəsmi İrəvan olub.

Nəzərə alaq ki, C.Bayramovun səsləndirdikləri arqumentlər ATƏT sədrini Ermənistanla normallaşma prosesi barədə məlumatlandırmaq mahiyyətinə söykənib. Lakin cənab Bayramov keçmişi bir kənara qoyur, postmüharibə reallıqlarını qabardır, Bakı və İrəvan arasında ikitərəfli danışıqlar ənənəsinin formalaşmasına köklənir: “Bu istiqamətdə hesab edirik ki, iki ölkə arasında ikitərəfli danışıqların olması müsbət formatdır. Son 6 ayda bu istiqamətdə xeyli iş görülüb. Apreldə iki ölkə arasında sərhədin bir hissəsində delimitasiya prosesinə start verilməsini, 4 kəndin qaytarılmasını müsbət inkişaf kimi qeyd edə bilərik”.

Bəli, Azərbaycan Ermənistanla birbaşa danışıqlar təşəbbüsünü irəli sürüb. İkinci uzunmüddətli müqavimətdən sonra bu formatı qəbul etmək məcburiyyətində qalıb. İndi dünyanın müxtəlif maraqlı qütbləri də Bakının irəli sürdüyü məntiqi müsbət qiymətləndirirlər. Ən azı, sözdə pozitiv düşüncələrini dilə gətirirlər. Amma, bu, hələ o demək deyil ki, onlar Ermənistanı hazırkı danışıqlar platformasından uzaq tutmağa çalışmayacaqlar. Çünki erməni rəsmilərinin yanaşmaları onu göstərir ki, İrəvan istənilən an yoldan çıxmağa hazır vəziyyətdədir. Bu baxımdan Mirzoyanın ATƏT-in fəaliyyətdə olan sədri ilə birgə mətbuat konfransında söylədiklərinə də diqqət yetirmək zərurəti yaranır. Nazirin sözlərindən belə çıxmışdı ki, ATƏT keçmiş təcrübəsinə əsaslanaraq, eyni zamanda, öz təməl prinsiplərinin müdafiəsi üçün Cənubi Qafqazdakı sülh prosesinə, necə deyərlər, qol çırmaya bilər. Görünür, məhz buna görə C.Bayramov, kifayət qədər, konkret, bir az da sərtliyi ilə seçilən fikir səsləndirir: “ATƏT daxilində olan Minsk qrupu 30 illik fəaliyyətində Azərbaycan–Ermənistan münaqişəsinin həllinə heç bir fayda verməmişdir. Hesab edirik ki, artıq mandatları tükənmiş, funksional qabiliyyətini itirmiş, arxaik xarakter daşıyan bu qurumların saxlanılmasına heç bir ehtiyac yoxdur. Eləcə də ATƏT-in məhdud büdcəsini nəzərə alaraq deyə bilərik ki, bunun üçün əlavə maliyyənin xərclənməsi da lüzum yoxdur. Belə olan təqdirdə bu təsisatlara istinadların edilməsi vəziyyətin yaxşılaşdırmır, əksinə ona xələl yetirir”.

Göründüyü kimi, Azərbaycan dövləti köhnə havalarda olanlara qarşı müqavimət formalaşdırır. Əlbəttə, bu müqvimət heç də ATƏT-i nəzərdən salmaq, onun funksiyasını heçə saymaq istəyi deyil. Ona görə də C.Bayramov bildirir ki, Azərbaycan–ATƏT əməkdaşlığının çox yaxşı potensialı var. Məsələn, işğaldan azad olunmuş ərazilərdə mina təhlükəsi və digər bu kimi hallərdə kadr potensialının gücləndirilməsi istiqamətində müsbət addımların atılması. Deməli, ATƏT 30 il ərzində həyata keçirmədiyi mütərəqqi missiyasını indi reallaşdırmalıdır. Beləliklə, Minsk qrupu adlı rüsvayçılığın ləkəsini üzərindən təmizləməlidir. Çünki həmin təsisatın fəaliyyəti, daha doğrusu, fəaliyyətsizliyi bəşəri dəyərlərlə manipulyasiyadan, işğala bəraət qazandırmaqdan, ona leqallıq libası geyindirməkdən başqa bir şey deyildi.

Əlbəttə, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması ATƏT üçün prioritet ola bilər. Bu mənada cənab Borqun səsləndirdiyi fikirlərə həssas yanaşma ehtiyacı var. Eləcə də onun sülh gözləntisini yüksək dəyərləndirmək mümkündür. Ən başlıca məqam isə ATƏT sədrinin rəhbəri olduğu qurumun yeni reallıqları qəbul etməsinə dair fikirləridir: “ATƏT hər iki ölkəyə qulaq asır. Biz yeni reallıqları qəbul etməliyik. Ümid edirik ki, tez zamanda tərəflər arasında hərətəfli və dayanıqlı sülh razılaşması əldə olunacaq”.

Qeyd edək ki, Ermənistan rəhbərliyi xeyli müddət Qarabağ erməniləri ilə bağlı məsələni Azərbaycanla sülh gündəliyinə daxil etmək istiqamətində cəhdlər göstərmişdi. Əlbəttə, bu cəhdlər yekunda iflasa uğramışdı. Azərbaycan dövlətinin mövqeyi bu idi ki, əgər beynəlxalq birlik Qarabağ erməniləri məsələsini gündəmə gətirəcəksə, o zaman Bakı vaxtilə Ermənistandakı yaşayış yerlərindən, ata-baba yurdlarından zorla qovulmuş azərbaycanlılarla əlaqədar məsələni qabardacaq. Görünür, elə buna görə də C.Bayramov ATƏT-in fəaliyyətdə olan sədrinə Qərbi Azərbaycan İcmasının məktubunu təqdim edib. Sədrin bu məktubu alarkən bildirdiklərinə diqqət yetirək: “Mən həm Azərbaycan, həm də Ermənistan hökumətlərinə öz dəstəyimi ifadə edirəm ki, onlar dayanıqlı və hərtərəfli sülh razılaşmasına nail olsun”.

Cənab Borqun yuxarıdakı sitatda yer almış fikirləri onu deməyə əsas verir ki, hazırda Azərbaycan-Ermənistan sülh tənzimləməsindəki detallar ATƏT-i bir o qədər maraqlandırmır. Əsas odur ki, sülh təmin olunsun. Yəni, tərəflər özləri hansı məsələdə razılığa gələcəklərsə, qurum həmin razılıq məntiqini məqbul sayacaq. Bu yanaşmanı pozitiv qiymətləndirmək mümkündür. Eləcə də Borqun Bakı–İrəvan sülh gündəliyi ilə bağlı səsləndirdiyi digər məqamları. Həmin məqamları diqqətə çatdıracağıq. Ancaq əvvəlcə C.Bayramovun ATƏT sədrini danışıqlar prosesi ilə bağlı məlumatlandırarkən, daha hansı mətləblərə aydınlıq gətirdiyini vurğulayaq.

Birincisi, ölkəmizin XİN rəhbəri sülh müqaviləsi ətrafında danışıqlar prosesinin fevral ayından etibarən intensiv xarakter aldığını vurğulayıb: “Buna qədər əvvəlki müddətdə sənədlərin və şərtlərin mübadiləsi baş verirdi, sadəcə, fiziki görüşlər dayandırılmışdı. Amma Münxen, Berlin və Almatı görüşləri ilə proses davam etdirildi. Son görüş nəticəsində xeyli müzakirə aparıldı. Mən bununla bağlı detallara varmaq istəməsəm də, bu danışıqları müsbət qiymətləndirirəm”.

C.Bayramovun sülh müqaviləsi məsələsində vurğuladığı ən başlıca məqamlardan biri tərəflərin gözləntilərinin uyğun və realist olmasının vacibliyini dilə gətirməsidir: “Bu, olduqca mürəkkəb və lazımlı prosesdir. Sülh sazişi Azərbaycan tərəfi üçün ədalətli və beynəlxalq hüquqa əsaslanan, gələcəkdə hansısa şübhəli məqamları masa üzərinə gətirmək məqamlarını istisna edən saziş olmalıdır. Eləcə də, sözsüz ki, qarşı tərəfin də gözləntilərini nəzərə alır, qarşılıqlı həll yolları üçün çalışırıq. Almatı danışıqları növbəti bir addım olub. Bu, böyük addımdır, ya kiçik, bunu yalnız prosesin sonunda biləcəyik. Amma deyim ki, bu, prosesin önəmli bir hissəsidir. Bunu biz mətbuata açıqlama zamanı da bildirmişdik ki, tərəflər danışıqların davam etdirilməsi barədə razılıq əldə ediblər. Düşünürəm ki, yaxın gələcəkdə bunun şahidi olacağıq”.

Sonda bir daha ATƏT-in fəaliyyətdə olan sədrinin Azərbaycan–Ermənistan sülh prosesi ilə bağlı bildirdikləri üzərində dayanaq. O, danışıqların praqmatik, eyni zamanda, bərabərhüquqlu olmasının zəruriliyindən söz açıb. Praqmatikliyi anlamaq mümkündür, o, daha geniş və real anlam daşıyır. Bəs bərabərhüquqluluq nə deməkdir? Məsələ burasındadır ki, indiyədək bu tezis müxtəlif vasitəçi tərəflərin spekulyativ yanaşmalarının məhsulu kimi meydana çıxıb.

Digər tərəfdən, böyük və danılmaz reallıq var. Çünki otuz ilə yaxın müddətdə işğalçılıq siyasəti yürüdən, danışıqları dalana dirəməklə 44 günlük müharibənin başlanmasına, qan tökülməsinə rəvac verən Ermənistan heç vaxt Azərbaycanla bərabər tərəf ola bilməz. Yəni, belə demək mümkünsə, onun bərabərtərəfliliyində məhdudlaşma olmalıdır və mövcud durumu beynəlxalq birlik, o cümlədən, ATƏT qəbul etməlidir. Ümid edək ki, cənab Borqun aşağıdakı fikirləri də haqqında söz açdığımız qəbuletmənin göstəricisidir. Çünki “Uzunmüddətli sülh üçün dialoq vacibdir. Dünən İrəvandakı görüşlərimdə də qeyd etdim ki, danışıqlar yaxşı niyyətlə aparılmalıdır ki, həll yolları tapılsın”, – deyən cənab Borq əlavə edib ki, sədri olduğu təşkilat praqmatik yanaşmaları dəstəkləyəcək. Ölkələr, yəni Azərbaycan və Ermənistan isə öz xalqlarının gələcəyi naminə işləməlidirlər.

***Ə.RÜSTƏMOV***
***XQ***

# “Baqratizm” və Ermənistan üçün iflas moizəsi

## Yaxud 44 günün göynədici dərsləri

**Ermənistanda apostol kilsəsinin ənənəvi müxalifətlə birləşib ölkə iqtidarı əleyhinə başlatdığı etiraz aksiyası hər ötən gün bir qədər də dramatik şəkil almaqdadır. Əslində, bu, gözlənilən idi. Gözlənilirdi ki, erməni iqtidarı baş nazir Nikol Paşinyanın istefası tələbi ilə başlanmış aksiyaya axıradək seyrçi qalmayacaq. Nikolun demokrat libasını əynindən çıxaracağı da proqnozlaşdırılırdı. Başqa cür mümkün deyildi. Çünki ona qarşı çıxanlar, necə deyərlər, barıtı tündləşdirirdilər. Bütün bunların fonunda reallıqları görmək üçün bir qədər keçmişə ekskurs etmək zərurəti yaranır. Nəzərə alaq ki, hazırda Ermənistanda yaşananların əsası 2020-ci ildən qoyulub. Yəni, ölkənin 44 günlük müharibədə acınacaqlı məğlubiyyətə uğradığı ildən.**



Bəli, İrəvanda xüsusi təyinatlılar dünən səhər saatlarından başlayaraq, nümayişçilərə güc tətbiqinə başlayıblar. Artıq ikincilər sərt şəkildə saxlanılır və müxtəlif istiqamətlərə aparılır. Konkret səbəb də var. Məsələ burasındadır ki, “Vətən naminə Tavuş” hərəkatının lideri arxiyepiskop Baqrat Qalstyan vətəndaş itaətsizliyini dərinləşdirməyə, hakimiyyətə təzyiqləri gücləndirməyə çağırıb. Çağırışa səs verən nümayişçilər skamyalar və zibil qutuları ilə küçələri bağlayıblar ki, görünür, məhz, bu, hökuməti qətiyyət nümayişinə vadar edib. Nəticədə sosial şəbəkələrin erməni seqmentini insanlara vəhşicəsinə güc tətbiqini əks etdirən video-görüntülər bəzəməyə başlayıb.

***

Arayış verək ki, 2024-cü il aprelin 20-dən Ermənistanda Paşinyana qarşı etiraz aksiyaları hakimiyyətin Azərbaycanla sərhədin delimitasiyası çərçivəsində Qazaxın (onlar Tavuşun deyirlər – red.) dörd kəndinin ölkəmizə qaytarılmasında sonra başlamışdı. Bu səbəbdən B.Qalstanyan mayın 4-dən bütün ermənilərin katolikosu II Qareginin xeyir-duası ilə Tavuş vilayətindən yürüşə start vermişdi. Qalstyan mayın 9-dan başlayaraq, İrəvanda etiraz aksiyalarının keçiriləcəyini bildirmişdi.

Qeyd edək ki, erməni kilsəsinin bütün yeparxiyalarının rəhbərləri də Tavuş arxiyepiskopuna qoşulublar. Hərəkata ölkənin müxtəlif bölgələrindən cəlb olunanlar var. Ümumən, etirazçılar revanşist-şovinistlərdir. Məqsədləri Azərbaycanla delimitasiya və demarkasiya prosesini pozmaq, bütövlükdə, sülhə qarşı çıxmaqdır. Qalstanyana gəldikdə, o, indiyədək çox fikirlər səsləndirib. Həmin fikirlərdən ən diqqətçəkəni isə budur: “Tavuşun ardınca anklav problemləri – Tiqranaşen, Sünik problemi gələcək. Yəni, Ermənistanın şimalından cənubuna qədər biz fəlakətli risklərlə üzləşirik və bu proses dayandırılmalıdır. Bu, bizim tələbimizdir”.

Onu da bildirək ki, arxiyepiskop Baqratın Ermənistanda ali məktəblərə getmək və orada təbliğat aparmaq niyyətinə dair məlumatlar da yayılmaqdadır. Hiss olunur ki, kilsə müxalifəti ətrafında daha çox insan izdihamı görmək niyyətindədir. Əlbəttə, izdiham var, amma demək olmaz ki, güclüdür. Ümumən, hazırda baş nazir Nikol Paşinyana qarşı çıxanların bir o qədər ciddi qüvvəyə çevrildiklərini söyləmək olmaz.

***

Yazımızın keçmişə ekskurs məntiqinə keçid alaq. Əslində, Paşinyan və onun komandasında təmsil olunanlar çox haqlı olaraq bildirirlər ki, ölkədə baş verənlər 2021-ci ildə yaşananların davamıdır. Məsələ burasındadır ki, 2020-ci ilin 44 günlük müharibəsində acınacaqlı məğlubiyyətdən və 10 noyabr tarixli üçtərəfli Bəyanatın imzalanmasından dərhal sonra Ermənistanda, xüsusən də paytaxt İrəvanda ciddi etiraz aksiyaları başlanmışdı. Həmin vaxt Nikol etirazı çox sadə yolla aradan qaldırmışdı. 2021-ci ildə növbədənkənar parlament seçkiləri təyin etmişdi. Seçki iyunda keçirilmiş, Paşinyan isə prosesədək hakimiyyət komandasını kifayət qədər möhkəmləndirməyi bacarmışdı. Eyni zamanda, etiraz tonunu yumşaltmağa müvəffəq olmuşdu. Əlbəttə, Nikol seçkiyədək xaos şəraitində idarəçilik baxımından müəyyən təcrübə də toplamışdı. Bütün bunlar onun iqtidarının parlament seçkilərindəki uğurunu təmin etmişdi.

2021-ci, ümumən isə 2020-ci ildən ötən müddətdə Ermənistanda sabitlik olmadı. Kiçik miqyaslı siyasi təlatümlər qeydə alındı. Gərginlik ab-havasının davamı kimi ötən ilin sentyabrında İrəvan meriyasına keçirilmiş seçkilər diqqət çəkdi. Sentyabrda ölkəni silkələyən ən böyük hadisə isə Azərbaycanın həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri oldu. Ondan sonra Qarabağ tamamilə ermənisizləşdi. Bölgədəki separatçı rejimin canını tapşırması 1988-ci ildən başlanmış “Miatsum” cəfəngiyyatına son qoydu. Müvafiq olaraq, Ermənistanda etirazlar qeydə alındı. Müxalifət Ermənistana köç etmiş Qarabağ ermənilərinə saymazyana münasibət göstərildiyi iddiası ilə gərginlik yaratmağa çalışdı. Lakin etirazlar fonunda gəlinən qənaət bu oldu ki, əks qütbün baş nazirə və komandasına qarşı çıxacaq real gücü yoxdur.

Əlbəttə, Ermənistanda baş verən proseslərdə kənar təsir amili mütləq nəzərə alınmalıdır. Elə hazırda da bir çox siyasi ekspertlər ölkədə yaşananlarda Rusiya izini axtarmağa girişirlər. Məsələ ondadır ki, ölkənin Ermənistanda bir çox dayaqları var. Mediadan tutmuş, iqtisadiyyatın müxtəlif sahələrinədək rus təsiri qalmaqdadır. Ancaq Moskvanın bu və ya digər təsirə malik dayaq instrumentləri heç də işlək vəziyyətdə deyil. Çünki Ermənistan cəmiyyətində və geniş ictimai rəyində ölkənin sabiq iqtidarının timsalında ekslərə və bütövlükdə, Rusiya ilə bağlı hər şeyə münasibətdə ciddi antipatiya hökm sürür. Diqqət yetirək, nə zaman ki keçmiş prezidentlər Robert Koçaryanın və Serj Sarkisyanın adları çəkilir, hakimiyyət dərhal bunu müxalifətə qarşı uğurlu əks-təbliğata çevirməyi bacarır. Bəzən elə təəssürat yaranır ki, belə təbliğat olmasa, Paşinyan iqtidarı ayaqda qala bilməz.

Paşinyan indi də eyni yolu tutur. Məsələn, o, Baqratın başladığı hərəkatla bağlı ritorik sual səsləndirərək, onu gözdən salmağa çalışdığı halda, tərəfdarları Koçaryan amilini qabardaraq, əslində, din xadiminin oyunbazlığının arxasında ölkənin ikinci prezidentinin dayandığını vurğulayır, mövcud məsələdə anti-Rusiya təbliğatı aparırlar. Nikolun ritorik tərzdə səsləndirdiyi suala gəlincə, onun məğzi budur: Nəyə görə ümumerməni hərəkatına rəhbərliyi din xadimi etməlidir?

Suala cavab aydındır və bu barədə söz açdıq. Ümumiləşdirmə apararaq bildirək ki, revanşist-şovinistlər və onların xaricdəki havadarları 2020-ci ildən bəri Paşinyana qarşı bütün vasitələrdən yararlansalar da heç bir nəticə əldə edə bilməyiblər. Ən son vasitə kimi proletariatın lideri Leninin “din xalq üçün tiryəkdir” deyimi ilə hərəkətə keçib iqtidarı devirməyə girişiblər. Onlar oyunlarını erməni cəmiyyətinin xəstəliyindəki ən böyük simptoma – din və kilsə amilinə siyasi və mənəvi sərmayə yatırmaqla, niyyətlərinə nail olmağı düşünürlər. Arxiyepiskop Baqrat sırf buna görə ortadadır.

Əvvəldə də bildirdik ki, hazırda ümumerməni hərəkatı kimi adlandırılmış “Vətən naminə Tavuş” hərəkatı erməni kilsəsi tərəfindən koordinasiya olunur. O kilsə tərəfindən ki, ona rəhbərliyi II Qaregin həyata keçirir. O Qaregin ki, Paşinyan tərəfdarları adamı tam açıq şəkildə pozğunluqda, hətta uşaqbazlıqda belə qınaya bilirlər. Görünür, bu baxımdan Baqrat barədə hansısa kompramat yoxdur. Ən azı, hələlik yoxdur.

***

Sonda Ermənistandakı etiraz dalğası fonunda bir məqamı da vurğulamaq lazımdır. Şübhəsiz, el dilində deyildiyi kimi, balıq başdan iylənir. Məsələyə mövcud rakusdan yanaşsaq, hazırda ölkədə yaşanan gərginliyə görə ən böyük müqəssir Paşinyanın özüdür. Nikol səhvə heç də son dörd ildə yol vermədi. O, ən böyük qəbahəti “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını verəndə, Cıdır düzündə sərxoş vəziyyətdə yayxananda etdi. Halbuki, başqa cür davrana bilərdi. Fərqli, rasional davranış üçün isə ideya bazasını hələ hakimiyyətə gəlməzdən əvvəl formalaşdırmışdı. Məsələn, demişdi ki, Qarabağ Ermənistanın üzərindən asılmış ağır daşdır, onu atmaq lazımdır. Ancaq sözünü tutmadı. İndi ona düşmən kəsilmiş başıpozuqlar və həmin başıpozuq kütlənin məfkurə dayağına çevrilmiş kilsə kimi davrandı. Nəticədə 44 günlük müharibə yaşandı ki, onun Ermənistan üçün hansı fəlakət doğurduğu hər kəsə yaxşı məlumdur. Bəli, fəlakət ölkəni içdən yeyib tamamilə məhvə məhkum vəziyyətə gətirib. Ona görə də, tam qətiyyətlə demək olar ki, hazırda Baqrat və tərəfdarlarının səsləndirdikləri tezislər, hakimiyyət əleyhinə çıxışlar, ən başlıcası isə aşıladıqları saxta barışmazlıq ruhu, Azərbaycanla müharibə çağırışları yekun nəticədə müasir erməni dövlətçiliyinin iflas moizəsindən başqa bir şey deyil.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Xaos və müharibə “duaları”

## Birləşmiş müxalifətin Nikol Paşinyanı yıxması Ermənistana nə verər?

**Pessimist proqnozdur, amma əgər Ermənistanda hakimiyyət dəyişikliyi baş verərsə, burada hadisələrin axarının hansı məcraya yönələcəyini indidən heç kəs söyləyə bilməz. Mövcud durum, sadəcə olaraq, məntiqə və sağlam düşüncəyə sığan bəzi ehtimal və fərziyyələri irəli sürməyə ipucu verir. Əminliklə demək olar ki, kilsənin xeyir-duasını verdiyi “Tavuş Vətən naminə” İrəvana yürüş hərəkatına başlamaq ideyası ölkə daxilində siyasi böhranı yetişdirmək və baş naziri postundan devirmək məqsədinə xidmət edir. Yürüşün Almatıda sülh danışıqlarına üç gün qalmış başlaması da təsadüfi sayılmamalıdır. Onların niyyəti həm də Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında birbaşa sülh təmaslarının qarşısını almaq idi, amma buna nail olmadılar. Bunu Nikol Paşinyanın özü mayın 7-də keçirdiyi mətbuat konfransında açıq etiraf etdi: “Müxalifət mənim Azərbaycanla sülh sazişi bağlamaq istəyimə qarşıdır”.**

Kənardan idarə olunan Tavuş arxiyepiskopu Baqrat Qalstanyanın mayın 9-da açıq havada keçirilən mitinqdə üzünü baş nazirə tutaraq “sizin Ermənistan Respublikasında artıq heç bir səlahiyyətiniz yoxdur” deməsi isə birbaşa hakimiyyət çevrilişinə çağırış idi. Amma bu da danılmaz faktdır ki, anti–Paşinyan cəbhəsi uzun müddət ərzində ilk dəfə etiraz kampaniyasına kifayət qədər böyük kütlə toplaya bildi. Bu isə onlara paralel mübarizə üsullarına keçməyə imkan yaratdı. Ən “effektli üsul” isə Qarabağ klanını iste-



faya göndərməyi bacarmış Paşinyanın özünün komandasının nümunəsi oldu. Yəni, eynilə onun kimi, “xalq yürüşü” ilə Ermənistanı ictimai iflic vəziyyətinə gətirməyi hədəfləyən revanşistlər indi paytaxt İrəvanın küçələrində barrikadalar qurmaqla məşğuldurlar.

### Sülhə qənim kəsilənlər

İrəvan ermənilərinin 20 il hakimiyyətdə olmuş Qarabağ klanına aşağılayıcı münasibəti məlumdur. Fəqət bunun fonunda Ermənistan cəmiyyətində hələ də böyük nüfuza malik kilsənin aparıcı qüvvə olduğunu da danmaq olmaz. Bəli, vəziyyət kifayət dərəcədə ciddidir və indi hər şey Nikol Paşinyanın diplomatik məharətindən asılı kimi görünür. Əslində, Ermənistan baş nazirinin son aylarda etdiyi çıxışları, atdığı əməli addımları onun Bakı ilə ikitərəfli danışıqlarda praqmatizmə üstünlük verməsinin təzahürü sayılmalıdır. Yəqin bu amil həm daxildəki daşnak–separatçı qüvvələrin, “beşinci kolonun”, eləcə də bölgədə sülhə və sabitliyə qarşı çıxan xaricdəki dəstəkçilərin maraqları ilə üst-üstə düşmür.

**Bu amilə diqqəti çəkən siyasi şərhçi Tofiq Abbasov “XQ”-yə açıqlamasında** Paşinyanın Ermənistanın xilas



yolunun qarşıdurmadan deyil, Azərbaycan və Türkiyə ilə barışıqdan keçdiyini anladığını dedi: “Bəli, Paşinyandan fərqli olaraq, kilsə, diaspor təşkilatları, lobbiçilər, xaricdəki bəzi qüvvələr cidd-cəhdlə çalışırlar ki, Ermənistanla Azərbaycan arasında sülh olmasın. Amma Paşinyan yaxşı başa düşür ki, qarşıdurma xəttinin davam etdirilməsi Ermənistanın axırına çıxa bilər. Həmin radikalların, revanşistlərin əsas məqsədi hakimiyyəti ələ keçirməkdir. İnandırım sizi ki, əgər onlar hakimiyyətə gəlsələr özləri Azərbaycanın qarşısında təzim edəcək və şərtlərimizlə razılaşacaqlar. Sadəcə olaraq, sabiqlər, Qarabağ klanı, kilsə Nikol Paşinyana olan nifrətlərini gizlədə bilmirlər.

Prezident İlham Əliyevin müdrikcəsinə söylədiyi bir fikri xatırladım. Dedi ki, biz öz qələbəmizlə Paşinyanın deyil, Koçaryan və Sarkiyanın ordusunu məğlub etdik. Tarixi ədaləti bərpa etmək isə bizim haqqımız idi. Hazırda cəmiyyətdə revanşizmi körükləməyə çalışan həmin klan hakimiyyətə qayıtmaq barədə düşünür. Qarşıdurmanın, gərginliyin artması onların maraqlarına cavab verir. Revanşistlərin qovluğunda isə “sülh paketi” yoxdur. Biz bunun təsdiqini əyani şəkildə görmüşük. Paşinyan isə sülh yolunun alternativinin olmadığını anlayır. Əgər həmin sabiqlər yenidən hakimiyyətə yiyələnsələr və doğrudan da, qarşıdurma meyillərini gücləndirsələr, başlarına iş açacaqlar. Çünki, üç gün bundan əvvəl Prezident İlham Əliyev məhz həmin qaragüruhu nəzərdə tutaraq, onlara xəbərdarlıq etdi.

Hətta onların arxasında duran Fransaya, ABŞ-a da ciddi mesaj göndərərək bir daha xatırlatdı ki, bölgənin daxili işlərinə qarışmayın, çünki burada söz və güc sahibi bizik”.

Təbii ki, Azərbaycan bütün variantlara hazırdır və dediyi sözün ağasıdır. Biz otuz ilə yaxın haqsızlığa dözə-dözə ona görə güclənmədik və ərazilərimizi işğaldan azad etmədik ki, indi yenidən avantürist ssenarilərə dözək. Bu, olmayacaq. Bölgənin və dünyanın bütün sağlam qüvvələrinin Azərbaycanın mövqeyini dəstəklədiyini söyləyən ekspert bir qonşu kimi heç vaxt Ermənistana xor baxmadığımızı qeyd etdi: “Əksinə, onlar həmişə biz tərəfə çəpəgi baxıblar. Keçmişin xəyalları ilə yaşayan revanşistlərin çirkin və ikiüzlü əməlləri ilə heç vaxt barışmayacağıq. Nəhayət, başa düşməlidirlər ki, Azərbaycan sözdən konkret hərəkətə keçib və bu yoldan dönən deyil. İndi otursunlar və düşünsünlər ki, bundan sonra öz məkrli siyasətlərini heç bir halda Azərbaycana sırıya bilməyəcəklər. İstəyimiz onların sülhə gəlməsidir. Yox, əgər bunu istəmirlərsə, onda özlərindən küssünlər”.

### “Keşişin şansı yoxdur”

Kənardan belə görünür ki, hazırda Ermənistan ictimaiyyəti seçim qarşısındadır. Ya keşişin arxasınca gedib müharibəyə razılığını bildirməli, ya da Paşinyanı dəstəkləməklə sülh danışıqlarının məntiqi sonluğa çatmasına nail olmalıdır. **Bakının hər iki varianta hazır olduğunu deyən “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu** hesab edir ki, keşiş tərəfdarları qalib gələrsə, ardınca sərhəddə basdırılan dirəklər sökülərsə, bu, müharibə demək olacaq: “Növbəti müharibədə də Azərbaycanın qələbəsi labüddür və bu halda biz tarixi torpaqlarımıza da qovuşacağıq. Düşünürəm ki, erməni cəmiyyəti bunu anladığına görədir ki, geniş kütlə keşiş Qalstanyanın arxasınca getmir. İkinci Qarabağ müharibəsində biabırçı məğlubiyyətdən sonra həmin daşnak revanşistlər bir ay meydanlarda sülləndilər, qışqırdılar, amma heç bir nəticə əldə edə bilmədilər. Nikol Paşinyan hakimiyyətini qorudu və növbədənkənar parlament seçkilərində onun partiyası səslərin çoxunu qazandı. Hesab edirəm ki, indi də oxşar vəziyyətdir və bir müddətdən sonra etirazlar



səngiyəcək. Əlbəttə ki, Azərbaycan müharibəyə hazırdır, fəqət biz Ermənistanda sabitliyin tərəfdarıyıq. Ona görə bunda maraqlıyıq ki, rəsmi İrəvan imzasını atdığı bütün sənədlərdəki öhdəliklərinə riayət etməlidir”.

Dövlət başçımızın Şuşadakı məlum çıxışında bu məsələyə tam aydınlıq gətirdiyinə diqqət çəkən E.Şahinoğlu Azərbaycanın bir daha müharibə istəmədiyini, Qarabağda quruculuq işlərini davam etdirdiyini bildirdi: “Yox, əgər bizi hərbi qarşıdurmaya təhrik etsələr, cavablarını artıqlaması ilə alacaqlar. Cənab Prezident ikinci mesajını Ermənistandakı radikallara ünvanladı. Yəni, nəzərə çatdırdı ki, rəsmi İrəvan bugünədək əldə olunmuş ikitərəfli razılaşmalardan imtina etsə, bu halda daha ağır zərbələr endirə bilərik. Bu, eyni zamanda, həmin radikal revanşistlərin arxasınca getmək barədə düşünən ermənilərə mesaj sayılmalıdır. Real proqnoz odur ki, Ermənistan ictimaiyyəti dediyimiz reallıqları anladığına görə, keşişin arxasınca getməyəcək, Paşinyanı və sülhü dəstəkləyəcək”.

### Qarabağ erməniləri də ayılıblar

“Onu demək istərdim ki, Nikol Paşinyanın əleyhdarları onu yıxmaq iqtidarında deyillər”. **Bu qənaətini qəzetimizin oxucuları ilə bölüşən Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov**



bunu revanşist qüvvələrin cəmiyyətə çatdırmaq üçün heç bir pozitiv proqrama malik olmamaları ilə izah etdi: “Doğrudur, onlar Paşinyanı söyürlər, amma tutaq ki, Paşinyanı devirdilər, sonra gəlib Azərbaycanla müharibə aparacaqlar? Bundan ötrü onların nə gücləri, nə də cəsarətləri çatar. “Dəmir yumruğ”un təsiri hələ başlarından çəkilməyib. Yəni, erməni xalqı övladlarını bir daha Azərbaycanın müzəffər Ordusunun qarşısına göndərməyə razılaşmayacaq. Bu qüvvələrin Paşinyanı yıxmaq ehtimalı olduqca zəifdir. Etiraz yürüşünü, impiçmenti dəstəkləyən Koçaryan və Sarkisyanı indiki durumda ən çox maraqlandıran canlarını və mal-mülkləri qoruya bilmələridir. Guya, onlar gəlib Rusiya ilə müttəfiqliyi bərpa edəcəklər, bu amildən yararlanacaqlar və s. qeyri-ciddi söhbətlərdir. Uzun sözün qısası, bu antimilli qüvvələrin nə hakimiyyətə gəlmək, nə də ki Azərbaycana qarşı nəsə etmək şansları var. Hətta, ikinci variantda xarici tərəfdaşlarını münaqişəyə cəlb etmək xəyallarına düşsələr belə, Türkiyə amilini yaddan çıxarmamalıdırlar. Yoxsa, yenidən torpaqlarımızı işğal etmək barədə düşünürlər? Bunu heç yuxularında da görməyəcəklər. Sadəcə, hakimiyyətə gəlmək üçün faydasız cəhdlərə baş vururlar”.

Keşişin başladığı etiraz hərəkatının artıq sönməyə doğru getdiyini vurğulayan millət vəkili Qarabağdan köçmüş ermənilərin də arxiyepiskopun arxasından çəkiləcəklərinə əmin olduğunu söylədi: “Paşinyan onlara da çatdırdı ki, həmin Koçaryan və Sarkisyanın ucbatından evinizdən–eşiyinizdən olmusunuz. Məgər, bu, sizə dərs olmadı? Onlar sizi yeni qırğına verməyə hazırdırlar. Yox, əgər Ermənistanda məskunlaşmaq istəyirsinizsə, bunu sizə yalnız Paşinyanın hökuməti verə bilər. Qarabağ erməniləri də artıq ayılıblar və başa düşürlər ki, keşişin, sabiq klanın məqsədləri hakimiyyətə gəldikdən sonra onları növbəti qırğına verməkdir. Buna görə revanşistlər güclü sosial bazaya malik deyillər”.

### Sabah gec ola bilər

Ermənistandakı mövcud durum Cənubi Qafqazda yeni münaqişə və qarşıdurma təhlükəsini təhdid edir. Revanşistləri dəstəkləyən Qərbin bəzi dövlətləri arzuladıqları hakimiyyət dəyişikliyinin həm özləri, həm də Ermənistan üçün indi proqnozlaşdırılması mümkün olmayan fəsadlara və təhlükəyə səbəb ola biləcəyini mütləq nəzərə almalıdırlar. Bütün hallarda məsuliyyət rəsmi İrəvanın üzərində qalacaq. Bunun acı nümunəsi göz qabağındadır. Ermənistan 30 il ərzində Azərbaycanın xəbərdarlığından nəticə çıxarmadı və çox ağır itkilərlə, faciələrlə üzləşdi. Ona görə də Ermənistan daha çirkin təbliğatdan, siyasi oyunbazlıqdan uzaq durmalıdır. Aydın məsələdir ki, hazırda Cənubi Qafqazda Fransanın simasında Qərb və Rusiya qarşıdurması davam edir. Qərb strateji və məkrli planlarını həyata keçirmək üçün bölgədə yeni münaqişə ocağını qalamağa çalışır. Bu zaman qərbçilər Rusiyanın diqqətini Ukraynadan çəkib, bu bölgəyə yönəltmək niyyətini güdürlər. Bu, olduqca təhlükəli ssenaridir və regionun bütün ölkələri üçün ciddi problemlər yarada bilər.

İndi Ermənistanda müşahidə etdiyimiz hadisələr bizə yüz il əvvəl baş verənləri xatırladır. XX əsrin əvvəllərində “Qnçak” və “Daşnaksütyun” terrorçularına təkcə zəhərli xeyir-duaları ilə silaha sarılmağa çağırmaqla kifayətlənməyib, həm də birbaşa yardımlarla, kilsələrin zirzəmilərini silah anbarına çevirməklə məhz ermənilərin “müqəddəs” ataları məşğul idi. Ona görə də Ermənistanın hüquq-mühafizə orqanlarının qulaqları keşiş moizələrini siyasi çevrilişə çağırışdan, sülhə deyil, xaos və müharibəyə etdikləri dualardan ayırmağı bacarmalıdır. Artıq qara çuxalı və qara niyyətli katolikosların cəmiyyətə üfürdükləri nifrət və milli naqislik moizələrinin xalqı uçuruma sürüklədiyini anlayan haylar az deyil. Müharibədən yorulmuş, dincliyi və güzaranı pozulmuş sıravi erməninin məhz Nikol Paşinyanın göstərdiyi yolla getmək, ona inanmaq və arxasında durmaqdan başqa seçimi yoxdur.

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan–Sinqapur əməkdaşlığı inkişaf edir



**Milli Məclisin Sədri Sahibə Qafarova Sinqapur Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkə parlamentinin sədri Seah Kian Penq ilə görüşüb.**

Sinqapur parlamentinin sədri bu səfərin ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrə töhfə verəcəyinə əminliyini bildirib. O, ölkələrimiz və qanunverici orqanlarımız arasında əlaqələrin daha da inkişafının vacibliyini vurğulayıb.

Söhbət zamanı bu il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün tamam olduğu diqqətə çatdırılıb və ötən illər ərzində bir sıra sahələrdə əməkdaşlığın inkişaf etdiyi bildirilib.

Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı çərçivəsində uğurla əməkdaşlıq etdiyi bildirilib. S.Qafarova Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti haqqında məlumat verərək, şəbəkənin parlamentlərimizin əməkdaşlığı baxımından mühüm bir platforma ola biləcəyini söyləyib. O, həmçinin Milli Məclisin 2022-ci ildə ASEAN Parlamentlərarası Assambleyasında müşahidəçi statusu aldığını, bu təşkilatın da əməkdaşlıq baxımından daha bir imkan olduğunu deyib.

Söhbət zamanı ölkələrimiz arasında iqtisadi, ticarət, nəqliyyat sahələrində əməkdaşlıq məsələləri də nəzərdən keçirilib. Həmçinin təhsil, elm, mədəniyyət, gənclər və idman sahələrində əlaqələrin inkişafının əhəmiyyəti qeyd olunub. Bu cür əməkdaşlığın ölkələrimiz arasında əlaqələrin inkişafına, insanlar arasında təmasların möhkəmlənməsinə töhfə verəcəyi diqqətə çatdırılıb.

Spiker qarşı tərəfə bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29 haqqında da məlumat verib. O, ölkəmizin belə mühüm beynəlxalq tədbirə ev sahibliyi etməsinin Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə təkcə milli deyil, həm də regional və qlobal miqyasda göstərdiyi səylərin tanınmasının göstəricisi olduğunu söyləyib. S.Qafarova sessiya çərçivəsində Parlamentlərarası İttifaq və Milli Məclisin birgə təşkilatçılığı ilə keçirilməsi nəzərdə tutulan parlament iclası haqqında da məlumat verərək, Sinqapur parlamentinin sədrini bu mühüm tədbirə dəvət edib.

Sonra Milli Məclisin nümayəndə heyəti Sinqapur parlamenti ilə tanış olub.

***Ə.BƏDƏLOV***
***XQ***

REPLİKA

**Çərşənbə günü Azərbaycan Prezidenti İlham Əliyev Şuşa şəhərinin sakinləri ilə görüşdə Qarabağ münaqişəsinin həllindəki fəaliyyətinə görə ATƏT-in Minsk qrupu ölkələrini sərt tənqid etdi. Bu zaman dövlətimizin başçısı Azərbaycanın maraqlarına cavab verən qərarlar qəbul etməyən ABŞ, Rusiya və Fransanın həmsədrliyi ilə Minsk qrupunun təxminən otuz illik vasitəçiliyindən narazılığını da dilə gətirdi: “28 il ərzində Minsk qrupunun fəaliyyəti Azərbaycan xalqına qarşı yönəldilmişdi”.**

# “Oxunmuş nağıllar” rəfi

## ATƏT-in Minsk qrupunun sonluqsuz hekayəti ora atılıb

Cənab Prezident keçmiş sovet liderlərini və Qərb dövlətlərini mübahisəli ərazilərlə bağlı Ermənistana yalan vədlər verməkdə, bunun isə uzun sürən münaqişəyə və hər iki tərəfin əzab-iztirablarına səbəb olmasında ittiham edib. “Necə ki sovet dövründə ermənipərəst Mixail Qorbaçov və ondan sonra hakimiyyətə gəlmiş Boris Yeltsin bu torpaqları ermənilərə vəd etmişdilər, Fransa da, Amerika da həmçinin. Onlar məsələni həll etmək istəmirdilər”, – deyən İ.Əliyev indi artıq regional diplomatiyanın böyük oyunçuları – Fransa və Amerikanın Azərbaycanın mövqeyini nəzərə almalı olduqlarını bildirib.

Qeyd edək ki, Azərbaycan liderinin məlum bəyanatı ABŞ səfirinin Şuşaya səfərindən az sonra səslənib. “Hansısa səfirin Şuşaya gəlməsi bizə minnət kimi təqdim edilməməlidir. Burada, bu torpaqda söz sahibi bizik. Bizim siyasətimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır”, – deyə Prezident İlham Əliyev bildirib.

ABŞ səfirliyi Prezident İlham Əliyevin sərt tənqidinə özünəməxsus formada, diplomatik tərzdə yumşaq reaksiya verib. Dövlətimizin başçısının ünvanlı ittihamlarını “Amerikanın səsi” radiosunun Azərbaycan xidmətinə şərh edən ABŞ-nin Azərbaycandakı səfirliyində birbaşa cavabdan yayınaraq, sülh müqaviləsinin bağlanması üçün Azərbaycanla Ermənistan arasında diplomatik səylərin davam etdirilməsinin vacibliyini vurğulayıblar. ABŞ səfirliyində onu da qeyd ediblər ki, hər iki ölkə onların suverenliyini və ərazi bütövlüyünü tanıyan saziş yolunda əhəmiyyətli uğurlar qazanıb: “Biz bu dinamikanı saxlamağa və əvvəlki danışıqların nəticələrinə əsaslanan sazişi bağlamağa çağırırıq. Biz hər iki ölkənin rəhbərliyini dəstəkləməkdə davam edirik və hər kəsin hüquqlarına hörmət edilən layiqli və davamlı sülhə nail olmaq üçün yardımımızı təklif edirik”.




Yeri gəlmişkən, dünən Bakıda səfərdə olan ATƏT-in fəaliyyətdə olan sədri, Maltanın Xarici, Avropa işləri və ticarət naziri İan Borqu qəbul edərkən Azərbaycan Prezidenti İlham Əliyev bu təsisatın ömrünü başa vurduğunu onun nəzərinə çatdırdı: “Artıq Ermənistan–Azərbaycan münaqişəsi tarixdə qaldı və mövcud deyil. Buna görə ATƏT-in Minsk qrupu və onunla əlaqədar olan bütün təsisatların ləğv edilməsinin vaxtıdır. Azərbaycan tərəfi bu məsələni qaldırıb və Ermənistan tərəfinin də buna razı olmaması üçün hər hansı bir səbəb görünmür”.

Rəsmi Bakının həm keçmişdə qalmış ATƏT-in Minsk qrupu, həm də Ağ evin Cənubi Qafqazda yürütməyə çalışdığı ikibaşlı siyasətinə kifayət qədər aydın və sərt mövqeyini ortaya qoyan İlham Əliyevə nə birinci, nə də ikinci instansiya arqumentli cavab verə bildi. Buna görə ümumi tezislərlə tərəflərə “dəstəyi davam etdirəcəkləri” və “bölgədə layiqli və davamlı sülhə nail olmaq üçün yardımlarını kəsməyəcəkləri” kimi ümumi şərhlər açıqladılar. Axı, onların deməyə başqa sözləri də qalmayıb. Azərbaycanın üç il altı ay bundan əvvəl tarixin siyasət arxivinə göndərdiyi həmin Minsk qrupunun saxta sənədlərlə dolu dosyesinin yeri “özünü doğrultmayanlar” qrifli rəfidir.

***İ.HƏSƏNQALA***
***XQ***

# AMEA-nın yeniləşmə kursu: dövlətçilik və müasirlik kontekstində

## (fəlsəfi yanaşma)



### II MƏQALƏ

***Biz çox istəyirik ki, elmi inkişaf üçün daha da gözəl şərait yaradılsın.***

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

Tədqiqat azadlığı ilə sosial məsuliyyətin münasibətinə AMEA-nın yeniləşmə kursu kontekstində yanaşanda təşkilat rəhbərliyinin fəaliyyətinin çox məqamları aydın olur. Öncə, şübhə doğurmur ki, yeniləşmə mütləq surətdə ölkənin strateji inkişaf kursunun tələblərinə uyğun aparılmalıdır. Bunun reallaşma mexanizmi isə AMEA-nın struktur-funksional ənənəsi ilə dövlətçilik və müasirliyin optimal sintezinin müəyyən edilməsi əsasında mümkün ola bilər. AMEA-da yeniləşmə, məncə, məhz bu istiqamətdə aparılır. Burada “struktur-funksional ənənə”dən I məqalədə bəhs etmişik, “dövlətçilik” anlayışı haqqında da kifayət qədər izahlar müxtəlif mənbələrdə verilmişdir. “Müasirlik” termininin baxdığımız kontekstdə nəyi ifadə etdiyi üzərində dayanmağa ehtiyac vardır.

### Elm, müasirlik və aktuallıq

Müasirliyin fəlsəfi anlamı mürəkkəbdir və çoxaspektlidir. Çünki bu termin hazırda cəmiyyətlərdə, şüurlarda və dövlət idarəetməsində baş verən dəyişmələrin modernləşmə aspektində özəlliklərini ifadə edir. Ancaq modernləşmənin özünün fəlsəfi anlamı da qeyri-müəyyəndir. Əgər iqtisadi modernləşmə nəzərdə tutulursa, bir qrup parametrlər nəzərə alınmalıdır.

Siyasi-ideoloji modernləşmə dedikdə, adətən, vesternizasiya (qərbləşmə) nəzərdə tutulur ki, bunun da müxtəlif anlamları mövcuddur.

Mənəvi-mədəni, əxlaqi müasirləşmək də eyni qaydada, adətən, vesternizasiya kontekstində başa düşülür. Hazırda vesternizasiya heç də normal və tərəqqi kimi qəbul edilən proses deyildir.

Bu baxımdan “elmin vesternizasiyası” həm məzmun, həm də yeniləşmə istiqaməti olaraq qeyri-müəyyənliyi və xeyli absurd yanaşmanı ifadə edir. Lakin bu, ümumiyyətlə, “elm - müasirləşmə” yanaşmasını arxa plana atmır. Xüsusilə, AMEA-nın yeniləşmə fəlsəfəsinin dərki baxımından onun əhəmiyyəti çoxdur.

Elmi kontekstdə müasirləşmə iki cəhətdən əhəmiyyətli görünür. Birincisi, elmi fəaliyyətin təşkilinin inkişaf etmiş ölkələrdə uğurlu olan təcrübəni nəzərə alaraq yenidən məzmunlaşdırılmasıdır. İkincisi, elmi tədqiqatların nəticələrinin dövlətin strateji inkişaf kursunun daxili məntiqi və tələblərinə uyğun qiymətləndirilməsi və tətbiq edilməsi mexanizmlərinin yeniləşməsidir.

Birincini qısa olaraq “xarici təcrübə” adlandırsaq, maraqlı mənzərə qarşıya çıxır. Çünki həmin təcrübənin özü tərkib və məzmunca heterogendir (eyni faktorlardan deyil, fərqli faktorlardan ibarətdir). Bunu son illər elmlərarası əlaqələrin inkişafı kontekstində dünyanın müxtəlif ölkələrində aparılan tədqiqatlarda alınan nəticələr sübut edir. Məsələn, Latın Amerikası ölkələrində yeniləşmə təcrübəsi Uzaq Şərqin (məsələn, Sinqapurun) və Avropanın yeniləşmə təcrübəsi ilə üst-üstə düşmür. Avropa üçün səmərəli ola bilən təcrübə Latın Amerikasında elmi fəaliyyətin təşkilini geri ata bilir. Eyni məntiqlə Sinqapurda və ya Koreyada elmi yeniləşmə prosesi haqqında demək olar. Hər üç qitə üçün konkret aparılan tədqiqat əsasında biz bu qənaəti ifadə edirik.

Amerikalı və ya avropalı pedaqoqun yaradıcılıq haqqında təsəvvürü koreyalı və sinqapurlu pedaqoqun təsəvvüründən məzmunca fərqlənir. Koreyalı filosoflar və sosioloqlar bu nəticəni apardıqları geniş araşdırmalar nəticəsində almışlar.

Eynilə Latın Amerikasında intensiv olaraq elmin fənlərarası tədqiqat aspektində modernləşməsi ilə bağlı araşdırmalar aparılır. Onlar da təcrübə və ənənəyə görə, başqa regionlardan fərqli olduqlarını qəbul edirlər.

Azərbaycan indi bu təcrübələrdən hansını “müasir və yenilikçi” saysın? Bunun üçün kifayət qədər geniş fəlsəfi, sosioloji, kulturoloji, korss-kültür və konkret elmi-psixoloji araşdırmalar aparmaq lazımdır. Hələ o araşdırmaların nəticələrini necə ümumiləşdirməyin lazım gəldiyi ayrıca yanaşma tələb edir.

Bundan başqa, Azərbaycanda elmi fəaliyyətin təşkili təcrübəsi mövcuddur. Deməli, çıxış yolu ondan ibarətdir ki, mövcud Azərbaycan təcrübəsini müasir dövləti və toplumsal inkişafın müəyyən edilmiş şərtlərinə uyğun inkişaf etdirmək daha doğru yoldur. Burada bir mühüm məqamı təkrar vurğulamaq lazımdır, çünki haqsız iradlar da yarana bilər.

Mən heç də xarici uğurlu təcrübədən uzaq durmağı təbliğ etmirəm. Əksinə, onları sistemli və ardıcıl olaraq dərindən öyrənməliyik. Ancaq AMEA kimi təşkilatda elmi fəaliyyətin təşkili Azərbaycandakı ənənədən qaynaqlanaraq, onun müasir yanaşmalarla sintezində həyata keçirilməlidir. Bunun üçün isə Azərbaycanın strateji inkişaf kursunun təməl şərtləri fonunda kollektiv yaradıcılıq formalarının praktiki-tətbiqi məqamı ciddi nəzərə alaraq yeniləşməsi ilə beynəlxalq əlaqələri gücləndirmək gərəkdir. AMEA indi məhz bu istiqamətdə yeniləşmə kursunu ardıcıl olaraq gücləndirir. Burada gecikmək qədər, tələsmək də risklidir!

Bir qədər də ümumiləşdirsək, deyə bilərik ki, AMEA malik olduğu təcrübəni dövlət və ölkənin inkişaf xətti çərçivəsində innovativlik aspektində müasirləşdirməlidir. Bu müstəvidə elmi-tədqiqat institutlarının struktur-funksional təşkili, onlar arasında əməkdaşlığın daha səmərəli olması və konkret nəticə verən komanda yaradıcılığın irəli aparılması zəruridir. Müşahidələr göstərir ki, AMEA həmin istiqamətdə fəaliyyətini davam etdirir.

AMEA-nn malik olduğu mövcud təcrübə nəzərə alınmasa, ümumiyyətlə, ölkə elminin perspektiv inkişafını riskə atmış oluruq. Bu təməl üzərində AMEA həm özü yeniləşməli, həm də digər elmi təşkilatları yeniləşməyə stimullaşdırmalıdır. Başqa heç bir elmi qurum bu işin öhdəsindən gələ bilməz. Çünki yalnız AMEA ən ümumi və geniş miqyasda illərdir ki, Azərbaycanda elmi fəaliyyətin və onun institutlaşmasının aparıcısı rolunda çıxış edir.

Nəhayət, AMEA-nın yeniləşməsinin, bütövlükdə, cəmiyyət üçün əhəmiyyətinin sosial-psixoloji aspekti də çox önəmlidir. Məsələ ondan ibarətdir ki, Azərbaycan ictimai şüurunda və rəydə AMEA-nın yüksək elmi nüfuzu vardır. Bu, illərdir insanların psixologiyasında formalaşmışdır. Buna görə də cəmiyyət hər zaman AMEA-ya yüksək nəticələrin alındığı təşkilat kimi baxır və onu nümunə hesab edir. Əgər AMEA yeniləşməni uğurla etməsə, bu, cəmiyyətə sosial-psixoloji olaraq neqativ təsir edə bilər. Ümumiyyətlə, Azərbaycan elminə inam azalar.

Bunlardan aktuallıq məsələsinin fəlsəfi anlamına keçid etmək mümkündür. Yəni AMEA-nın yeniləşməsi Azərbaycan üçün hansı səbəblərdən aktual hadisə sayılmalıdır? Bunun dövlət, cəmiyyət və elmi camiyə üçün əhəmiyyəti nədən ibarətdir?

### AMEA-nın yeniləşməsi aktuallığı

Elmi yeniləşmənin müasirliklə bağlı bir sıra məqamları haqqında yuxarıda dediyimiz fikirlər özlüyündə tədqiqat sərbəstliyi ilə məsuliyyətin optimal nisbəti məsələsini ön plana çıxarır. Bu faktorun işığında AMEA-nın yeniləşməsinin bütün cəmiyyət üçün aktuallığı aydın olur.

Çünki AMEA elmi təşkilat kimi ciddi məsuliyyəti olan bir qurumdur. İndiki mərhələdə bu aspektə çox diqqət yetirilir və təşkilatın rəhbərliyi bunda tam haqlıdır. Yenləşmə, doğrudan da, elə bir hadisədir ki, orada məsuliyyət ön plana çıxır. Yeniləşmənin aktuallığının məsuliyyət tərəfi məsələnin dövlətin inkişaf strategiyası ilə birbaşa bağlı olmasından qaynaqlanır.

AMEA indi həmin kontekstdə məsuliyyətini tam dərk edən təşkilat təsiri bağışlayır və buna görə də yeniləşmənin uğurlu olacağına inam böyükdür. Ancaq burada başqa bir incə məqam da vardır. Məsələ əməkdaşların məsuliyyəti ilə bağlıdır. Əməkdaşlar fərdi və kollektiv miqyaslarda dövlət və cəmiyyət qarşısında məsuliyyəti dərindən dərk etməlidir ki, bütövlükdə, AMEA miqyasında yeniləşməyə konkret töhfə verə bilsinlər. Burada başqa mexanizm işləmir. Təşkilatın hər struktur səviyyəsində dinamik fəaliyyət olmalıdır. Deməli, institut kollektivləri tərəfindən AMEA rəhbərliyinin yeniləşmə kursuna ciddi dəstək olmalıdır.

Yeniləşmə prosesinin bu aspekti şübhə doğurmur. Onu nəzərə almaq lazımdır ki, yeniləşmə yalnız AMEA hüdudları çərçivəsində aktual deyildir – dövlət miqyasında da aktualdır! Çünki yeniləşmə strateji inkişafın uğurlu olması naminə aparılır və onun aktuallığının mərkəzi punktunu bu tezis təşkil edir. Faktiki olaraq AMEA-nın inkişafı məsələsi dövlətçiliyin inkişafı kontekstinə tam yerləşdirilmişdir. Təşkilat rəhbərliyi bunu bacardı və şübhəsiz ki, böyük nailiyyətdir. Həm AMEA-nın gələcəyi, həm də dövlət səviyyəsində həyata keçirilən və keçiriləcək islahatların elmi əsaslarının daha da genişləndirilməsi baxımından.

AMEA faktoru bu prosesə nə qədər dərindən nüfuz etsə, idarəetmədə elmin rolu bir o qədər artacaq. Əlbəttə, Azərbaycanda elmin dövlət idarəetməsində iştirakının ciddi ənənəsi mövcuddur. Ulu öndər Heydər Əliyev məsələnin bu tərəfinə daim böyük diqqət göstərmişdir. Hazırda Azərbaycan Prezidenti İlham Əliyev həmin prosesi yeni mərhələyə yüksəldir. O, dövlət, ölkə və cəmiyyət üçün aktual olan məsələlərin araşdırılması ilə əlaqədar elmi camiyəyə müraciətlər edir. Məsələn, milli ideya ilə bağlı Prezident İlham Əliyevin ziyalılara səslənişi tarixi əhəmiyyətli hadisədir.

Bu fakt da onu göstərir ki, Prezident İlham Əliyev yeni, daha geniş miqyasda ölkənin elm camiyəsini dövləti işlərdə fəal iştiraka istiqamətləndirir və bunun həyata keçməsi üçün lazım olan bütün şəraiti yaradır. Buna görədir ki, Azərbaycan ziyalıları dövlət başçısının dəvətinə fəal reaksiya verirlər. O cümlədən, AMEA-da milli ideya ilə bağlı araşdırmalar intensiv olaraq aparılır.

Bunlardan aydın olur ki, Prezident İlham Əliyev alimlərlə ünsiyyətə ciddi diqqət yetirir və elmi nəticələrə böyük maraq göstərir. Strateji inkişafa aid sənədlərdə də mütləq elm və təhsil nəzərə alınır.

Yüksək strateji zəka sahibi olan Prezident dövlətin gələcək inkişafında, şübhəsiz ki, alimlərin iştirakını davamlı olaraq dərinləşdirəcək və genişləndirəcək. Bu, o deməkdir ki, Azərbaycan alimləri dövlət qarşısında böyük məsuliyyət daşıdıqlarını bilməli və ona uyğun fəaliyyət göstərməlidirlər. Daha konkret səviyyədə bu, tədqiqat sərbəstliyi ilə alim məsuliyyətinin optimal nisbətinin təminatını ifadə edir.

AMEA-nın yeniləşmə ruhu bu istiqamətə tam uyğundur və təşkilatın rəhbərliyinin fəallığının artması bu baxımdan çox müsbət haldır. Bu məqamda AMEA-nın yeniləşməsinin dövlətçilik və müasirliklə əlaqəli başqa bir əhəmiyyətli özəlliyinə baxmaq ehtiyacı yaranır.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Hindistanın da Qərbə qısa yolu Azərbaycandan keçir

**(əvvəli 1-ci səhifədə)**



Göründüyü kimi, Azərbaycan ərazisindən keçən nəqliyyat-logistika layihələrində maraqlı olan ölkələrin sayı getdikcə artır. Hindistan da Çin kimi öz mallarını Azərbaycan ərazisindən tədarük etməyi düşünür. Ancaq Mərkəzi Asiya, Cənubi Qafqaz, Türkiyə və Avropa istiqamətində nəqliyyat layihələrinin genişləndirilməsi üzrə təşəbbüslərini fəal şəkildə inkişaf etdirən Çindən fərqli olaraq, Hindistan “logistika yarışı”na nisbətən gec – təxminən, 20 il sonra qoşulub. Hindistan indiyədək öz mallarını Qərb bazarlarına çıxarmaq üçün əsasən Ərəbistan dənizindən, Qırmızı dənizdən və Süveyş kanalından keçən dəniz yollarından istifadə edirdi. Ancaq Yəməndə husi üsyançılarının ticarət gəmilərinə hücumu ilə əlaqədar Qırmızı dənizdəki mövcud vəziyyət Hindistanın ixracatına da təsir göstərib və ölkəni quru nəqliyyat və logistika marşrutlarını daha fəal inkişaf etdirməyə məcbur edib. “CRISIL Ratings” beynəlxalq reytinq agentliyinin məlumatına görə, Hindistan “Ümid” burnu vasitəsilə Qırmızı dənizdən yan keçmək zərurəti ilə əlaqədar itkilərə məruz qalır. Qiymətləndirməyə görə, ölkə mart ayında başa çatmış maliyyə ilində ixracatda 30 milyard dollardan çox itki ilə üzləşmiş ola bilər.

Eyni zamanda, Hindistan daha əvvəl beynəlxalq nəqliyyat dəhlizlərinin, xüsusən də keçən ilin sentyabrında təqdim edilən Hindistan–Yaxın Şərq–Avropa İqtisadi Dəhlizinin (IMEC) bir hissəsi olmağı planlaşdırırdı. İsrailin iştirakı ilə həyata keçirilən layihə, Çinin “Bir kəmər, bir yol” təşəbbüsünə cavab olaraq bu marşrutu Hindistanla birgə təqdim etməyə çalışan ABŞ-dən dəstək alıb. Lakin layihənin təqdimatından cəmi iki ay sonra İsrail və Fələstinin HƏMAS hərəkatı arasında daha bir tammiqyaslı müharibə baş verib. Təbii ki, bu, IMEC layihəsinin icrasının ləngiməsinə səbəb olub.

Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin həyata keçirilməsində Oman körfəzinə çıxışı olan İran limanları xüsusi əhəmiyyət kəsb edir. Xüsusilə, Oman körfəzində yerləşən Çabahar limanı Hindistana kifayət qədər yaxın, Fars körfəzindən kənarda yerləşir və daha əlverişli coğrafi mövqeyə malikdir. Məhz əhəmiyyətinə görə, Çabahar limanı bu illər ərzində infrastrukturunun inkişafına təxminən yarım milyard dollar sərmayə qoyan Nyu-Dehlinin hər zaman diqqət mərkəzində olub. Limanın idarəçiliyini ələ alan Hindistan Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizindən, xüsusən də onun Azərbaycan ərazisindən keçən qərb marşrutundan daha fəal istifadə edə biləcək. “Nə üçün məhz Azərbaycan ərazisindən keçir?” sualının cavabı da sadədir: Axı, Şimal-Cənub məhz Azərbaycan ərazisində Hindistan üçün daha bir vacib layihəyə – qlobal Cənubun istehsalçılarını avropalı istehlakçılarla birləşdirən Transxəzər marşrutuna (Orta dəhliz) inteqrasiya olunub.

Layihə artıq aktiv şəkildə işləyir. Onu da qeyd edək ki, Hindistan dəfələrlə İrəvandan İran–Ermənistan–Gürcüstan–Qara dəniz nəqliyyat marşrutuna qoşulmaqla bağlı təkliflər alıb. Nyu-Dehli hətta bu layihəyə maraq da göstərib. Ancaq Ermənistanın təklif etdiyi marşrutdan fərqli olaraq, Azərbaycan ərazisində nəsə tikməyə, infrastrukturu inkişaf etdirməyə ehtiyac yoxdur. Yəni, Hindistan bu layihənin modernləşdirilməsinə sərmayə qoymağa məcbur olmayacaq. Xüsusilə nəzərə almaq lazımdır ki, Orta dəhlizin Bakı–Tbilisi–Qars dəmiryolu hissəsinin modernləşdirilməsi üzrə işlər başa çatdırılıb. Bunun sayəsində layihənin ötürücülük qabiliyyəti ildə 1 milyon tondan 5 milyon tona yüksəlib. Beləliklə, İranda Rəşt–Astara hissəsinin tikintisi başa çatdıqdan sonra Şimal–Cənub nəqliyyat dəhlizinin qərb marşrutu Hindistan yükgöndərənlərinə təkmilləşdirilmiş infrastruktur təklif edə biləcək. Azərbaycanda Orta dəhlizə inteqrasiya isə Hindistan tədarükçüləri üçün Qərb bazarlarına yol açacaq.

**Mövzu ilə bağlı fikirlərini öyrəndiyimiz Beynəlxalq Münasibətlərin Təh-**



**lili Mərkəzinin şöbə müdiri, politoloq Cavid Vəliyev bildirdi ki,** razılaşma Azərbaycanın, regionun, eləcə də dünyanın nəqliyyat xətləri baxımından olduqca vacib anlaşmadır. Onun sözlərinə görə, Şərqlə Qərb arasında ticarətin, yükdaşımaların doxsan faizi dənizlər və okeanlar vasitəsilə həyata keçirilir. Malakka boğazından, Hind okeanından, Süveyş kanalından və Aralıq dənizindən keçməklə yüklər Şərqdən Qərbə çatdırılır.

Müsahibimiz qeyd etdi ki, bu, çox ucuz, lakin çox uzun zaman alan daşımaçılıqdır. Daşınmanın müddətini qısaltmaq üçün dövlətlər tərəfindən müəyyən addımlar atıldı: “Məsələn, Çinin “Bir kəmər, bir yol” təşəbbüsü irəli sürüldü. Bundan əlavə, 2023-cü il sentyabrın 9-10-da Nyu-Dehlidə keçirilən G-20 ölkələrinin zirvə görüşündə Hindistan–Yaxın Şərq–Avropa İqtisadi Dəhlizinin (IMEC) yaradılmasına dair razılaşma əldə edildi. Amma dekabrın 7-də İsrail və HƏMAS arasında başlanan silahlı toqquşmadan sonra onun təhlükəsizliyi şübhə altına düşdü. Digər nəqliyyat xətti Rusiya üzərindən yükdaşımalardır ki, burada da Avropa İttifaqının sanksiyaları səbəbindən problemlər var. COVID-19 pandemiyası dövründə, bir yapon gəmisinin Süveyş kanalını bağlaması kimi səbəblərdən bütün diqqət Orta dəhlizə istiqamətləndi. Bilirsiniz ki, burada da Azərbaycan mərkəzdə yer alır. Ölkəmizin mərkəzində yer aldığı iki dəhliz var. Biri Orta dəhliz, digəri Şimal–Cənub dəhlizidir. Nəqliyyat dəhlizləri uğrunda gedən mübarizələri diqqətə alaraq deyə bilərik ki, Hindistanın Şimal-Cənub dəhlizinə qoşulması vacib hadisədir”.

Politoloq bildirdi ki, Cənub-Şərqi Asiyada Çin və Pakistanın CPEC adlanan layihəsi var. Bu layihə Çindən başlayaraq, Pakistanın Qvadar limanınadək uzanır. Oradan da yükdaşımalar dəniz yolu ilə davam etdirilir. Hindistanla İran arasında Çabahar limanı ilə bağlı imzalanan razılaşma bir növ CPEC-ə paralel gedən prosesdir.

C.Vəliyevin sözlərinə görə, bu, özlüyündə onu göstərir ki, layihə Ermənistandan keçməyəcək: “Layihənin Ermənistandan keçməsi üçün əvvəla, həmin ölkəyə çox böyük investisiya yatırılmalıdır. Digər tərəfdən, Qərbdən İrana sanksiyalar tətbiq olunub. Qərb dövlətləri Ermənistana layihəni həyata keçirməyə imkan verməzdilər. Amma Azərbaycanda hazır infrastruktur var. Burada yalnız Rəşt–Astara dəmiryolu layihəsinin tamamlanması lazımdır. Beynəlxalq, eləcə də, İran, Azərbaycan və Rusiyaya adi yüklərin rahat şəkildə daşınması üçün İran ərazisindəki Rəşt-Astara dəmiryolunu ya öz vəsaiti, ya da Rusiyadan kredit alaraq bərpa etməlidir”.

C.Vəliyev onu da bildirdi ki, Hindistanla İran arasında əldə edilmiş razılaşma, əslində, Azərbaycanın Şimal–Cənub beynəlxalq nəqliyyat dəhlizi üzrə yük daşımaçılığında alternativsiz olduğunu göstərir. Əgər tərəflər bunu gələcəkdə yerinə yetirəcəklərsə, bu, zaman baxımından da həmin ölkələrin çox böyük uduş əldə etmələri deməkdir: “Qeyd etdiyimiz kimi, dənizlər vasitəsilə daşımaçılıq xeyli zaman alır. Şimal–Cənub dəhlizi vasitəsilə daşımalar daha qısa müddətə başa gəldiyindən bu, onlar üçün daha faydalı ola bilər”.

Qeyd edək ki, Çabahar limanı İranın cənub-şərqində yerləşir. Hindistan və İran 2003-cü ildə limanın birgə inkişafı barədə razılığa gəliblər, lakin sonradan İrana qarşı beynəlxalq sanksiyalara görə layihə təxirə salınıb. 2016-cı ildə Hindistanın Baş naziri Narendra Modi Tehrana səfəri zamanı Nyu-Dehlinin liman infrastrukturunun tikintisinə 500 milyon dollar sərmayə qoymaq niyyətini açıqlamışdı. 2016-cı ilin mayında Hindistan limanda Şəhid Beheşti terminalının tikintisi üçün İran və Əfqanıstanla üçtərəfli saziş imzalayıb.

Tehran və Nyu-Dehli arasında əldə edilən razılaşmaya görə, Rusiyadan göndərilən yüklər Azərbaycan və İran ərazisindən tranzit olaraq Çabahar, oradan isə Hindistanın Mumbay limanlarına çatdırılacaq.

Ermənistanın da Hindistanla İran arasındakı son razılaşmadan gözləntisi var. İrəvan Hindistandan yola çıxan yüklərin bir hissəsinin Ermənistan üzərindən Avropaya daşınacağına ümidlidir. Ancaq bunun üçün Ermənistanda infrastruktur yenilənməli, yollar genişlənməli, dəmir yolları tikilməlidir. Azərbaycan bunların çoxunu reallaşdırıb. Digər tərəfdən, Azərbaycanla Gürcüstanı birləşdirən dəmir yolu da mövcuddur ki, Hindistandan çıxan yüklərin Azərbaycan-Gürcüstan dəmir yolu ilə Qara dəniz limanlarına, oradan da Avropa ölkələrinə nəqlini reallaşdırmaq mümkündür.

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 249** **Bakı şəhəri, 11 may 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 12 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 69 (Cild I) ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.1-ci bənddə "verilməsini" sözü "verilməsi ilə bağlı münasibətləri" sözləri ilə əvəz edilsin.

**2.** 1.2-ci bənddə "əlçatanlığı" sözü "şəffaflığının və əlçatanlığının təmin edilməsi" sözləri ilə əvəz edilsin.

**3.** 1.2-1.4-cü bəndlərdə ismin müvafiq hallarında "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" sözləri ismin müvafiq hallarında "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" sözləri ilə əvəz edilsin.

**4.** 1.5-ci bəndə "əsas" sözündən sonra "şərtlər" sözü əlavə edilsin.

**5.** 1.5.2-ci yarımbənddə "əqli pozuntuların və anatomik çatışmazlıqların, dərmanlara davamlı vərəm formalarının, IV mərhələ onkoloji xəstəliklərin, V mərhələ xroniki böyrək xəstəliyinin" sözləri "bu Qaydaya 1 nömrəli əlavədə qeyd olunan xəstəliklərin" sözləri ilə əvəz edilsin.

**6.** 1.5.3-cü yarımbəndə "xəstəliklərin" sözündən sonra "bu Qaydaya 2 nömrəli əlavədə qeyd olunan müalicə müddətləri nəzərə alınmaqla" sözləri əlavə edilsin.

**7.** 1.5.4-cü yarımbənddə "faizinin" sözü "dərəcəsinin" sözü ilə əvəz edilsin.

**8.** Aşağıdakı məzmunda 1.6-cı bənd əlavə edilsin:

"1.6. Bu Qaydanın 1.5-ci bəndində göstərilən əsas şərtlər mövcud olmadıqda, habelə şəxs bu Qaydanın 2.2-ci bəndində nəzərdə tutulan hallarda zəruri diaqnostik müayinələrdən keçməkdən imtina etdikdə Komissiya göndəriş verməkdən imtina edir.".

**9.** 2.3-cü bənddə "3 (üç) iş günü müddətindən gec olmayaraq" sözləri "dərhal" sözü ilə əvəz edilsin.

**10.** 2.4-cü bəndə "olduğu yerdə" sözlərindən əvvəl "ölkə hüdudları daxilində" sözləri əlavə edilsin.

**11.** 2.5-ci bənddə "həmin gün" sözləri "qərarın qəbul edildiyi gündən sonra 5 (beş) iş günü müddətindən gec olmayaraq" sözləri ilə əvəz edilsin.

**12.** 2.8-ci bənddə "1.5-ci bəndində nəzərdə tutulan hallar istisna olmaqla, digər" sözləri "1.6-cı bəndində nəzərdə tutulan" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 250** **Bakı şəhəri, 11 may 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 24 iyul tarixli 226 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin təklifinə əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 24 iyul tarixli 226 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 887 (Cild I) ilə təsdiq edilmiş "Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 3.2.3-cü yarımbənd üzrə:

1.1. "hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs)" sözlərindən sonra "və ya digər qanuni nümayəndələri" sözləri əlavə edilsin;

1.2. aşağıdakı məzmunda 5-ci abzas əlavə edilsin:

"5. ailə başçısını itirməyə görə əmək pensiyası alanlar;".

**2.** 3.2.5-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.2.6–3.2.8-ci yarımbəndlər əlavə edilsin:

"3.2.6. ailə başçısını itirməyə görə sosial müavinət alanlar;

3.2.7. bir valideyni orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş, digər valideyni orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq etdiyinə görə Azərbaycan Respublikası Prezidentinin təqaüdünü alan şəxslər;

3.2.8. bir valideyni müəyyən müddətə azadlıqdan məhrum etmə, ömürlük azadlıqdan məhrum etmə və ya azadlığın məhdudlaşdırılması növlərində cəza çəkən, digər valideyni bu Qaydanın 3.2.3-cü yarımbəndində qeyd olunan kateqoriyalardan hər hansı birinə aid olan şəxslər.".

**3.** 5.2-ci bənddə ", övladlığa götürənləri və ya himayəçisi" sözləri "və ya digər qanuni nümayəndələri" sözləri ilə əvəz edilsin.

**4.** 5.2.1-ci yarımbənddə ", övladlığa götürənlər və ya himayəçi" sözləri "və ya digər qanuni nümayəndələr" sözləri ilə əvəz edilsin.

**5.** 7.5-ci bənddə "və 7.4-cü" sözləri ", 7.4-cü və 7.5-1-ci" sözləri ilə əvəz edilsin.

**6.** Aşağıdakı məzmunda 7.5-1-ci bənd əlavə edilsin:

"7.5-1. TTK-nin qaytarılması zamanı bu Qaydanın 4.2-ci və 4.3-cü bəndlərində nəzərdə tutulmuş güzəştlərin tətbiq edilməsi elektron sistem vasitəsilə aşağıdakı qaydada həyata keçirilir:

7.5-1.1. borcalanın normativ təhsil müddətində bütün tədris semestrləri (yarımillər) üzrə elektron sistemə daxil etdiyi ÜOMG-si (peşə təhsili müəssisələrində təhsilalanlara münasibətdə aralıq qiymətləndirmə balı) barədə məlumatlarını təhsil müəssisəsinin məsul şəxsi gücləndirilmiş elektron imza ilə təsdiqləyir;

7.5-1.2. Fond elektron sistem vasitəsilə əldə etdiyi məlumatları nəzərdən keçirərək 3 (üç) iş günü müddətində bu Qaydanın 4.2-ci və 4.3-cü bəndlərində nəzərdə tutulmuş güzəştin tətbiq edilməsinə dair qərar qəbul edir. Həmin qərar qəbul edildiyi gün elektron sistemə ötürülür və tələbənin "Şəxsi kabinet"ində yerləşdirilir;

7.5-1.3. müvəkkil bank bu Qaydanın 7.5-1.2-ci yarımbəndində qeyd olunan məlumatları elektron sistem vasitəsilə əldə etdikdən sonra 3 (üç) iş günü müddətində borcalan ilə bağlanılmış kredit müqaviləsində müvafiq dəyişikliklər edilir və bu dəyişikliklər elektron sistemə ötürülür.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 251** **Bakı şəhəri, 11 may 2024-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 10 mart tarixli 87 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifələri üzrə test imtahanından keçmək barədə Sertifikatın Forması"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 30 dekabr tarixli 3696 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya"nın 2023–2025-ci illərdə icrası üzrə Fəaliyyət Planı"nın 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 10 mart tarixli 87 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 3, maddə 486 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 aprel tarixli 184 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifələri üzrə test imtahanından keçmək barədə Sertifikatın Forması"nın 4-cü hissəsindən "həmin altqrupun aid olduğu qrup daxilində" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 252** **Bakı şəhəri, 11 may 2024-cü il**

**"İdxalı və satışı əlavə dəyər vergisindən azad edilən mineral gübrələrin və pestisidlərin siyahısı"nın təsdiq edilməsi haqqında**

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1033-VIQD nömrəli Qanununun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 dekabr tarixli 2439 nömrəli Fərmanının 2.2.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"İdxalı və satışı əlavə dəyər vergisindən azad edilən mineral gübrələrin və pestisidlərin siyahısı" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 253** **Bakı şəhəri, 13 may 2024-cü il**

**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında**

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanının 2.12.1-ci yarımbəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusuna malik olan Azərbaycan İdman Akademiyasına çevrilmə yolu ilə yenidən təşkil edilsin.

**2.** "Azərbaycan İdman Akademiyasının Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

**3.** Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi bu Qərar qüvvəyə mindiyi tarixdən 3 (üç) gün müddətində Azərbaycan İdman Akademiyasının "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatına alınması üçün zəruri tədbirlərin görülməsini təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 254** **Bakı şəhəri, 13 may 2024-cü il**

**"Azərbaycan Respublikası vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırışı üzrə Mərkəzi Çağırış Komissiyasının tərkibi"nin və "2016-cı il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılan çağırışçıların say bölgüsü"nün təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 iyun tarixli 229 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 iyun tarixli 229 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1206 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırışı üzrə Mərkəzi Çağırış Komissiyasının tərkibi"nin "Komissiyanın üzvləri:" hissəsində aşağıdakı dəyişikliklər edilsin:

**1.** Beşinci abzasa "təhsil" sözündən əvvəl "elm və" sözləri əlavə edilsin.

**2.** Yeddinci-doqquzuncu abzaslar on birinci-on üçüncü abzaslar hesab edilsin və aşağıdakı məzmunda yeddinci-onuncu abzaslar əlavə edilsin:

"Azərbaycan Respublikası xarici işlər nazirinin müavini

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Azərbaycan Respublikası rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

***Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 255** **Bakı şəhəri, 11 may 2024-cü il**

**"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1059-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1059-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 yanvar tarixli 8 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 1, maddə 69 (Cild I) ilə təsdiq edilmiş "Nəzarət markalarının və beynəlxalq standart eyniləşdirmə nömrələrinin verilməsindən əldə olunan vəsaitdən istifadə edilməsi və həmin vəsaitdən istifadə haqqında hesabatın dərc olunması Qaydası"nın 5-ci hissəsində "Qanununun 12-1-ci maddəsinə uyğun olaraq" sözləri "Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 yanvar tarixli 15 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 72 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 mart tarixli 150 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Hüquqi nəticə yaradan hərəkətləri dövlətin adından həyata keçirən, Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxsin (statusu Azərbaycan Respublikasının qanunu ilə müəyyən edilən, habelə dövlət orqanlarının strukturuna daxil olmayan tabeliyindəki publik hüquqi şəxslər istisna olmaqla) işlər görülməsindən və xidmət göstərilməsindən əldə etdiyi vəsaitin (o cümlədən tutulan xidmət haqlarının) həmin publik hüquqi şəxsin sərəncamında qalan hissəsindən istifadə Qaydası"nın 6.1-ci bəndində "Qanununun 12-1-ci maddəsinə uyğun olaraq" sözləri "Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 14 dekabr tarixli 495 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1598 (Cild I) ilə təsdiq edilmiş "İcbari tibbi sığorta vəsaitlərinin uçotunun aparılması və hesabatının təqdim edilməsi Qaydası"nın 2.4-cü bəndində "Qanununun 8.1-1-ci maddəsinə uyğun olaraq" sözləri "Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 13 oktyabr tarixli 309 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1178 (Cild I); 2024, № 2, maddə 235) ilə təsdiq edilmiş "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması məqsədilə həmin Agentliyin hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın 6.1-ci bəndində "Qanununun 12-1-ci maddəsinə uyğun olaraq" sözləri "Qanunu ilə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Baş prokurorun Göyçayda vətəndaş qəbulu



**Mayın 14-də Baş prokuror Kamran Əliyev Göyçay Rayon Prokurorluğunun inzibati binasında Göyçay, Kürdəmir, İsmayıllı, Qəbələ rayonu və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 67 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Qəbuldan sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev onlara konkret tapşırıqlar verib, vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbul işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb.

***XQ***

# Karvan Şuşaya qayıdır



**Mayın 14-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınan növbəti köç karvanı Şuşaya çatıb. Bu mərhələdə şəhərə köçürülən 136 nəfərdən ibarət 38 ailəyə mənzillərin açarları təqdim edilib.**

Mərasimdə Şuşa şəhərində Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəsi Aydın Kərimov və Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Şuşaya daimi yaşayış üçün köçürülən ailələrə yeni tikilmiş binalarda mənzil verilir. İndiyədək şəhərdə 58 ailə (224 nəfər) mənzillə təmin edilib. Köçürülmə prosesi davam edəcək.

# Avropanın Azərbaycan qazına tələbatı artır

## 4 ayda "köhnə qitə"yə 4,2 milyard kubmetr "mavi yanacaq" nəql edilib



**2024-cü ilin yanvar–aprel aylarında Azərbaycandan Avropaya 4,2 milyard kubmetr qaz ixrac olunub. Bunu energetika naziri Pərviz Şahbazov "X" sosial şəbəkəsindəki hesabında bildirib. Nazir qeyd edib ki, bu dövrdə ölkə üzrə 500 milyon kubmetr artımla hasil edilmiş 16,7 milyard kubmetr qazın 8,5 milyard kubmetri ixrac olunub. Hesabat dövründə xaricə qaz satışı ötən ilin müvafiq dövrü ilə müqayisədə təqribən 2,7 faiz çox olub.**

Paylaşımda o da qeyd olunur ki, cari ilin ötən 4 ayı ərzində Türkiyəyə 3,2 milyard kubmetr, Gürcüstana isə 1,1 milyard kubmetr qaz ixrac olunub. Nazirin sözlərinə görə, yanvar–aprel aylarında Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) ilə Türkiyəyə 1,8 milyard kubmetr qaz nəql edilib.

Bütövlükdə isə, Trans-Adriatik Qaz Boru Kəmərinin istismara verildiyi 2020-ci il dekabrın 31-dən bu il mayın 1-dək Avropaya 34 milyard kubmetrdən artıq Azərbaycan qazı ixrac olunub. Eyni zamanda son illər interkonnektorların (birləşdirici kəmərlər) yaradılması məsələsi də getdikcə aktuallığını artırır. Bu da Avropada Azərbaycan qazının ixrac coğrafiyasının genişlənməsinə, enerji sahəsində tərəfdaş ölkələrin sayının artmasına səbəb olur.

Yeri gəlmişkən, aprelin 24-də ADA Universitetində keçirilmiş "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda Prezident İlham Əliyev deyib: "…Avropa, Avropa İttifaqı Azərbaycandan əlavə qaz istəyir. Bu məqsədlə təqribən iki il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında energetika sahəsində strateji tərəfdaşlıq üzrə bəyannamə imzalanmışdır. Bu sənədə əsasən bizim Avropaya qaz təchizatımız 2021-ci ildə 8 milyard kubmetrdən 2027-ci ildə 20 milyard kubmetrə qədər artmalıdır. Bu, bir öhdəlik deyil, bu, bir hədəfdir. Biz bu hədəfə doğru gedirik. Bu il Avropaya qaz təchizatımız təqribən 12 milyard kubmetr olacaq. Bu, 2021-ci illə müqayisədə 4 milyard kubmetr çoxdur".

Xatırladaq ki, Azərbaycan qazının Avropaya tədarükü Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə 2020-ci ilin sonunda başlayıb. Hazırda kəmərin ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetr qaz təşkil edir. 2027-ci ilin sonunadək bunun 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur. Bundan əlavə, 2025-ci ilin sonunadək TAP genişləndirmənin birinci mərhələsi çərçivəsində əlavə 1,2 milyard kubmetr Azərbaycan qazını qəbul etməyə hazır olacaq. Növbəti ildən həmin qaz həcmlərinin 1 milyard kubmetrini İtaliya, 200 milyon kubmetrini isə Albaniya alacaq.

TAP-ın ümumi uzunluğu 878 kilometr təşkil edir ki, bunun da 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometri isə İtaliya ərazisindən keçir. Bolqarıstana "mavi yanacağın" nəqli isə TAP-a birləşdirilən Yunanıstan–Bolqarıstan interkonnektoru (IGB) vasitəsilə həyata keçirilir. Ümumi uzunluğu 182 kilometr olan IGB-nin 150 kilometrlik hissəsi Bolqarıstan ərazisindən keçir. Sözügedən boru kəmərinin illik ötürücülük qabiliyyətinin 5 milyard kubmetrədək artırılacağı gözlənilir. Məlum olduğu kimi, "Bulgargaz EAD" dövlət şirkəti "Şahdəniz-2" layihəsi çərçivəsində 1 milyard kubmetr qazın tədarükü ilə bağlı Şahdəniz konsorsiumu ilə müqavilə imzalayıb.

Ötən ilin dekabrında isə Niş şəhərində Bolqarıstan və Serbiyanın qaz şəbəkələri arasında birləşdirici boru kəmərinin istifadəyə verilməsi ilə Azərbaycanın ümumi qaz alıcılarının sayı 8-ə çatdırılıb. Həmin ölkələrin isə 6-sı Avropa ölkələridir. Bu da "köhnə qitə"nin enerji xəritəsini zənginləşdirən Cənub Qaz Dəhlizinin əhəmiyyətinin bir daha təsdiqləyir.

Avropada Azərbaycan qazına tələbatın getdikcə artması fonunda TAP-ın ötürücülük qabiliyyətinin artırılması xüsusi aktuallıq kəsb edir. İşlərin nə vaxt başlayacağı isə TAP konsorsiumunun payçıları olan Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR), Böyük Britaniyanın BP, İtaliyanın "Snam", Belçikanın "Fluxys" və İspaniyanın "Enagàs" şirkətləri tərəfindən veriləcək qarardan asılıdır. İtaliya mətbuatının bununla bağlı bir qədər əvvəl yaydığı məlumatda bildirilirdi ki, əgər boru kəmərinin ötürmə gücünün ikiqat artırılması həyata keçiriləcəksə, daha doğrusu, hazırkı 10 milyard kubmetrdən 20 milyard kubmetrə çatdırılacaqsa, bu zaman kompressor stansiyalarında struktur müdaxilələri ilə yanaşı, üç iştirakçı ölkədə, yəni Yunanıstan, Albaniya və İtaliyada inzibati və tənzimləyici dəyişikliklərin həyata keçirilməsi, həmçinin icazələrin verilməsinə zərurət yaranacaq.

Yeri gəlmişkən, İtaliya ərazisində 400 milyon ABŞ dollarına başa gələn qaz kəmərinin strateji əhəmiyyət daşıdığı və onun gücləndirilməsinə ehtiyac olduğunu təsdiq edən rəqəmlər mövcuddur. Əvvəldən tədarükün həcmini artırmaq üçün yaradılan borulara yeni sərmayələr tələb etməyən TAP-ın onu Trans-Anadolu Boru Kəmərindən qəbul etdiyi Yunanıstan–Türkiyə sərhədindəki mövcud qaz-kompressor stansiyalarının modernləşdirilməsi ilə bağlı əməliyyat həyata keçiriləcək. Məlumatda o da vurğulanır ki, boru kəmərinin ötürücülük qabiliyyətinin genişləndirilməsi İtaliyanın "mavi yanacağ"a olan tələbatının ödənilməsində Azərbaycan qazının payını 15 faizə qaldıracaq, Rusiya qazının payı isə 3 faizə enəcək. Həmçinin, kəmərin ötürücülük gücünün iki dəfə artırılması Balkanlardan Avropa İttifaqına uzanan Cənub Qaz Dəhlizi üçün də faydalıdır.

Bugünlərdə Belqradda keçirilən Enerji Forumunda TAP Konsorsiumunun xarici əlaqələr şöbəsinin müdiri Vüqar Veysəlov Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan Trans-Anadolu Boru Kəmərinin Avropaya enerji təchizatının təmin edilməsində mühüm rol oynadığını vurğulayıb. Onun sözlərinə görə, bu boru kəməri mühüm enerji infrastrukturuna çevrilərək ciddi enerji təchizatı problemləri dövründə qazın Avropa ittifaqına yeni mənbədən və alternativ marşrutla çatdırılmasını təmin edib.

Bu arada, Trans-Adriatik Boru Kəmərinin genişləndirilməsinin Avropa İttifaqının karbonsuzlaşdırma məqsədlərinə nail olmağa kömək edəcəyi ilə bağlı məlumatlara da tez-tez rast gəlinir. Bu barədə Belqrad Enerji Forumunda da söhbət açılıb. Məsələn, TAP Konsorsiumunun rəsmisi Vüqar Veysəlov deyib ki, Avropa aşağı karbonlu gələcəyə keçid edərkən rəqabətədavamlı qalmaq üçün alternativ, təhlükəsiz, etibarlı və sərfəli enerji təchizatının saxlanması vacibdir. "TAP bu keçidin davamlı şəkildə baş verməsini təmin etmək öhdəliyi götürür. Bu kəmərin potensial genişləndirilməsi gələcəkdə yeni həcmdə hidrogen və digər enerji növlərinin nəqlini asanlaşdırmaqla Avropa ittifaqının dekarbonizasiya məqsədlərinə nail olmağa kömək edə bilər", – deyə o əlavə edib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Ölkəmizdə inflyasiya 1 faizdən aşağı enib

## Bu, sağlam rəqabət və antiinhisar tədbirlərinin nəticəsidir

**Bu ilin yanvar–aprel aylarında ölkədə istehlak qiymətləri indeksi 2023-cü ilin eyni dövrü ilə müqayisədə 100,7 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 99,3 faiz, qeyri-qida məhsulları üzrə 101,3 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə isə 102,4 faiz təşkil edib.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin aprel ayında istehlak qiymətləri indeksi 2023-cü ilin eyni ayına nisbətən 100 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 98,2 faiz, qeyri-qida məhsulları üzrə 100,9 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə isə 102 faiz olub.

Cari ilin aprel ayında istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 99,9 faiz təşkil edib. Mart ayına nisbətən qida məhsulları, içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri indeksi 99,6 faiz, qeyri-qida malları üzrə istehlak qiymətləri indeksi isə 100,1 faiz olub. Ay ərzində əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə istehlak qiymətlərində 0,1 faizlik artım qeydə alınıb.




Ekspertlər tərəfindən inflyasiyanın azalması bir neçə amillə əsaslandırılır. Onların fikirincə, ticarət tərəfdaşları üzrə inflyasiyanın nisbətən azalması, dünya əmtəə bazarlarında qiymətlərin tədricən aşağı düşməsi, profisitli tədiyə balansı şəraitində valyuta bazarında tarazlığın qorunması, manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi, hökumətin həyata keçirdiyi antiinflyasiya tədbirləri inflyasiyanın aşağı enməsinə müсbət təsir göstərib.

Yuxarıdakı fikri bir qədər də konkretləşdirib qeyd edək ki, qlobal əmtəə, enerji və ərzaq qiymətlərində azalmanın davam etməsi ölkəyə inflyasiya idxalını məhdudlaşdırmaqla inflyasiyanın azalmasını şərtləndirib. Gündəlik tələbat məhsulları üzrə daxili istehsalın təşviqi, eyni zamanda, ölkədə qiymətlərin bazar prinsipləri əsasında formalaşdırılması işgüzar fəallığa və əhalinin sosial rifahına inflyasiyanın təsirlərini minimallaşdırıb. Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında", eləcə də "İnflyasiya və qiymətlər üzrə monitorinqin gücləndirilməsi istiqamətində əlavə tədbirlər barədə" sərəncamlarında nəzərdə tutulan kompleks tədbirlərin icrası da, şübhəsiz ki, inflyasiyanın aşağı düşməsini reallaşdırıb.

Xatırladaq ki, Azərbaycanda inflyasiyanın azalması ilə əlaqədar müsbət tendensiya keçən ilin birinci rübündən başlayıb və sonrakı aylardan etibarən isə sabit enmə prosesi müşahidə edilib. İqtisadçı-ekspert Samir Heydərovun sözlərinə görə, ölkədə belə bir nəticəyə qiymətlərin bazar prinsipləri əsasında formalaşması ilə nail olunub, hökumət tərəfindən inflyasiyanın işgüzar fəallığa və əhalinin sosial rifahına təsirlərini minimallaşdırmaq məqsədilə çoxsaylı antiinflyasiya tədbirləri həyata keçirilib. Eyni zamanda, Nazirlər Kabinetinin 2022-ci il fevralın 21-də "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" sərəncamının icrası da diqqətdə saxlanılıb.

Nazirlər Kabinetinin "Antiinflyasiya tədbirləri və onun iqtisadi nəticələrinə dair xüsusi bülleten"ində göstərilir ki, indiyədək inflyasiyanın artımını şərtləndirən qiymət artımının birbaşa və dolayı olaraq əhəmiyyətli hissəsi xarici mənşəli xərc amilləri ilə bağlı olub. Bu məsələdə idxal üzrə illik qiymət indeksinin artımı yüksək göstərici ilə diqqət çəkib ki, bu da dünya əmtəə qiymətlərinin və daşınma-logistika xərclərinin yüksəlməsinə, habelə ticarət tərəfdaşı olan ölkələrdə inflyasiya templərinin artmasına gətirib çıxarıb. Xüsusilə dünya ərzaq qiymətləri idxal vasitəsilə daxili ərzaq inflyasiyasına ciddi təsir göstərib.

Qeyd edək ki, ölkədə hökumətin həyata keçirdiyi antiinflyasiya tədbirləri nəticəsində 2022-ci ilin son rübündən etibarən inflyasiyanın artım tempi dayandırılıb və tədricən sabitləşmə, enmə meylləri müşahidə olunub. Bu istiqamətdə müsbət nəticənin əldə edilməsi üçün, ilk növbədə, qiymətlərin bazar prinsipləri əsasında formalaşması diqqət mərkəzində saxlanılıb, daxili bazarda sağlam rəqabət mühitinin gücləndirilməsinə, inhisarlaşma, bazarların bölüşdürülməsi, razılaşdırılmış qiymətlərin tətbiq edilməsi hallarının və qiymət manipulyasiyasının qarşısının alınmasına xüsusi əhəmiyyət verilib.

Son illərdə elektron monitorinq sisteminin qurulması və qiymət monitorinqinin daha optimal vəziyyətə gətirilməsi ilə əlaqədar görülən tədbirlər inflyasiyanın aşağı enməsini şərtləndirən qiymətlərin izlənilməsinin daha operativ və şəffaf həyata keçirilməsini, kağız daşıyıcılardan istifadənin azaldılmasını və ya tamamilə ləğv olunmasını gerçəkləşdirilib. Bununla da inflyasiya və qiymətlərə daimi nəzarət mexanizminin əsası qoyulub. Məsələn, Nazirlər Kabinetinin "İnflyasiya və qiymətlər üzrə monitorinqin gücləndirilməsi istiqamətində əlavə tədbirlər barədə" (15 iyul 2023-cü il) sərəncamı ilə inflyasiya proseslərini və onun səbəblərini kəmiyyət və keyfiyyətcə qiymətləndirməyə imkan verən təhlil və monitorinq sisteminin daha da təkmilləşdirilməsi, eləcə də bu sahədə qurumlararası koordinasiyanın gücləndirilməsi məqsədilə geniş tərkibdə yaradılan işçi qrup tərəfindən "Qiymət izləmə tətbiqi"nin əsas prinsiplərinə dair metodoloji çərçivə sənədi qəbul edilib.

Qeyd edək ki, "Qiymət izləmə tətbiqi" sisteminin yaradılması idxal və topdansatış nöqtələrində qiymətlərin artım dinamikasını izləməyə imkan verir, bu, müvafiq dövlət qurumlarına vaxtında və çevik müdaxilələr etməyə şərait yaradır, inflyasiyanın tənzimlənməsində qurumlararası məlumat mübadiləsini, həmçinin koordinasiyanı gücləndirir, əldə olunan məlumatlar əsasında potensial qiymət dəyişikliyi üzrə proqnozlar hazırlanır. Beləliklə, "Qiymət izləmə tətbiqi", eyni zamanda, bazarlarda qiymət sabitliyini qorumaq məqsədilə ölkə daxilində qiymət dəyişkənliyi nöqtələrini müəyyənləşdirir.

Yeri gəlmişkən, sonda bir məsələni də diqqətə çatdırmaq istərdik. Son vaxtlar beynəlxalq reytinq qurumlarının məlumatlarında ölkəmizdə inflyasiyanın tədricən azalacağı ilə bağlı proqnozlar yer alıb. Məsələn, bu günlərdə Niderlandın beynəlxalq bank və maliyyə xidmətləri korporasiyası– ING 2024-cü il üzrə Azərbaycan üzrə inflyasiya proqnozunu kəskin azaldıb. Belə ki, ING 2024-cü il üçün respublikada orta illik inflyasiya proqnozunu 3,1faizdən 1,6 faizə endirib. Bu isə korporasiyanın aprel proqnozu ilə müqayisədə 1,5 faiz bəndi azdır. ING 2025-ci ildə inflyasiya proqnozunu 3,8 faiz, 2026-cı il üzrə isə 4,2 faiz müəyyənləşdirib.

Proqnozlara əsasən, cari ilin ikinci rübündə Azərbaycanda orta illik inflyasiya 0,1 faiz, üçüncü rübündə 1,3 faiz, dördüncü rübündə isə 2,6 faiz səviyyəsində gözlənilir.

***Vaqif BAYRAMOV***
***XQ***

# 4 ayda neft-kondensat ixracı – 8 milyon ton

**Operativ məlumatlara əsasən, bu ilin yanvar–aprel aylarında Azərbaycanda neft-kondensat hasilatı 9,6 milyon ton, ixracı isə 7,9 milyon ton olub.**



Bu barədə energetika naziri Pərviz Şahbazov "X" sosial şəbəkəsindəki hesabında bildirib. Nazir qeyd edib ki, bu dövrdə 500 milyon kubmetr artımla hasil edilmiş 16,7 milyard kubmetr təbii qazın isə 8,5 milyard kubmetri ixrac olunub.

Qeyd edək ki, hazırda Azərbaycandan Bakı–Tbilisi–Ceyhan boru kəməri ilə "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan hasil edilən neft və "Şahdəniz"yatağından çıxarılan kondensat nəql olunur. Bundan əlavə, boru kəməri ilə Türkmənistan və Qazaxıstan neft də nəql edilir.

Təbii qaz həcmləri Cənubi Qafqaz Boru Kəməri (Bakı–Tbilisi–Ərzurum) və Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) vasitəsilə Türkiyə bazarına çatdırılır. Bakı–Tbilisi–Ərzurum kəməri ilə ilk qaz Türkiyə bazarına 2007-ci ildə daxil olub. TANAP vasitəsilə Türkiyəyə kommersiya qazının nəqlinə isə 2018-ci il iyunun 30-da başlanılıb. Türkiyəyə Azərbaycanın "Şahdəniz" yatağından hasil edilən təbii qaz nəql olunur.

***XQ***



# Çində 5-ci ticarət evimiz açılır

**Azərbaycan məhsulları və mətbəxinin təqdim olunduğu ölkələr sırasında xüsusi yer tutan Çində respublikamızın 5 ticarət evi fəaliyyət göstərir. Bu müəssisələr "Made in Azerbaijan" brendi ilə istehsal olunan ixracyönümlü və rəqabətqabiliyyətli məhsulların Çin bazarında daha çox tanıdılmasında, eləcə də Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsində önəmli rol oynayır.**

İxracın və İnvestisiyaların Təşviqi Agentliyindən bildirilib ki, mayın 15-də Çinin Nankin şəhərində İqtisadiyyat Nazirliyinin dəstəyi, ölkəmizin Çindəki ticarət nümayəndəliyinin təşkilatçılığı ilə daha bir Azərbaycan Ticarət Evinin açılış mərasimi keçiriləcək.

Qeyd edək ki, hazırda Azərbaycanın Çinin Çindao, Canciaciye, Sian, Çendu və Pekin şəhərlərində ticarət evləri, Şanxay, Harbin, Cinan və Uhan şəhərlərində 4 ticarət bölməsi, Urumçi və Şanxayda isə 3 şərab evi fəaliyyət göstərir.

***XQ***

# Aktau–Bakı marşrutunda konteyner rekordu

***Bu ilin ilk 4 ayında Qazaxıstanın "Kazmortransflot" milli gəmiçilik şirkətinin ("Kazmunayqaz"ın törəmə müəssisəsi) konteyner gəmiləri Aktau-Bakı marşrutu üzrə Xəzər dənizi ilə 100 min tondan çox yük daşıyıb.***

Bu barədə "Kazmunayqaz" şirkətindən məlumat verilib. Bildirilib ki, aprel ayında sözügedən marşrutla 2850 TEU (təxminən 35 min ton yük), orta hesabla 2500 TEU (20 fut ekvivalent vahid) yük daşınıb ki, bu da rekor göstərici hesab olunur.



Qeyd edək ki, şirkətin konteyner gəmiləri bu istiqamətdə ayda orta hesabla 8-9 gediş-gəliş həyata keçirərək Asiya ilə Avropa arasında əlaqəni təmin edir.

***XQ***

# Sülh yolunda anklav-eksklav “şlaqbaum”u

**Qarabağın azadlığı uğrunda Vətən müharibəsində erməni işğalçıların darmadağın edilib ölkəmizdən qovulmasının ardınca separatçı tör-töküntünün cəmləşdiyi Xankəndi xuntası bir zərbə ilə çökdürüldü. Müstəqil Azərbaycan dövlətinin suverenliyi onun bütün ərazisində təmin edildi.**




Bu hərbi-siyasi qələbələrinin rəsmiləşdirilməsinin yekunu olacaq iki ölkə arasında sərhədlərin müəyyənləşdirilməsi və sülh müqaviləsinin razılaşdırılması anklavlar məsələsini gündəmə gətirib. Məğlub ölkənin yaranmış reallığı qəbul etmək məcburiyyətində qalmış rəhbərliyinin Ermənistan ərazisindəki Azərbaycan eksklavlarından Qazağın 4 kəndini geri qaytarması sülh prosesinin irəliləməsində əməli addım oldu. Lakin davakar erməni kilsəsi, Qarabğ separatçılarının bədnam qalıqları və Ermənistanın müxtəlif təmayüllü müxalifəti bütün vasitələrlə, xüsusən xarici pozucu dairələrin dəstəyi ilə Azərbaycan kəndlərinin geri qaytarılmasına etiraz edir, bu torpaqların sahibi olduqlarını sübut etmək istəyirlər.

Ermənistan ərazisində qalmış həmin kəndlərin xalqımıza məxsusluğu tarixdən az-çox xəbəri olanlarda heç bir şübhə yaratmır. Belə bir məqamda, üstəlik, tarixi həqiqətin mötəbər açıqlaması olaraq AMEA Tarix və Etnologiya İnstitutunun anklav-eksklavlar barədə arayışını oxucularımıza təqdim edirik.

## Yuxarı Əskipara

Yuxarı Əskipara kəndi Qazax rayonunun Əskipara ərazi-inzibati vahidinə daxildir və Ermənistanın İcevan Tavuş vilayətində Azərbaycanın eksklavıdır. Yuxarı Əskipara dağətəyi ərazidədir.

Qazax nahiyəsinin 1860-cı ilə aid kameral təsvirində Qazağın türk kəndləri siyahısında Köhnə Əskipara (14 ailə) və Tatar Əskipara (96 ailə) kəndlərinin adı çəkilir. Bu kəndlərin adı sonrakı dövrlərdə dəyişərək Köhnə Əskipara – “Yuxarı Əskipara”, Tatar Əskipara isə “Aşağı Əskipara” adlandırılmışdır.

”Əskipara” sözü Azərbaycan türk dilində “əski” (köhnə, qədim) , “para” isə “parça”, “hissə”, “yer” mənasını verir. Əskipara, “qədim, köhnə yer” anlamına gəlir. Qazax nahiyəsinin 1860-cı ilə aid kameral təsvirində 22 erməni ailəsinin də yaşadığı Əskipara (ermənilər onu Voskepar adlandırmışlar) kəndinin də adı çəkilir.

1920-ci illərdə Azərbaycan SSR-lə Ermənistan SSR arasında mübahisəli məsələlərdən biri də İcevan qəzasının daxilində qalmış, əhalisi 577 nəfər, ərazisi 3104 desyatin olan Qazax qəzasının Sofulu, Bar-xudarlı və Yuxarı Əskipara kəndləri idi. Qazax qəzasına aid olan bu 3 kənd Azərbaycan ərazisindən erməni ərazi zolaqları ilə ayrılır. 1929-ci il 19–20 iyul tarixlərində Cənubi Qafqaz MİK-nin yerli Komissiyası bu 3 kəndin Ermənistan SSR-in İcevan qəzasına verilməsi barədə əsassız qərar qəbul etmişdir. Ancaq Azərbaycan tərəfinin dirənişi nəticəsində bu kəndlər ölkəmizin tərkibində saxlanılmışdır.

Torpaq Komissiyasının 1928-ci ilə aid hesabatından göründüyü kimi, Qazax qəzasının ümumi yaylaqlarından Ermənistan SSR-ə 75 min 904 desyatin yararlı torpaq və 79 min 208 desyatin əkinə yararsız torpaq verilmişdir. Beləliklə, Qazax qəzasının yaylaqlarının 50 faizi Ermənistana verilmişdir.

Azərbaycan SSR Torpaq Komissarlığının 21.04.1938-ci il tarixdə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinə təqdim etdiyi sənədə əsasən, Yuxarı Əskipara kəndi Ermənistan SSR-in ərazisində Azərbaycan SSR-in eksklavı kimi təsdiqlənmişdir. Sənəddə göstərilir ki, bu kənd Azərbaycan SSR-in Qazax rayonuna tabedir və ölkənin sərhədlərindən 9–10 km məsafədə Ermənistan SSR ərazilərində yerləşir. Azərbaycanla Yuxarı Əskipara kəndini bir-birindən ayıran Ermənistan ərazisi eni 3–5 km olan meşə zolağından ibarətdir. Əhalisi yalnız azərbaycanlılardan ibarət olmuşdur. İqtisadi cəhətdən Qazax rayonu ilə bağlı kənd Ağstafa – Dilican avtomobil yolundan uzaqda yerləşir.

1992-ci ilin iyunun 8-də Yuxarı Əskipara kəndi erməni işğalçıları tərəfindən işğal edilmişdir. Yerli əhali təcavüzə məruz qalaraq doğma evlərini tərk etməli olmuşdur. Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində bütün tarixi mədəniyyət abidələri dağıdılaraq yandırılmışdır. Təkcə Yuxarı Əskipara kəndində V–VII əsrlərə aid Alban məbədi, XII əsrə aid yeraltı su kəməri, XII əsrdə inşa edilən Qüllə, Türbə, Qatır körpüsü, Kazım körpüsü, Qulucanlı körpüsü, Koroğlu qülləsi və qədim hamam qalıqları, XIV əsrdə salınan yeraltı yol, XVI əsrdə inşa edilən Şəhərgah qalası və s. yerlə-yeksan edilmişdir.

Qazax rayonunun işğal olunan ərazilərində mövcud olan təbii sərvətlər də tarixi mədəniyyət abidələri kimi qəddarlıqla dağıdılır və talan olunur. Sərhəd boyu yerləşən meşə sahələrində qiymətli ağac növləri; palıd, fıstıq, vələs, dəmirağac, ağcaqayın və s. ağaclar erməni işğalçı ordusu və orada yaşayan erməni əhalisi tərəfindən məhv edilir.

## Sб ulu

Sofulu kəndi Qazax rayonunun Cəfərli ərazi inzibati vahidinə daxildir və Ermənistanın İcevan rayonunda Azərbaycanın eksklavıdır. Kəndin adı onun əsasını qoymuş Zəngəzur və Qazax qəzalarında yaşayan kəngərlilərin sofulu tayfasının adı ilə bağlıdır. Köçəri həyat sürən bu tayfa Azərbaycan ərazisində müxtəlif bölgələrdə Sofulu adında yaşayış məskənlərinin əsasını qoymuşlar. Qazax rayonuna aid olan Sofulu kəndinin əhalisi bu kənddə XIX əsrin əvvəllərindən oturaq həyata keçmişlər.

## Barxudarlı

kəndi də Qazax rayonunun Cəfərli ərazi-inzibati vahidinə daxildir, Ermənistanın İcevan rayonunda Azərbaycanın eksklavıdır. Barxudar şəxs adından və “lı” şəkilçisindən əmələ gəlmiş toponim hesab olunur. Barxudar (bərxudar) bəy XVI əsrin ikinci yarisi, XVII əsrin əvvəllərində yaşamış, məşhur top tökmə ustası olmuşdur. Səfəvilər dövlətində ona "topçubaşı" ləqəbi və vəzifəsi verilmişdir. XVII əsrin əvvəllərində Səfəvi–Osmanlı müharibələri dövründə Təbriz, İrəvan, Gəncə və başqa şəhərlərin mühafizəsində istifadə edilən iri qaladağıdan toplar Barxudarın başçılığı ilə hazırlanmışdır. Kəndin adı barxudarlı nəslinə mənsub ailələr tərəfindən salındığına görə belə adlanmışdir.

Ermənistanda hesab edirlər ki, bu kəndlərə azərbaycanlılar ilk dəfə, guya, 1930-cu illərdə köçürülmüşlər. Ancaq Rusiya imperiyası dövrünə aid mənbələrə görə, artıq 1860-cı ildə Sofulu və Barxudarlı kəndləri var idi və Yelizavetpol quberniyasının Qazax distansiyasına daxil idi. Həmin ilin məlumatına əsasən, Sofuluda 22 ailə (104 nəfər), Barxudarlıda isə 13 ailə (59 nəfər) tatar (Azərbaycan türkü) yaşayırdı.

1920-ci illərdə Azərbaycan SSR-lə Ermənistan SSR arasında mübahisəli məsələlərdən biri də İcevan qəzasının daxilində qalmış, əhalisi 577 nəfər, ərazisi 3104 desyatin olan Qazax qəzasının Sofulu, Barxudarlı və Yuxarı Əskipara kəndləri idi. Qazax qəzasına aid olan bu kəndlər Azərbaycan ərazisindən erməni ərazi zolaqları ilə ayrılır.

Azərbaycan SSR Torpaq Komissarlığının 21 aprel 1938-ci ildə respublikanın Mərkəzi İcraiyyə Komitəsinə təqdim etdiyi sənədə əsasən, bitişik olan Sofulu və Barxudarlı kəndləri Ermənistan SSR-in ərazisində Azərbaycan SSR-in eksklavı kimi təsdiqlənmişdir. Sənəddə göstərilmişdir ki, bu kəndlər Azərbaycan SSR-in Qazax rayonuna tabedir və ölkə sərhədlərindən 3–4 km məsafədə Ermənistan SSR ərazilərində yerləşir. Eksklav iqtisadi cəhətdən Qazax rayonu ilə bağlıdır, hər iki kənd Ağstafa – Dilican avtomobil yolunun üstündə yerləşir.

I Qarabağ müharibəsi dövründə, 1990-cı ilin martından 1992-ci illin martına qədər kiçik miqyaslı atışmalar olsa da, işğal hadisəsi baş verməmişdi. Barxudarlı və Sofulu kəndlərinə ermənilərin genişmiqyaslı hücumu 1992-ci ilin aprelin 23-dən başlamış və 4 gün davam etmişdir. Kənd sakinləri Barxudarlıda 11, Sofuluda 9 post quraraq düşmənə qarşı döyüşmüşlər. Qazax rayonundan köməyə gələn olmasın deyə, ermənilər dəmiryolu xəttini partlatmışlar. Sofulu və Barxudarlı aprelin 27-də işğal edilmişdir. Ağır döyüşlərdə 7 nəfər kənd sakini şəhid olmuş, 3 nəfər isə ağır yaralanmışdır. Barxudarlı və Sofulu kəndlərindəki 230 evin hamısı talan edilərək yandırılmışdır.

Əhalisi əsasən əkinçilik və maldarlıqla məşğul olan Sofulu və Barxudarlı əhalisi Qazax rayonu ərazisinin müxtəlif yerlərində məskunlaşmış və məcburi köçkün həyatı yaşayırlar.

**(ardı var)**

***İkram AĞASİYEV,***
***AMEA Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, professor***

# Bakı Təşəbbüs Qrupu Fransanın Kaledoniya özbaşınalığını pisləyib

**Bakı Təşəbbüs Qrupu Fransa hakimiyyətinin Yeni Kaledoniyada kanakların həbs olunmasına və mülki şəxslərə qarşı zorakılığına dair bəyanat yayıb.**




Sənəddə bildirilir ki, Bakı Təşəbbüs Qrupu Yeni Kaledoniyada baş verən hadisələrlə bağlı Fransa hakimiyyəti tərəfindən həyata keçirilən son həbslər və komendant saatının tətbiqi ilə əlaqədar ciddi narahatlığını bildirir: “Fransa təhlükəsizlik qüvvələrinin kanak xalqına qarşı törətdiyi zorakılıqlar bizdə dərin narahatlıq doğurur. İctimai toplantıların qadağan edilməsi və müstəqillik tərəfdarlarının həbsi bu məsələnin davamlı həlli hesab edilə bilməz. Fransa Senatı və Milli Assambleyası Yeni Kaledoniyada qanunsuz konstitusiya dəyişikliklərini dayandırmalıdır”.

Bəyanatda qeyd edilir ki, təklif olunan dəyişikliklər məqsədyönlü şəkildə seçki elektoratını qeyri-kanaklar hesabına artırmaq məqsədi daşıyır. Bu da öz növbəsində haqlı olaraq insanların narazılığına, habelə etiraz və nümayişlərinə səbəb olub: “Kanak xalqının rəyi nəzərə alınmadan konstitusiyaya təklif olunan son dəyişikliklər, dinc etiraz aksiyalarında iştirak edən mülki şəxslərə qarşı zorakılıq və həbslər bir çox qanunların, o cümlədən insan hüquqlarının, ifadə azadlığının, xüsusən də Fransanın beynəlxalq öhdəliklərinin kobud şəkildə pozulması ilə müşayiət olunub”.

Sonda bildirilir ki, paytaxt Numea şəhərində, həmçinin ətraf ərazilərdə baş vermiş və insan həyatı üçün təhlükə yaradan hadisələr Bakı Təşəbbüs Qrupu olaraq bizi dərindən narahat edir: “Biz kanaklı dostlarımızla həmrəyik və onların ədalətli mübarizəsində daim yanlarındayıq. Fransa hökumətindən kanak xalqının qərarının nəzərə alınmasını tələb edirik”.

***XQ***

# Mətbuat Şurasında təcrübə proqramı

## Qurum tələbələri “Xalq qəzeti”nin fəaliyyəti ilə də tanış etdi



**Mətbuat Şurasında təcrübə proqramı keçən Azərbaycan Dillər Universitetinin filologiya fakültəsinin bir qrup tələbəsi dünən “Xalq qəzeti”nin redaksiyasında oldu.**

Qəzetin baş redaktoru Əflatun Amaşov tələbələrin ölkənin media qurumlarının fəaliyyəti ilə yaxından tanış olmasının hər iki tərəf üçün önəmli olduğunu, redaksiya–oxucu əlaqəsinə əyanilik gətirdiyini söylədi. O, rəhbərlik etdiyi qəzetin yaranma tarixi, keçdiy yol və hazırkı fəaliyyət istiqamətləri barədə ekskursiyaçılara ətraflı məlumat verdi. Baş redaktor qeyd etdi ki, gündəlik ictimai-siyasi nəşr olan qəzetin aparıcı mövzuları ölkənin rəsmi həyatının davamlı işıqlandırılması, dövlətçiliyin möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərin zənginləşdirilməsi məsələləri ilə sıx bağlıdır.

Görüşdə bildirildi ki, peşəkarlıq məsələlərinə son vaxtlar xüsusi diqqət yetirən redaksiya milli jurnalistika ənənələri və qəzetin 1 əsrdən artıq müddətdə formalaşmış təcrübəsi ilə müasir media çağırışlarını üzvi surətdə əlaqələndirməyə çalışır. Dünən olduğu kimi, bu gün də operativlik və obyektivlik başlıca tələb olaraq qalır. Mövzu və janr əlvanlığı, coğrafi əhatə dairəsinin genişliyi daim nəzərə alınır. Gündəlik təqdimatda informasiya yeniliyi analitik aktuallıq, maarifləndirici və əyləncə materiallarının rəngarəngliyi ilə tamamlanır.

Tələbələr qəzet sayının planlaşdırılması, mövzuların işlənməsi, materialların çapa hazırlanması prosesi ilə də tanış oldular. Onlara nəşrin elektron versiyası, saytı və internet televiziyası – “Xalq TV” barədə də məlumat verildi.

Xatırladaq ki, Azərbaycan Dillər Universitetinin filologiya fakültəsinin tələbələri fevral ayından etibarən Mətbuat Şurasında təcrübə proqramı keçirlər. Onlar qurumun təşkilatçılığı ilə ölkəmizin tanınmış qəzet və saytlarında olublar. Layihə mayın sonunadək davam edəcək.

***T.RÜSTƏMLİ***
***XQ***

# Milli QHT Forumunun X qurultayı



**Mayın 14-də Azərbaycan Milli QHT Forumunun X qurultayı keçirilib. Qurultayda Forumun Nizamnaməsinə dəyişikliklər edilib, “prezident” postu ləğv olunub, əsas səlahiyyətlər İdarə Heyətinə verilib.**

İdarə Heyəti üzvlərinin səlahiyyət müddəti 4 ildən 5 ilə qaldırılıb. Tədbirdə köhnə tərkib tam heyətlə buraxılıb, 5 nəfərdən ibarət yeni İdarə Heyəti formalaşıb. İdarə Heyətinin sədri postuna “Hüquqi Təhlil və Araşdırmalar” İctimai Birliyinin rəhbəri Ramil İskəndərli seçilib. Pərvanə Vəliyeva (“Sağlamlığa Xidmət” İctimai Birliyinin icraçı direktoru), Azər Allahverənov (“Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması” İB-nin sədri), Xatirə Vəliyeva (“Xankəndi” Məcburi Köçkünlərə Dəstək İB-nin sədri), Zaur İbrahimli (“Prioritet” Sosial İqtisadi Araşdırmalar Mərkəzi İB-nin sədri) İdarə Heyətinin üzvləri seçiliblər.

Qurultayda çıxış edən Prezident Administrasiyasının QHT-lərlə iş və kommunikasiya şöbəsinin QHT-lərlə iş sektorunun müdiri Tural Əliyev yeni formalaşmış İdarə Heyətinə fəaliyyətində uğurlar arzulayıb. O deyib: “Azərbaycan Milli QHT Forumu illərdir arzusunda olduğu islahatlar mərhələsinə qədəm qoyur, estafeti bir nəsil digərinə yüksək ləyaqətlə ötürür. Bu, Azərbaycan vətəndaş cəmiyyətində formalaşmış nümunəvi ictimai dəyərlərdən, yetkin mədəniyyətdən xəbər verir. Nizamnaməsində aparılan sistem xarakterli dəyişikliklər qurumun müasir dövrün tələblərinə uyğun çevik idarəçilik modelinə keçməsinə işarədir. Qarşıdakı müddətdə bunun müsbət praktiki nəticələrini görəcəyimizə ümid edirik.

Biz yeni İdarə Heyətini hadisələrin arxasınca gedən deyil, əksinə, müsbət təşəbbüslərin bayraqdarı kimi təsəvvür edirik. Yeni İdarə Heyətindən QHT-lərin ictimai vəkilliyi işində, ictimai maraqların müdafiəsində, o cümlədən cəmiyyətdə kök salmış mənfi stereotiplərin təmizlənməsi işində yüksək fəallıq gözləyirik”.

***XQ***

# Gürcüstan DİN-in xəbərdarlığı

**Gürcüstan parlamenti “Xarici təsirin şəffaflığı haqqında” qanunu qəbul etdikdən sonra paytaxt Tbilisidə vəziyyət yenidən gərginləşib. Qanunun əleyhinə olan qüvvələr parlamentin qarşısında etiraz aksiyası keçirirlər. Onlar parlamentin binasına daxil olmağa çalışırlar.**



Bununla bağlı Gürcüstanın Daxili İşlər Nazirliyi etirazçılara xəbərdarlıq edib. DİN-in bəyanatında deyilir ki, parlament binasının ətrafında keçirilən aksiya zorakı xarakter alıb. Polis qanunla müəyyən edilmiş xüsusi vasitələrdən istifadə etmək məcburiyyətində qalıb.

DİN mitinq iştirakçılarını polisin qanuni tələbinə tabe olmağa çağırıb.

Qeyd edək ki, hazırda Rustaveli prospektində vəziyyət gərgin olaraq qalır. Polisin tələbinə baxmayaraq, etirazçılar ərazini tərk etmirlər. Prospektdə avtomobillərin hərəkəti tam dayandırılıb.

# Naxçıvanda dövlət qulluğu təlimləri



**Naxçıvan Muxtar Respublikasında çalışan dövlət qulluqçuları üçün təlimlərə start verilib.**

Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin təşkilatçılığı ilə keçirilən ilk təlim Naxçıvan şəhərində təşkil olunub. Mərkəzi icra hakimiyyəti orqanları əməkdaşlarının iştitrakı ilə keçirilən təlimdə mərkəzin əməkdaşı Ülviyyə Bədəlova “Dövlətin əsasları” və “Dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi” mövzularında çıxış edib, iştirakçıların suallarını cavablandırıb.

Sədərək, Kəngərli, Şərur rayonlarında təlimçi Elnur Abbasov tərəfindən “Dövlət qullluğunda etik davranış qaydaları və korrupsiya ilə mübarizə” və “Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydaları”, Şahbuz rayonunda isə təlimçi Pərviz Kazımov “Münaqişələrin idarə edilməsi”, “Rəhbər vəzifəli şəxslər üçün insan resurslarının idarəedilməsi və liderlik” mövzularında təlimlər aparıb. Rayonlarda keçirilən təlimlərə yerli icra hakimiyyəti orqanlarının nümayəndələri cəlb olunub. Sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın icrasına uyğun olaraq keçirilən təlimlər Naxçıvan Muxtar Respublikasında 5 gün davam edəcək.

***Səbuhi HƏSƏNOV***
***XQ***

# "Mazellinin axtarışı"

**Ötən əsrin 70-ci illəri idi. 9 May Qələbə Günü ərəfəsində televiziyada "Uzaq sahillərdə" filmi göstərilirdi. Xatırladım ki, rəhmətlik atam həmin filmə daha böyük həvəslə baxırdı. Atam Mazelli rolunu oynayan aktyoru bir daha görəndə fikrini qətiləşdirdi: "Bu artist nemesdir! Onu haradan tapıblar?" ( 1941-45-ci illər müharibəsinin veteranı və əlili olan atam alman sözünü qətiyyən işlətmirdi). Dedim yox, titrlərə diqqətlə baxmışam, həmin aktyorun adı Andreydir. Andreydirsə, deməli rusdur.**

Sonralar mən İncəsənət İnstitunda oxumalı oldum. Qrup yoldaşlarımızdan birinin – rəhmətlik Nemət Rzayevin Kinostudiyada işlədiyini biləndə ( Nemət orada filmlərin sınaq çəkilişi zamanı aktyorların rolu necə oynayacağını foto lentlərə köçürürdü) Mazelli rolunu oynayan aktyor barədə soruşdum. Birmənalı olaraq dedi ki, rus deyil, xaricidir. Daha təfsilata varmadıq və mövzu unudulub getdi.

***

Bir neçə gün əvvəl – mayın 9-da telekanallarımızdan biri həmin filmi yenə də göstərirdi. Mazellinin böyük ustalıqla nümayiş etdiriyi jest, mizan və hərəkətləri-ni görəndə atamın, təxminən, 50 il əvvəlki sözü yadıma düşdü və xoşbəxtlikdən, bu dəfə əlimin altında kompüter var idi. Ona görə də, dərhal "Mazellinin axtarışı"na çıxdım.

Məlum oldu ki, Andrey Fayt adlı bu aktyor 1903-cü ildə Rusiyanın Nijni Novqorod şəhərində doğulsa da, milliyyətcə almandır. O, 1812-ci ildə Rusiyaya köçmüş alman tacir ailəsinin üzvü olan həkim Andrey Faytın nəvəsidir. Rusiyada inqilabi vəziyyət yarananda – 1905-ci ildə onun atası öz pasiyentlərinin köməyi ilə Fransaya qaçıb. Sonra arvadı və iki oğlu da onun yanına gediblər. Paris yaxınlığındakı ruslar üçün olan düşərgədə yaşayıblar. Balaca Andrey orada liseydə oxuyub. Sonra Sergey Gerasimov adına Ümumrusiya Dövlət Kinematoqrafiya İnstitutunu bitirib. Yəni, atamın dediyi "nemes"lik onun qanında var imiş.

***

Qərəz, mən "Mazellinin axtarışına" "Uzaq sahillərdə" filmi haqqında olan məlumatlarla başladım. Həmin film haqqında formalaşdırılmış yazılı materialların "İstinadlar" bölməsində göstərilib ki, İttifaq Mirzəbəylinin 2015-ci ildə hazırlayıb "Xalq qəzeti"ndə verdiyi "Uzaq sahillərdə"ni başlayanda mənim 25, müəllimimin isə 37 yaşı vardı" adlı məqaləsindən də istifadə edilmişdir.

Yadıma düşdü. Söhbət ondan gedirdi ki, mən böyük bəstəkarımız Qara Qarayevla (Qara müəllim "Uzaq sahillərdə" filminin bəstəkarı idi) onun tələbəsi olmuş Tofiq Bakıxanovun (Tofiq müəllim isə "Uzaq sahillərdə" simfonik poemasının müəllifidir) bir fotosunun tarixçəsini öyrənmək istəyəndə Tofiq müəllim maraqlı bir xatirə danışmışdı. Mən də həmin xatirəni qəzet yazısına çevirmişdim.



Qara Qarayev və Tofiq Bakıxanov

Məlum olmuşdu ki, həmin foto Tofiq müəllimin öz ustadı, 60 il qabaq (xatirə 2015-ci ildə qələmə alınmışdır) Azərbaycan Dövlət Konservatoriyasında bəstəkarlıq fənni üzrə müəllimi olmuş dünyaca məşhur Qara Qarayevdən bir əsər barədə xeyir-dua aldığı gün çəkilmişdir.

Bəstəkar demişdi: Tanrı insanı elə yaradıb ki, hamı yaşa doldaqca xatirələrə daha çox meyilli olur. Həyatı boyu çoxsaylı görkəmli və dahi sənətkarlarla ünsiyyətdə olmuş adamın xatirə boğçası isə çözələndikcə qurtarmır. Bu baxımdan mənim bəxtim çox gətirib. Ən dərin xatirələrim isə dahi bəstəkarımız Qara Qarayevlə bağlıdır. Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi dövrdə SSRİ-nin ən nüfuzlu mükafatlarından olan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş sənət adamlarının önündə məhz mənim müəllimim, Milli Elmlər Akademiyamızın akademiki, müharibədən sonrakı dövr Azərbaycan mədəniyyətinin ən görkəmli nümayəndələrindən biri — bəstəkar Qara Qarayev dayanırdı. Qara müəllim cismən aramızda olduğu illərdə də, çoxmilyonlu sənət xiridarlarının xatirəsində və qəlbində yaşadığı son 33 ildə də daim sevilib və ehtiramla qəbul edilib. Yeri gəlmişkən, cənab Prezident İlham Əliyev də ulu öndərimizin yaradıcı ziyalılara göstərdiyi qayğı və diqqət ənənəsini sədaqətlə davam etdirir və biz yaradıcı insanlar daim onun diqqətindəyik.

Bu fotoşəkil isə 1955-ci ildə, mərhum müəllimimdən xeyir-dua aldığım günlərdən birində, bilavasitə onun indiki Şeyx Şamil (o zamankı Buynakski) küçəsindəki evində çəkilib. Onda Qara müəllimin 37, mənim isə 25 yaşım vardı. Onu da deyim ki, Üzeyir bəy Hacıbəylinin vəfatından sonra 30 yaşlı Qara Qarayev Azərbaycan Dövlət Konservatoriyasına rektor təyin olunmuşdu. O, eyni zamanda, konservatoriyada bəstəkarlıq kafedrasının müdiri, Bəstəkarlar İttifaqının birinci katibi, SSRİ Ali Sovetinin deputatı, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü kimi məsul vəzifələr daşıyırdı. Üstəlik, gərgin yaradıcılıqla da məşğul olurdu. Onun ən böyük vəzifəsi isə sadə Azərbaycan ziyalısı olması idi. Mən ömründə onun qədər sadə və səmimi insan görməmişəm.

Bu qədər məsul vəzifələri olan Qara müəllimin dərsi heç zaman boş keçməzdi. Mən onun bəstəkarlıq kursunda oxuyurdum. Əgər hansısa rəsmi tədbir — qurultay, plenum və ya sessiya səbəbindən dərsə gələ bilməsydi, xəbər göndərirdi ki, həmin dərs axşam bizim evdə olacaq. Biz yığışıb onun evinə gedirdik və heç bir dərsimizin boş keçməsinə imkan vermirdi. Həmin evdə dərs keçdiyimiz günlərdən birində məndən soruşdu ki, yay tətili zamanı hansı əsər üzərində işləmək isəyirsən? O, bütün tələbələrin gündəlik və perspektiv yaradıcılığı ilə daim maraqlanırdı. Soruşdu və mən də bir neçə ay ürəyimdə götür-qoy etdiyim məsələ barədə danışdım.

O zaman bilirdim ki, Qara müəllim əfsanəvi qəhrəmanımız Mehdi Hüseynzadənin döyüş yolundan bəhs edən "Uzaq sahillərdə" filminin musiqisini yazır. Film 1958-ci ildə ekranlara çıxmalı idi və çıxdı da. Mən Qara müəllimə danışdım ki, Mehdi Hüseynzadə bizim qonşuluqda yaşayırdı. Onun bacısı mənim atam Əhməd Bakıxanovun tar sinfinin tələbəsi idi. Yəni, Mehdinin surəti də, ölüm xəbərindən sonra onun ailəsinin keçirdiyi üzüntülər də mənim gözümün qabağındadır. Ona görə də ustada dedim ki, aylarla haqqında düşündüyüm "Uzaq sahillərdə" simfonik poemasını işləyib başa çatdırmaq istəyirəm. Gülümsündü və səmimiyyətlə xeyir-dua verdi. Bəlkə də onun əvəzinə başqa bir bəstəkar olsaydı, deyərdi ki, o barədə artıq mən yazmışam. Qara müəllim isə həmin filmin musiqisini yazdığını qətiyyən yada salmadı və mən öz müəllimi ilə eyni dövrdə, eyni mövzuda əsər yazmış tələbə bəstəkar kimi tarixə düşdüm.

*İttifaq MİRZƏBƏYLİ*

**BP şirkəti "Azəri-Çıraq-Günəşli", "Bakı-Tbilisi-Ceyhan", "Şahdəniz" və "Cənubi Qafqaz boru kəməri" layihələrindəki tərəfdaşları adından orta məktəblər üçün nəzərdə tutulmuş yeni bir təhsil layihəsinin uğurla tamamlandığını elan edib.**

# BP-nin sahibkarlıq dərsləri

Əsas məqsədi məktəb yaşlarından uşaqlara sahibkarlıq və biznes liderliyinin əsaslarını aşılamaqda məktəblərə dəstək verməkdən ibarət layihəyə 8-ci və 9-cu sinif şagirdləri üçün biznes və sahibkarlığın əsas prinsipləri haqqında təhsil materiallarının hazırlanması daxil edilib. Layihə çərçivəsində Azərbaycanın müxtəlif regionlarından, təxminən, 34 müəllim təlimçi kimi hazırlanıb. Həmin müəllimlər ölkə üzrə 600 STEAM müəlliminə təlim keçərək onları məktəblərdə sahibkarlığın əsaslarının tədris edilməsi üçün lazımi biliklər və effektiv pedaqoji vasitələrlə təmin ediblər. Daha sonra təlim keçmiş müəllimlər ölkənin 51 rayonunda 150 STEAM məktəbində, ümumilikdə, təxminən, 8 min şagird üçün dərslər və digər tədris fəaliyyətləri həyata keçiriblər. İnteraktiv sessiyalar vasitəsilə şagirdlər biznes planlarının hazırlanması, bazarların təhlili və biznes imkanlarının müəyyənləşdirilməsi üzrə xüsusi təlim keçiblər.



Təhsil layihəsinin yekununa həsr olunmuş tədbirdə çıxış edən BP-nin Xəzər regionunda vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib ki, layihənin məqsədi məktəbliləri müasir və innovativ sahibkarlığın əsasları və təməl bilikləri ilə tanış etməyə başlamaqdır. "Bu, həm də onların dəyişikliklərə və innovasiyalara rəhbərlik etmək, ideyalar irəli sürmək və onları həyata keçirməyin praktiki yollarını tapmaqda öz bacarıqlarına inamını artırmağa yönəlib. Bunlar sürətlə dəyişən dünyada karyera yolunu seçmək və gələcəyini qurmaq üçün hər bir şagirdin ehtiyacı olacağı bacarıqlardır. Ümid edirik ki, layihə çərçivəsində təlim keçmiş müəllimlər öz şagirdlərinə gələcək karyera hədəflərini müəyyən etmək üçün lazım olan inamı və bu məqsədlərə çatmaq həvəsini aşılaya biləcəklər",– deyə o əlavə edib.

Xatırladaq ki, 12 aylıq layihənin ümumi dəyəri 74 min 450 manat təşkil edib. Layihə Azərbaycan Gənclərinin Nailiyyəti (Junior Achievement Azerbaijan) İctimai Birliyi tərəfindən icra olunub.

*XQ*

# ÜST-nin QİÇS təlimi

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) BMT-nin Əhali Fondunun dəstəyi və Səhiyyə Nazirliyi Respublika QİÇS-lə Mübarizə Mərkəzi ilə birlikdə yerli mütəxəssislər üçün "İİV/QİÇS-in diaqnostikası, müalicəsi və profilaktikasında müasir yanaşmalar" mövzusunda təlim təşkil edilib. ÜST-nin Avropa üzrə Regional Ofisinin eksperti tərəfindən keçirilən təlimdə 200 nəfərə yaxın ilkin səhiyyə və stasionar tipli tibb müəssisələrinin müxtəlif ixtisaslar üzrə həkimləri, digər müvafiq qurum və təhsil ocaqlarından nümayəndələr iştirak edib. Bu barədə ÜST-nin ölkə ofisindən XQ-ya bildirilib.**



Qeyd edilib ki, təlimin məqsədi xəstəliyin profilaktikası, diaqnostikası və müalicəsinə dair tibb işçilərinə və müvafiq qurumların və təhsil ocaqlarının mütəxəssislərinə müasir yanaşmaları təqdim etməklə 2030-cu ilə qədər İİV/QİÇS-ə son qoymaq məqsədinə nail olmaq üçün strateji yönümlü cavab tədbirlərinin həyata keçirilməsinə dəstək göstərməkdir. ÜST-nin Azərbaycandakı ölkə ofisinin rəhbəri Hande Harmancı və səhiyyə nazirinin müavini Nadir Zeynalov epidemiyanın dayandırılmasında tibb işçilərinin bilik və bacarıqlarının, eyni zamanda, tədris proqramlarının beynəlxalq yanaşmalara uyğunlaşdırılmasının və təkmilləşdirilməsinin əhəmiyyətini vurğulayıblar.

H.Harmancı deyib: "İİV infeksiyasının müalicəsi yoxdur. Lakin bununla yanaşı, bənzəxalq təlimatlara uyğun effektiv profilaktika, diaqnostika, müalicə və qayğı xidmətlərinə əlçatanlığın təmin edilməsi ilə İİV infeksiyasını idarəolunan xroniki xəstəliyə çevirmək və bununla da İİV-lə yaşayan insanlara uzun və sağlam həyat sürməyə imkan yaratmaq mümkündür. ÜST ölkələrə İİV infeksiyasının aşkarlanma sayını yüksəltmək və yoluxmuşların erkən müalicəyə cəlb edilməsi üçün yeni test alqoritmi və test müayinəsinin desentralizasiyasını tövsiyə edir. Bu missiya çərçivəsində həmçinin, İİV, Hepatit B və sifilis infeksiyalarının anadan uşağa ötürülməsinin üçlü eliminasiyası strategiyası və ÜST-nin bu sahədə dəstəkləyici fəaliyyətləri də müzakirə olunacaqdır".

Təlimdə İİV epidemiyasının müasir aspektləri, diaqnostikada yeni test alqoritmi, anadan uşağa ötürülmənin profilaktikası və üçlü eliminasiya, təmasdan öncə profilaktika (PrEP) daxil olmaqla İİV-in profilaktikası, İİV və ko-infeksiyaların müalicəsində müasir yanaşmalar, İİV-lə yaşayan insanların vaksinasiyası, stiqma və diskriminasiya mövzuları üzrə ÜST-nin son tövsiyələri əhatə edilib.



Ölkə ofisindən bildiriblər ki, ÜST İİV epidemiyasının dayandırılması istiqamətində ölkələrə texniki dəstək göstərməyə hər zaman davam edəcək.

*Z.HÜSEYNOVA*
*XQ*

## Sosial xəbərlər

### 33 nəfərə psixoloji yardım göstəriləcək

***Sosial Xidmətlər Agentliyi probasiya nəzarətində olan (şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya məhkəmə tərəfindən cəzasının çəkilməsi***



***təxirə salınmış) şəxslərin sosial mühitə adaptasiyası istiqamətində fəaliyyətini davam etdirir. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin ictimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən XQ-yə verilən məlumatda bildirilir.***

Qeyd edilir ki, Ədliyyə Nazirliyinin Probasiya Xidməti ilə əməkdaşlıq çərçivəsində təşkil edilən növbəti tədbirdə iştirakçılar agentliyin fəaliyyəti istiqamətləri, bu kateqoriyadan olan şəxslərin sosial reabilitasiyası və onların əhatə olunduğu sosial dəstək tədbirləri barədə məlumatlandırılıblar. Söhbət zamanı hər iki qurumun əməkdaşlarının iştirakı ilə məhkumların sosial adaptasiyası ilə bağlı müzakirələr aparılıb və təkliflər səslələndirilib.

Sonra probasiya nəzarətində olan 33 nəfərin anket sorğusu əsasında qiymətləndirilməsi aparılıb. Nəticələrə uyğun olaraq onların sosial-psixoloji yardım xidmətinə cəlb edilməsi nəzərdə tutulur.

### Həssas qrupların ağacəkmə aksiyası



***Nazirlikdən, həmçinin bildirilib ki, ümummilli lider Heydər Əliyevin anadan olmasının 101 illiyi ilə əlaqədar DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində ağacəkmə aksiyası təşkil olunub.***

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə həyata keçirilən növbəti aksiyada Mərkəzin rəhbər heyəti, əməkdaşları, təlimçi və benefisiarları, "İnklüziv DOST" könüllüləri iştirak ediblər. Aksiya çərçivəsində mərkəzin həyətyanı sahəsində iqlim şəraitinə uyğun 30 eldar şamı və zeytun ağacı əkilib. Yeni əkilən ağaclar suvarılıb və mühafizəsi üçün müvafiq işlər görülüb.

Məqsəd ulu öndərin təbiətə qayğı və yaşıllaşdırma ənənələrini davam etdirmək, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ətraf mühitə töhfə verməkdir.

### 128 min şəxsə 344 min xidmət

***Digər xəbərdə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketinin icrasının uğurla davam etdirilməsi bildirilir.***

Qeyd edilir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan sosial dəstək tədbirləri çərçivəsində postmüharibə dövründə şəhid ailələri üzvləri və müharibə veteranları olan 105 min şəxsə 118 min aylıq sosial ödəniş, 23 minə yaxın insana birdəfəlik ödəmə təyin olunub. Bu kateqoriyadan olanların və müharibə ilə əlaqədar əlillərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlara 6 min mənzil və fərdi ev, müharibə əlillərinə 528 avtomobil təqdim edilib.

Bundan başqa, şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 11 min nəfərə 63 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Müharibə ilə əlaqədar əlilliyi olan 2 min 147 nəfər 56 min 200 reabilitasiya vasitəsi, o cümlədən 471 şəxs 492 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Həmçinin şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 21 min 800 şəxsin məşğulluğu təmin edilib, o cümlədən 10 min 500 şəxs özünüməşğulluq proqramına cəlb olunub.

Postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi 128 min şəxsi əhatə edib, onlara dəstək yönümlü 344 min xidmət göstərilib.

### DSMF – 1 milyard 811 milyon manat gəlir

***Nazirlikdən aldığımız digər xəbərdə bildirilir ki, Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri bu ilin 4 ayında proqnozla müqayisədə 2,2 faiz və ya 47 milyon manat çox olmaqla 2 milyard 169 milyon manat təşkil edib.***

Fondun gəlirləri tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları həmin dövrdə proqnoza nisbətən 10 faiz və ya 157 milyon manat artaraq 1 milyard 811 milyon manat olub.




Yanvar–aprel aylarında DSMF-nin xərcləri 2 milyard 271 milyon manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 13 faiz və ya 267 milyon manat çoxdur.

### 46 uşağın yeni ailəsi var

***Sosial Xidmətlər Agentliyi 2024-cü ilin ötən dövründə 46 uşağı daha yaxşı şəraitdə – ailələrdə böyümək üçün övladlığa verib. Onlardan 24-ü oğlan, 22-si qızdır.***




Agentlikdən bildiriblər ki, uşaqlar övladlığa verildikdən sonra həmin ailələrdə onların vəziyyətləri və şəraitin öyrənilməsinə nəzarət edilir. Belə ki, onlar 18 yaşına çatanadək qurum tərəfindən övladlığagötürmənin birinci ilində hər rüb, növbəti illərdə isə ildə bir dəfə olmaqla monitorinqlər aparılır.

Agentlik tərəfindən reinteqrasiya tədbirləri də davam etdirilir. Həmin tədbirlər nəticəsində bu il dövlət uşaq müəssisələrindən 33-ü oğlan, 25-i qız olmaqla 58 uşaq ailələrinə qaytarılıb.

### 58 min 500 şəxs işlə təmin olunub

***Dövlət Məşğulluq Agentliyindən bildiriblər ki, bu ilin yanvar–aprel ayında 140 min 400 şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub.***

Onlardan 58 min 500 nəfər münasib işlərlə təmin edilib, 1,3 min şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb edilib.

Qeyd olunan dövrdə agentlik tərəfindən 5 min işsiz 600 şəxs üçün peşə hazırlığı kursları təşkil edilib, 75 min nəfərə isə peşəyönümü xidmətləri göstərilib.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# İslam dünyasının bəşəri irsi






**Mayın 15-16-da Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasında (BMA)"İslam dünyasının mədəni irsinin qorunub saxlanması" mövzusunda 2 günlük beynəlxalq elmi-praktik konfrans başlanır.**

BMA-dan bildiriblər ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr edilən konfransda Azərbaycan, Rusiya, Özbəkistan, Qazaxıstan, Tacikistan, Türkiyə və İrandan olan bakalavr və magistrlər iştirak edirlər. Tədbir üzbəüz və distant formatda keçirilir, proqrama daxil edilmiş 47 məruzə iştirakçıların seçimi ilə Azərbaycan, rus, ingilis və türk dillərində təqdim olunur. Əsas mövzular musiqi sənəti, mədəniyyətşünaslıq və pedaqogika sahələrini əhatə edir.

Konfrans çərçivəsində BMA-nın magistri Samra Qaziyevanın Azərbaycanın görkəmli bəstəkarı Arif Məlikovun 90 illik yubileyinə həsr olunmuş "Arif Məlikovun "Dalğalar" operettası" kitabının da təqdimatı keçiriləcək.

*XQ*

# Qərbi Azərbaycan – aşıqlar yurdu

**Türk xalqlarının milli-mənəvi zənginliyində Qərbi Azərbaycanın bir mədəniyyət ocağı olaraq rolu böyükdür. Bu qədim yurd yerlərimiz ucu-bucağı görünməyən bir rəngarəngliklə səciyyələnir. Əfsanə, rəvayət, nağıl, dastan, atalar sözü, məsəl, tapmaca, mərasim folkloru, etnoqrafik əsrarəngizlik səviyyəsində Qərbi Azərbaycanın tarixi-mədəni yaddaşı mükəmməldir.**

Aşıq yaradıcılığı bu möhtəşəmliyin ana axarını müəyyənləşdirməklə, həm də onun mədəniyyət kodu olaraq etnopotensiya səviyyəsində yaranış və ötürülmə formulasını diqqət önünə gətirir. Azərbaycan Aşıqlar Birliyinin bu yaxınlarda geniş işıq tuta bilmək gücündədir. Regionun tarixi abidələri, qayaüstü yazılar, müxtəlif daş heykəllər, sərdabələr, coğrafi adlar və onların ehtiva etdiyi məzmun bunun bariz nümunəsidir.

Azərbaycan Aşıqlar Birliyinin gördüyü gərəkli iş həmin zənginliyin bir başqa mənzərəsidir və daha çox faktura ilə diqqət önünə gəlir.




ictimaiyyətə təqdim etdiyi "Qərbi Azərbaycan aşıqları (poeziya antologiyası)" kitabı bunun göstəricisidir.

Ümumiyyətlə, son dövrlərdə Azərbaycan Aşıqlar Birliyinin bir-birinin ardınca nəşr olunan "Ozan-aşıq ensiklopediyası" (iki cilddə), "Aşıq deyişmələri", "Aşıq təcnisləri", "Aşıq gözəlləmələri", "Aşıq Ələsgərlə bağlı dastan-rəvayətlər", "Aşıq divaniləri və müxəmməsləri", "Ustad nəfəsli saz-söz ərməğanı" və s. kitabları qədim milli varlığımızın təsdiqi kimi dəyərlidir. "Qərbi Azərbaycan aşıqları (poeziya antologiyası)"nın giriş yazısında bu məqam xüsusi olaraq vurğulanır. Xatırlanır ki, ozan-aşıq mədəniyyətinin mühüm bir qanadı tarixən indiki Qərbi Azərbaycan mahallarından boy göstərib. İrəvan, Zəngəzur, Göyçə, Dərələyəz, Ağbaba, Qaraqoyunlu və Dərəçiçək-Loru-Pəmbəkdə 100 illər boyunca ustad sənətkarlar, azman aşıqlar dilimizin, ruhumuzun, mədəniyyətimizin güc-qüdrətini Azərbaycan və oğuz-türk dünyası boyunca yaşadaraq şöhrətləniblər. Qərbi Azərbaycanın maddi və mənəvi atlası bütün parametrlərdə arxaik qatdan üzübəri gələn proseslərin zənginləşməsinə, etnik müəyyənliyin bir normativ olaraq prinsipləşməsinə bağlanır.

Qərbi Azərbaycan aşıqları şeir antologiyası ayrı-ayrı aşıq mühitləri və ocaqları səviyyəsində tarixi axarın mənzərəsini bütün gücü ilə əks etdirmək təsəvvürünə xidmət edir. Coğrafi ərazi olaraq on doqquzuncu yüzilliyin başlanğıcından bu yana imperiya siyasətinin tendensiyalı yanaşmaları ilə üzləşən bu region türkün qədim mədəniyyət mərkəzlərindən biri kimi özündə çox mətləblərə

"Qərbi Azərbaycan aşıq mühitləri" başlığı altında antologiyanın bir araya gətirilərək nəşri folklorşünaslıqda ilk addımdır. Düzdür, Göyçə, Dərələyəz aşıq mühitləri ilə bağlı müəyyən toplular nəşr olunaraq geniş auditoriyaya çatdırılmışdır. Və müəyyən sənətkarların şeir topluları ayrı-ayrı zaman kəsiklərində işıq üzü görmüşdür. Mühitin ümumi aurası, sənət ənənəsi haqqında Əməkdar elm xadimi, professor M.Qasımlı konseptual təhlillər aparmışdır. Bu toplu isə özlüyündə sonrakı araşdırmalar üçün davamlı qaynaq funksiyasını yerinə yetirir.

Folklorşünas alimlər – Əməkdar elm xadimi M.Qasımlı, prof. M.Allahmanlı, Əməkdar mədəniyyət işçisi M.Nəbioğlu və dosent A.Məmmədlinin fədakarlığı sayəsində geniş ictimaiyyətə təqdim olunan yeni toplu ilk dəfə olaraq əhatəliliyi və mühitləri bir araya gətirmək cəhdi ilə mühüm əhəmiyyət kəsb edir. Burada əksini tapan bir sıra sənətkarların adları müəyyən folklorşünasların təhlillərində xatırlanmalarla diqqət önünə gəlsə də, bir qismi haqqında, demək olar, elə bir bilgi də yox idi. Hətta mühit timsalında da bu vəziyyət özünə yer alır. Məsələn, İrəvan aşıq mühiti, Zəngəzur aşıq mühiti, Dərəçiçək-Lori-Pəmbək aşıq mühiti bunun örnəyidir. Çar Rusiyasının Azərbaycanı işğal etməsi ilə başlayan tənəzzül bu və ya digər şəkildə bu mühitlərin bir mədəniyyət ocağı olaraq tədrici səviyyədə sıradan çıxarılmasına yönlənmişdi. Sovetlər dönəmində bu məkrli siyasət daha kəskin, həm də nümayişkaranə şəkildə aparılmışdır.

Aşıq yaradıcılığı ayrı-ayrı mühit və şəxsiyyətlərin timsalında həmin prosesləri izləmək və ümumiyyətlə, toplumun tarixi yaşam tərzini əks etdirmək baxımından dəyərli qaynaqdır. Mühitin qaynar söz axarı və kitabdakı İrəvan aşıq mühiti timsalında verilən bilgilər zaman-zaman böyük itkilərin də yaşandığını diqqət önünə gətirir. Dədə Gözlü, Dədə Heykəl, Dədə Qürbət kimi ustadlar yetirən İrəvan aşıqlığı 20-ci yüzilliyin əvvəllərindən öləzimələrlə, aşıqlıq timsalında sıradan çıxma ilə səciyyələnib. İctimai-siyasi mühitin məkrli tendensiyası 19-cu əsr boyu müxtəlif aspektdə aşınmaları qaçılmaz etmişdi. "Qərbi Azərbayan aşıqları" antologiyası da sərgilədiyi mənzərə ilə bunu nümayiş etdirir. Zəngəzur, Qaraqoyunlu, Dərəçiçək-Lori-Pənbək aşıq mühiti timsalında bu təsəvvürü faktlaşdırır.

Göyçə, Dərələyəz və Ağbaba mühitləri timsalında görülən işlər, sənətkarlarla bağlı bilgilər həm də sistemli təhlillər üçün əsaslı material verir. Son dövrlərdə ayrı-ayrı bölgələrlə əlaqədar işıq üzü görən antologiyalar, məsələn, "Göyçə folklor antologiyası", "Ağbaba folklor antologiyası", "Dərələyəz folklor antologiyası" və s. geniş müstəvidə prosesin dönməzliyini diqqət önünə gətirir. Tarixçilərin, dilçilərin, folklorşünasların, etnoqrafların, musiqişünasların gördüyü gərəkli işlər özlüyündə həmin coğrafi bölgəyə, qədim sakinlərin öz dədə-baba yurdlarına qayıdış konsepsiyasını strateji xətt olaraq səciyyələndirir. "Qərbi Azərbaycan aşıqları" antologiyası da həmin mühitlərə həssaslığın örnəyi olaraq meydana çıxmışdır.

"İrəvan çuxuru", "Göyçəgülü", "Dərələyəz gəraylısı", "Cəlili", "Ağbaba gözəlləməsi" və bu sıradan olan başqa möhtəşəm saz havaları milli-tarixi düşüncə və yaddaşımızı oyaq saxlayan çox mühüm, vacib qaynaqlardır. Çünki bu havaların melodik ruhu kimi, adı – toponimik ovqatı da bizi Qərbi Azərbaycanımıza – İrəvanımıza, Zəngəzurumuza, Dərələyəzimizə, Göyçəmizə, Vedibasarımıza səsləyir, oradakı dağın-daşın, yer-yurd ətrinin bizim könlümüzdəki, damarlarımızdakı tarixi-genetik dalğalanma ilə dopdoğma olduğundan xəbər verir.

Miskin Abdal, Ozan Heydər, Ozan Cəlil, Ozan İbrahim, Xəstə Hasan, Qarani, Ululu Kərim, Şenlik Çıldırlı, Çorlu Məhəmməd, Ağ Aşıq, Aşıq Alı, Məhərrəm Alçalı, Ağkilsəli Musa, Əsəd Rzayev, Məhəmməd Rzayev, Sadıq Sultanov, Çobankərəli Aşıq Cəfər, Sallı Aşıq Cəlil, Aşıq Qəhrəman və s. ayrı-ayrı sənətkarlar timsalında özünü göstərən sənət ənənəsi Qərbi Azərbaycan aşıqlığının mədəniyyətə verdiyi əvəzsiz töhfələrdir. Bütünlükdə, bunlar tarixi axarın aşıqlıq timsalında sərgilədiyi mənzərədir və əvəzsiz nəsnə olaraq yaddaşlarda qorunmaqla gediləcək yolun dönməzliyinə həssaslığı nümayiş etdirir.

***Mənsurə İSMAYILOVA,***
***Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti***

# Gənc Türk Yazarlar 25 yaş "qocaldılar"

**Türkiyə paytaxtında, TÜRKSOY-un konfrans salonunda DGTYB-nin 25 illik yubileyi qeyd olunub. Beynəlxalq qurumun baş katibi Sultan Rayev qardaş xalqların istedadlı gənclərini bir platforma ətrafında birləşdirən DGTYB-nin fəaliyyətini yüksək dəyərləndirib.**



Yubiley tədbirində çıxış edən Dünya Gənc Türk Yazarlar Birliyinin Məsləhət Şurasının üzvü doktor Şəmsəddin Kuzəçi, DGTYB-nin qurucusu şair Əkbər Qoşalı, hazırkı başqanı İntiqam Yaşar, Məsləhət Şurasının üzvü, professor Rəsmiyyə Sabir ürək sözlərini söyləyiblər.

Sonra toplantının panel bölümləri olub. Avrasya Yazarlar Birliyinin başqanı Yaqub Öməroğlu yubilyar qurumun gördüyü işlərin Türk dünyası üçün önəmli olduğunu bildirib. "Yerlə göy arasında", "Altaylardan qopan atlar", "Şeirlərim", "Adını çəkirəm" kitabları təqdim olunub. Dünya Söz Akademiyası başqanı professor Hayrettin İvgin və keçmiş millət vəkili, şair Mehmet Atilla Maraş həmin əsərlər haqqında düşüncələrini bölüşüblər.

Məclisdə həmçinin iştirakçıların bir qrupuna TÜRKSOY-un 30 illik və DGTYB-nin 25 illik yubiley medalları, plaketlər təqdim olunub. Sonda ünlü türk sənətçisi Kaya Kuzunun ifasında musiqi nömrələri səslənib.

*XQ*

# "Xarıbülbül"ün solmayan təravəti

**Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı sona yetsə də, onunla bağlı xoş təəssüratlar iştirakçıları uzun müddət tərk etməyəcək. Bu gözəl bayramdan məmnun qalan sənət adamları "XQ"-yə verdikləri müsahibələrdə sevinc dolu ürək sözlərini dilə gətiriblər.**



**Xalq artisti Nurəddin Mehdixanlı:**

– Mayın 10-da anadan olmasının 101-ci ildönümünü qeyd etdiyimiz Ulu öndər Heydər Əliyev bütövlükdə öz ömrünü, həyatını Azərbaycana həsr etmişdir. Heydər Əliyev deyəndə gözlərimiz önündə böyük azərbaycanlı, siyasi lider, dövlət xadimi, dünya miqyasında tanınan bir şəxsiyyət, Azərbaycanın müstəqilliyini xilas edən bir dövlət adamının portreti canlanır. Bu yaxınlarda 20 illiyi tamam olan Heydər Əliyev Fondu da yarandığı gündən mədəniyyətimizin hamisi rolunda çıxış edir. Məhz bu Fondun təşkilatçılığı ilə bir daha biz azad Şuşada gözəl bir musiqi bayramına toplaşdıq.

Əvvəlki illərdə olduğu kimi, bu festival da çox yüksək səviyyədə təşkil olunmuşdu. Festivalda dünyanın bir çox yerlərindən ifaçılar çıxış etdilər. Ölkəmizdə keçirilən möhtəşəm beynəlxalq tədbirlər bir daha sübut edir ki, Azərbaycan xalqı sülhsevər, qonaqpərvər, dostluq, barış içində yaşamaq istəyən xalqdır.

**Xanəndə, Əməkdar artist Ehtiram Hüseynov:**



– Azad Şuşanın, Laçının növrağını görmək, hər qarışı, hər cığırı doğma olan bu yerləri gəzib-dolaşmaq, gur səslə mahnılar oxumaq mənim üçün əsl xoşbəxtlikdir. "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı və "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılışında olmaq, konsertlərdə çıxış etmək isə ikiqat fərəhlidir. İncəsənət ustalarımız və ISESCO-ya üzv ölkələrin sənətçiləri Cıdır düzündə öz məharətlərini göstərdilər, digər yaddaqalan tədbirlər oldu. Laçında isə buludlar hər kəsi su aydınlığına qovuşdurdu. Mən, Aşıq Sahil Qurbanov, Murad Laçınlı, Dünyamin Əlişov və Ələkbər Ələkbərov birlikdə mərhum Məhəbbət Kazımovun "Laçınım" mahnısını yeni aranjimanda təqdim elədik. Bizlərə bu şəraiti yaradan Heydər Əliyev Fonduna və Mədəniyyət Nazirliyinə minnətdarıq.

**Şair-publisist İlham Qəhrəman:**

– Bir laçınlı kimi fərəh duyuram ki, bu il festivalın məkanı genişlənərək Laçın şəhərini də əhatə etdi. Mənim "Laçın folkloru" adlı kitabım var. Uşaqlıqdan üzübəri eşitdiyim lətifə, bayatı, səvələmə, bəzəmə, tapmaca, əfsanə, ağı, deyişmə və sair kimi ağız ədəbiyyatı nümunələrini toplayıb ipə-sapa düzmüşəm. Fes-



tival günlərində sevinc-sevincə qarışdı: Şuşa şəhərinə və doğma Sus kəndimə ilk köç karvanları gəldi. Neçə-neçə ailə doğma ocağına qovuşdu. Mən Laçında səhnəyə çıxıb danışdım, işğal dövründə bu yerlərin gözəlliyindən yana-yana şeir və məqalələr yazdığımı, indi isə Laçına səyahət edib onun gözəlliklərinə heyran qalanların "Laçın nə gözəl imiş!" dediklərini bildirdim. Sonra Şuşanın adı ilə bağlı "Xarıbülbül" musiqi festivalının bir gününün Hoçazın ətəklərində keçirilməsini Şuşanın Laçına salamı və bayram payı kimi qiymətləndirdim.

Festival möhtəşəm oldu. Günün ilk yarısında "Sələflər və xələflər" adlı konsert, daha sonra isə "Aşıq mahnıları yeni səslənmədə" adlı proqram sərgiləndi. Konsertin iştirakçıları Laçında təbiətin bir şıltaqlığının da şahidi olublar – konsertdən əvvəl yağan şıdırğı yağış konsertin başlanmasına bir neçə dəqiqə qalmış kəsdi. Əslində, bayramın Laçında aşıq mahnılarından ibarət proqramla sona yetməsi təsadüfi deyil. Çünki bu yerlər ta qəimdən ozan sənətinin geniş yayıldığı bir ərazidir, haqq aşığı Sarı Aşıq və piçənisli Aşıq Abbas Laçın torpağının yetirmələri olublar. Mən də tədbirdə Sarı Aşıqdan və özündən şeirlər səsləndirdim. Respublikanın tanınmış aşıq və müğənnilərinin iştirakı ilə keçirilən tədbir laçınlıların coşqu və alqışlarıyla başa çatdı.

***Əli ƏLİYEV***
***XQ***

# "Avesta"nın 3-cü cildi ana dilimizdə

**Azərbaycan Yazıçılar Birliyinin (AYB) "Natəvan" klubunda şair Xanlar Həmidin tərcümə etdiyi qədim "Avesta"nın 3-cü cildi təqdim olunub.**



Bildiyimiz kimi, müqəddəs kitab olan "Avesta" Zərdüşt təlimini özündə əks etdirir. Zərdüşt peyğəmbər, islahatçı və zərdüştiliyin banisidir. Avropa alimləri onun yaşam dövrünü eramızdan əvvəl XV–XII əsrlərə aid edib, dinini bəşər tarixində yeni bir era adlandırıblar. Ünvan baxımından müxtəlif versiyalar olsa da, Zərdüştün Azərbaycanda doğulduğunu bildirən alimlərin fikri daha məqbul hesab edilir. "Avesta" müəllifi – Zərdüşt çox hallarda öz fikirlərini Ahyuramazdanın (Hörmüzün) dili ilə ifadə edib.

İstedadlı və zəhmətkeş qələm sahibi olan Xanlar Həmidin 70 illik yubileyinə təsadüf edən məclisdə onun yaradıcılıq məziyyətlərinə və dilimizə çevirdiyi "Avesta" ilə bağlı çalışmalarına işıq tutuldu. AYB-nin yaradıcılıq məsələləri üzrə katibi İlqar Fəhmi bildirdi ki, ən əhəmiyyətli ədəbiyyat hadisələrinə evsahibliyi edən "Natəvan" klubunda bu dəfə "Avesta"nın tərcüməsi ilə bağlı müzakirələr aparılacaq. Bu, "Avesta" mətnini dərk etməyə qabil bir ziyalı saydığımız Xanlar Həmidin böyük uğurudur və təsadüfi deyil ki, tərcümə işi AYB-nin fəxri fərmanına layiq görülüb.

Tanınmış tənqidçi Əsəd Cahangir çevirməni fundamental tərcümə adlandırdı və ona həsr olunan 20 ilin hədər getmədiyini söylədi: "Bu, sözün əsl mənasında Zərdüştşünaslıqda hadisədir. "Avesta" bizim hardan gəlib-hara getdiyimizi göstərən bir kompasdır. Nağıl və dastanların şüuraltı olaraq beyinlərimizə yeritdiyi mənalar bu əsərdə birbaşa diktə edilir. Elə bu faktın özü tərcümə əsərinin önəmini irəli çəkir".

Kitabın elmi redaktoru və rəyçisi fəlsəfə elmləri doktoru Kazım Əzimov qeyd etdi ki, ilk dəfə dilimizə poetik tərcümə olunan "Avesta" sanballı bir mənbədir.

Sonra filologiya elmləri doktoru, professor Elman Quliyev, AYB-nin beynəlxalq əlaqələr və tərcümə məsələləri üzrə katibi Səlim Babullaoğlu, tanınmış şair Ağacəfər Həsənli, müəllifin digər qələm yoldaşları ürək sözlərini söylədilər, tərcüməni ədəbiyyatımız və elmimiz üçün gərəkli əsər və Xanlar Həmidə daha böyük yaradıcılıq sevincləri arzuladılar.

*XQ*

BEYNƏLXALQ HƏYAT

# ABŞ Ukraynaya dəstəyini davam etdirəcək

**ABŞ dövlət katibi Entoni Blinken dünən səhər tezdən Kiyevə elan olunmamış səfərə gəlib. Ukrayna lideri Volodimir Zelenski ilə danışıqlardan sonra cənab Blinken baş nazir Denis Şmıqal və xarici işlər naziri Dmitri Kuleba ilə görüşüb. ABŞ dövlət katibi görüşlərdə döyüş əməliyyatları haqqında yenilənmiş məlumatlar alıb, Amerikanın yeni təhlükəsizlik və iqtisadi yardımının təsiri, habelə Vaşinqtonun uzunmüddətli öhdəlikləri və Ukraynanın iqtisadi bərpası ilə bağlı müzakirələr aparıb.**



ABŞ dövlət katibi Kiyevə elan olunmamış səfərini onunla izah edib ki, Birləşmiş Ştatlar "Rusiyanın təcavüzündən azadlığını müdafiə edən Ukraynaya sarsılmaz dəstəyini nümayiş etdirmək istəyir". Səfər çərçivəsində o, prezident Zelenski ilə görüşüb. Ukrayna lideri bildirib ki, ABŞ-ın dövlətimiz üçün yeni yardımla bağlı qərarı təsdiq etməsi həlledici əhəmiyyət kəsb edir və ukraynalılar üçün onu tez bir zamanda alması çox vacibdir. Bununla belə, cənab Zelenski diqqətə çatdırıb ki, ABŞ-ın təsdiq etdiyi yeni hərbi yardımı ən qısa zamanda Ukraynaya çatdırmaq lazımdır. Bundan başqa, Ukrayna lideri Xarkov və regionu qorumaq üçün əlavə iki "Patriot" zenit-raket kompleksinə ehtiyacın olduğunu deyib: "Düşünürəm ki, bu, ən böyük problemdir və bu gün Xarkov və Xarkov bölgəsi üçün iki "Patriot" lazımdır". Görüşdə, həmçinin iyun ayının 15-16-da İsveçrədə keçiriləcək sülh sammiti də müzakirə olunub. Prezident Zelenski vurğulayıb ki, sülh sammitinə mümkün qədər çox ölkə cəlb etmək lazımdır və bu məsələdə Kiyev ABŞ-dan kömək gözləyir.

Dövlət katibi Entoni Blinken isə bildirib ki, Ukraynaya böyük həcmdə yardımın gələcək və bu da döyüş meydanındakı vəziyyəti dəyişəcək: "Biz hamımız sizin hədsiz dözümlülüyünüzə, təmkinliyinizə, gücünüzə və liderliyinizə heyranıq. Bilirik ki, indi çətin vaxtdır, lakin onu da bilirik ki, kömək yoldadır, bəziləri artıq gəlib və daha çoxu yoldadır. Döyüş meydanında davam edən Rusiya təcavüzü ilə mübarizədə fərq yaradacaq və biz Ukraynanın bir çox digər tərəfdaşları ilə birlikdə sizin döyüş meydanında uğur qazanmağınızı təmin etməyə qərarlıyıq". Dövlət katibi əlavə edib ki, ABŞ tərəfdaşları ilə birlikdə vaxt keçdikcə Ukraynanın hərbi, iqtisadi və demokratik baxımdan möhkəm ayaq üstə duracağına inanır. Onun sözlərinə görə, çiçəklənən güclü, uğurlu, azad Ukrayna "Rusiya prezidenti üçün mümkün olan ən yaxşı hökm olacaq".

Bundan başqa, E.Blinken əmin edib ki, Birləşmiş Ştatlar sadiq tərəfdaşdır və bundan sonra da belə olacaq: "Qeyd etdiyiniz kimi, qarşıdakı aylarda qarşımıza çıxacaq bir sıra kritik məsələlər var. Biz bir çox digər tərəfdaşlarla birlikdə növbəti ayların uğurlu olmasına, qarşıda duran çağırışların öhdəsindən gəlməyə əmin olmaq istəyirik".

Hərbi mütəxəssislər də bildirirlər ki, hazırda Ukraynaya təcili havadan müdafiə sistemləri lazımdır. Kiyev xüsusilə də "Patriot" zenit-raketlərinə üstünlük verir. Ancaq Avropada da bu sistemdən azdır. Almaniya kansleri Olaf Şolts da son açıqlamasında bunu etiraf edir. Bununla belə, rəsmi Berlin iki ədəd "Patriot" sisteminin Kiyevə verildiyini açıqlayıb. "Patriot" sistemlərindən əlavə, Ukrayna döyüş tankları, çoxsaylı buraxılış raket sistemləri və digər ağır texnikalar alır. Cənab Şolts Berlinin çağırışı ilə bir sıra ölkələr artıq yeni təchizat elan edib. Eyni zamanda Almaniya kansleri etiraf edib ki, hələlik Ukraynaya silah vermək istəyənlər çox deyil. Onun sözlərinə görə, bu, üzücüdür, çünki Ukrayna qoşunlarına təcili olaraq daha çox hava hücumundan müdafiə sistemləri lazımdır.

Xatırladaq ki, ötən həftə Avropa İttifaqı Ukraynaya təhlükəsizlik zəmanətlərinin verilməsinə dair sənəd layihəsini razılaşdırıb. O, Kiyevə siyasi, hərbi və iqtisadi yardım nəzərdə tutur, lakin Aİ əsgərlərinin münaqişədə iştirakını istisna edir. Eyni zamanda sənəd ittifaqın ayrı-ayrı üzv ölkələrinin Ukrayna ilə əvvəllər imzaladıqları "təhlükəsizlik zəmanətləri üzrə ikitərəfli sazişlər kimi hüquqi cəhətdən məcburi olmayan" öhdəliklərə istinad edir.

**S.ELAY**
**XQ**

# Kiyev–Ankara hərbi müzakirəsi

**Dünən Türkiyənin Milli Müdafiə Nazirliyindən mediaya bildirilib ki, Ukraynanın müdafiə naziri Rüstəm Umerov Ankaraya səfər edib.**



Xəbərdə qeyd olunur ki, qonağı türkiyəli həmkarı Yaşar Gülər qarşılayıb. Rəsmi qarşılanma mərasimindən sonra nazirlər arasında müzakirələr başlayıb. Daha sonra heyətlərarası görüş keçirilib.

Bu arada rəsmi Londonun "Krımı Ukraynanın bir hissəsi hesab etdiyindən Kiyevə bu regiona zərbə endirməyə icazə verdiyi" barədə məlumat yayılıb.

"Sky News"in xəbərinə görə, bunu Böyük Britaniyanın müdafiə naziri Qrant Şepps mətbuat konfransı zamanı bildirib. O deyib ki, ölkəsi özünün istehsal etdiyi silahların istənilən dövlətin ərazisində istifadəsinə qadağa qoymaq niyyətində deyil.

***XQ***

## "Puta-Əyrici" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2024-cü il saat 11.00-da "Puta-Əyrici" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. Cəmiyyətin 2023-cü ilin maliyyə-təsərrüfat fəaliyyətinə aid idarə heyyətinin hesabatı.
2. Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiri ünvanda tanış olmaq mümkündür.

Yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiqləyən sənədlə (vəkil edilmiş nümayəndələr notarial təsdiq olunmuş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

Əlaqə telefonları: +99412 545-85-25, +99455 812-62-28.

Ünvan – Bakı şəhəri, Qaradağ rayonu, Puta qəsəbəsi, inzibati bina.

***"Puta-Əyrici" ASC-nin idarə heyyəti***

## "Savalan" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 12.00-da Bakı şəhəri, Keşlə qəsəbəsi, 1- ci Önünə küçəsi 19 nömrəli ünvanda "Savalan" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İştirakçıların qeydiyyat vaxtı iclas günü saat 9.00-dan 11.00-a qədərdir.

İclasda müzakirə olunacaq məsələlər:

1.Cəmiyyətin 2023-cü il üzrə maliyyə hesabatı.
2. Təşkilati məsələlər.

Əlaqə telefonu- (012) 567- 41- 09 (daxili-16).

***"Savalan" ASC-nin baş direktoru***

## "Şirvan Mehmanxana" ASC səhmdarlarının nəzərinə!

"Şirvan Mehmanxana" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 25 iyun 2024-cü il saat 11.00-da Şamaxı şəhəri , 24-cü məhəllə, M. Əzizbəyov küçəsi 41 nömrəli ünvanda "ŞİRVAN" Hotelində keçiriləcəkdir.

Ümumi yığıncagın gündəliyi:

1) 2023-cü il üzrə maliyyə - təsərrüfat fəaliyyətinin hesabatı.
2) Təşkilati və sair məsələlər.

Səhmdar ümumi yığıncaqda bilavasitə özü və ya nümayəndəsi vasitəsilə etibarnamə ilə iştirak edə bilər.

Ümumi yığıncaqda iştirak edən səhmdar və ya nümayəndəsi şəxsiyyətini təsdiqləyən sənədin əslini (nümayəndə olduqda isə etibarnaməsinin notarial təsdiq edilmiş surətini) təqdim etməlidir.

## "İsmayıllı Quşçuluq" ASC səhmdarlarının nəzərinə!

29 iyun 2024-cü il saat 12-00 da "İsmayıllı Quşçuluq" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin 2023-cü ilin maliyyə yekunları üzrə illik balansının təsdiqi və dividendlərin verilməsi.
2. Yeni istehsalat və xidmət sahələrinin yaradılması məqsədilə idarə heyətinin sədrinə xüsusi əqdlərin bağlanılması üçün səlahiyyət verilməsi .

Yığıncaq onlayn formatda keçiriləcəkdir.

( Zoom) Linklə bağlı məlumatı almaq üçün əlaqə telefonu- 051-484-93-60.

Əlaqə telefonu: +994202821100

***İdarə heyəti***

## "Sənaye Ventilyasiya" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 11.00-da Bakı şəhəri, Nizami rayonu, Ə.Nəvai küçəsi 13 nömrəli ünvanda "Sənaye Ventilyasiya" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. "Sənaye Ventilyasiya" ASC-nin 2023-cü il üçün maliyyə hesabatının müzakirəsi və təsdiqi.
2. Digər məsələlər.

Əlaqə telefonu-050-314-51-37.

***İdarə heyəti***

## "Olefin Elmi-Tədqiqat və İstehsalat Mərkəzi" ASC səhmdarlarının nəzərinə!

28 iyun 2024-cü il saat 11.00-da "Olefin Elmi-Tədqiqat və İstehsalat Mərkəzi" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı, Xətai rayonu,

N.Rəfiyev küçəsi 29 nömrəli ünvanda müəssisənin inzibati binasında keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Müəssisənin 2023-cü ilin maliyyə - təsərrüfat fəaliyyətinin yekunlarına aid hesabatı.
2. Digər məsələlər.

Ümumi yığıncağa bütün səhmdarlar şəxsiyyət vəsiqəsini, varisliyi təsdiq edən sənədi, etibarnamə ilə iştirak edənlər isə notarial qaydada təsdiqlənmiş etibarnaməni təqdim etməlidirlər.

Əlaqə telefonu-012--489-34-60.

## "Bakı Polad Burazlar" ASC səhmdarlarının nəzərinə!

"Bakı Polad Burazlar" Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının Bakı şəhəri, Araz küçəsi 8 nömrəli ünvanda ("Ulduz" metro stansiyasının yaxınlığı) 28 iyun 2024-cü il saat 11.00 -da növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. Cəmiyyətin 2023-cü ildəki maliyyə - təsərrüfat fəaliyyətinə aid idarə heyyətinin hesabatı.
2. Cari məsələlər.

Ümumi yığıncağın gündəliyinin materialları ilə aşağıdakı ünvana və telefon nömrəsinə müraciət etməklə tanış olmaq mümkündür:

Telefon: (012) 567-54-95.

Ünvan- Bakı şəhəri, Araz küçəsi 8.

Nəzərinizə çatdırırıq ki, səhmdar ümumi yığıncaqda iştirak hüququnu bila- vasitə özü və ya nümayəndəsi vasitəsilə həyata keçirə bilər. Bu zaman səhmdarın nümayəndəsi qanunvericiliklə müəyyənləşdirilmiş qaydada tərtib edilmiş etibarnaməyə malik olmalıdır.

Ümumi yığıncaqda iştirak edən səhmdar və ya nümayəndəsi şəxsiyyətini təsdiqləyən sənədin əslini (nümayəndə olduqda etibarnaməsinin təsdiqlənmiş surətini) təqdim etməlidir.

***İdarə heyəti***

# Kilsə Tolstoyu niyə əfv etmir?

**Məşhur yazıçı, xristian teoloqu, xeyriyyəçi Lev Tolstoyun həyatı haqqında bir sıra maraqlı faktlar üzə çıxıb. Sən demə, inancına sadiq bir xristian, hətta az qala müqəddəs ata kimi tanınan Tolstoy da vaxtilə kilsənin qəzəbinə tuş gəlib və ağır cəzalandırılıbmış.**



Tolstoy kilsə ilə çəkişəndə artıq tanınmış yazıçı idi. Rus provaslav kilsəsi məşhur yazıçının kilsəyə girişinin qadağan edilməsi barədə qərar qəbul etmişdi.

Ən maraqlısı isə odur ki, Rusiya Patriarxlığı yazıçı ilə bağlı yüz ildən çox əvvəl qəbul edilmiş qərara yenidən baxmaqdan imtina edib. Maraqlıdır, Tolstoy kilsəni nədən bu qədər qəzəbləndirmişdi?

## Həqiqət axtarışları və xeyriyyəçilik

1870-ci illərin sonunda, Lev Nikolayeviç təxminən 50 yaşında olarkən mənəvi böhran yaşayır. Yazıçı varlıq problemləri, insanın məqsədi, həyatın mənası barədə aşırı düşünür. O, suallarına cavab tapmaq üçün dinə baş vurmalı olur.

Yazıçı tez-tez din xadimləri ilə görüşür, onlarla dini, fəlsəfi mövzularda geniş müzakirələr aparır. O, Optina Pustin monastırına gedərək monastırın qurucusu Optina Ambrose ilə söhbətləşmiş, müqəddəs mətnləri və teoloji traktatları dərindən oxuyub mənimsəmişdi.

Qədim mətnləri, İsa Məsihin təlimini öyrənən Tolstoy kilsənin düzgün yolda olmadığı qənaətinə gəlir. O, 1891-ci ildə "Doqmatik teologiyanın tədqiqi" əsərini nəşr etdirir. Bu əsərində metropolitan Macarius tərəfindən tərtib edilmiş "pravoslav doqmatik ilahiyyat"ı tənqid edir. Yazıçı erkən xristian mətnlərini orijinalda oxumaq və onların mənasını daha yaxşı başa düşmək üçün ibrani və qədim yunan dillərini də öyrənməyə başlayır. Üstəlik, o, bəzi qədim təriqətlərin nümayəndələri ilə də sıx əlaqələr saxlayır. Bütün bunlar isə rus kilsəsinin xoşuna gəlmirdi.

Həyatının bu dövründə Tolstoy həmçinin, yeni həyat tərzini qəbul edir. Bu həyat tərzi sadə, minimalist yaşamdan ibarət idi. O, ət yeməkdən imtina edərək vegetarian olmağa qərar verir. Daha sadə paltarlar geyinməyə, fiziki əməyə çox vaxt ayırmağa və bütün sərvətini xeyriyyə işlərinə sərf etməyə başlayır.

1890-cı illərdə Tolstoy çoxlu sayda xeyriyyə işləri görür. Böyük yazıçı yoxsulların yemək və sığınacaqla təmin edilməsi üçün müəssisələr açır. Tolstoyun həyat yoldaşı Sofiya ilə birlikdə xeyriyyəçilik fəaliyyətinə ölkənin müxtəlif bölgələrində 187 pulsuz yeməkxananın açılması, kəndlilərin yer şumlaması, əkinçiliklə məşğul olması üçün onlara atların, toxumların paylanması, yazıb-oxumaq bilməyənlər üçün ödənişsiz kursların təşkili və bu yöndə bir çox əməli işlər daxil idi.

## Kilsənin Tolstoy düşmənçiliyi

Burada bir məsələni də qeyd etməliyik: həyat tərzini tamamilə dəyişməzdən az əvvəl Lev Nikolayeviç, sonradan Tolstoyizmin lideri sayılacaq Vladimir Çertkovla tanış olmuşdu. Onlar qısa zaman ərzində möhkəm dostlaşmışdılar. Çertkov yeganə insan idi ki, Tolstoyun düşüncələrinə, mənəvi aləminə təsir edə bilirdi. Böyük yazıçı vəfat edənə qədər bu dostluq davam edir. Lev Nikolayeviç hətta öz əsərlərinin redaktəsini belə, Vladimir Çertkova etibar edirdi.

Həmin dövrdə Tolstoyun düşüncələri ilə bərabər, ədəbi yaradıcılığı da nəzərəçarpacaq dərəcədə dəyişir. Bir çox tənqidçilər yazıçının həmin dövrdə ədəbiyyatın zirvəsini fəth etdiyi fikrini də yazırlar. Lakin kilsənin böyük yazıçıya qarşı kini davam edir. Tolstoyun o illərdə yazdığı "Tanrının evi sizin qəlbinizdir", "Etiraf", "İncilin qısa ekspozisiyası", "Mənim inancım nədir?" kimi əsərlərin nəşri Rusiyada qadağan edilir. Lakin yazıçının vəfatından sonra İngiltərəyə köçən Çertkov həmin əsərləri ingilis dilində nəşr etdirir.

Tolstoyun öz yaradıcılığına münasibəti haqqında çox maraqlı bir fakt da var. Nə qədər qəribə görünsə də o, yaradıcılığının ilkin mərhələsində yazdığı əsərlərini sevmirdi. Hətta bir dəfə "Anna Karenina"nı və "Hərb və Sülh"ü tərifləyənlərə yazıçı əsəbi halda belə demişdi:

"Elə bil Edissonun yanına gəlib deyirlər: sizə yaxşı rəqs etdiyinizə görə hörmət edirik".

Tolstoyun xanımı onun yeni fikirlərini çox da bölüşmürdü. Ona görə də Çertkov yazıçıya onun fəlsəfəsini qəbul etməyən həyat yoldaşından ayrılmağı tövsiyə etmişdi. Onsuz da ailə üzvləri, qohumları Tolstoyla yola getmirdilər.

## Rus ədib "İncil"i tənqid edib?

Lakin həyatındakı bütün ziddiyyətlər bir yana, yazıçının əsas davası pravoslav kilsəsi ilə olub. O, uşaq ikən ənənəyə uyğun olaraq pravoslav qaydası ilə xaç suyuna çəkilsə də, gəncliyində dinlə maraqlanmayıb. Tolstoy yalnız qırx yaşından sonra kilsəyə maraq göstərməyə başlayır. O, müntəzəm olaraq ayinlərdə iştirak edir və oruc tutur. Eyni zamanda "İncil"də nəql edilən bəzi təzadlı məsələləri inkar etməmək üçün çox da düşünməməyə çalışır.

Lakin yuxarıda da qeyd etdiyimiz kimi, dini mətnləri dərindən araşdırdıqca Tolstoyun "səmavi" adlandırılan dinlərə inamı get-gedə zəifləyir.

1878-ci ildən Tolstoy məyusluq içində kilsəni öz həyatından tamamilə sildiyini açıqlayır. O, İncil mətnlərində yazılanların bir çoxunun yalan olduğunu bəyan edir və İncil kitablarını (Beş İncil var) ibrani dilindən tərcümə edərək onlara şərhlər yazır. Yazıçı məşhur "Dirilmə" romanında kilsə ayinlərinin mexaniki əzbərlənməsini və əhəmiyyətsizliyini, eləcə də ruhanilərin ikiüzlülüyünü tənqid edir.

Lev Nikolaeviç kilsənin bəzi təlimlərini şiddətlə qınayırdı. Məsələn, o, yer üzündəki həyatın faniliyi, əbədi həyatın isə üstünlüyü ideyası ilə razılaşmırdı. Tolstoy, həmçinin ortodoks xristian teologiyasının aşıladığı hər bir insanın doğuşdan günahkar olması fikrini də tənqid edirdi.

Tolstoyun kilsə hücumları müvəqqəti olaraq bağışlanmışdı, çünki həmin vaxtlarda o, görkəmli yazıçı kimi şöhrətin zirvəsində idi. Lakin bu "güzəşt" uzun müddət davam etmədi.

## Yazıçının əbədi evi: milyonların qəlbi

1901-ci ildə Sinodun qərarı ilə Tolstoy açıq şəkildə qınanıldı və kilsəni ziyarətdən məhrum edildi. Yazıçı bu qərarı xeyli əsəbi qarşılamışdı. O, deyirdi ki, onun pravoslavlığı tənqid etməsi tanrıya qarşı üsyan deyil, əksinə, ona doğrudan xidmət etmək istəyidir. Lev Tolstoy ölüm yatağında olanda belə, kilsə böyük yazıçı ilə bağlı qərarını dəyişmədi. Çox sonralar Tolstoyun nəvəsi patriarx II Aleksiyə Sinodun məlum qərarına yenidən baxılması xahişi ilə məktub göndərsə də, Tolstoya hələ də kilsə tərəfindən bərabət verilməyib. Patriarxiya açıq şəkildə bildirib ki, haqqında müraciət edilən şəxs sağ olmadığı üçün qərara yenidən baxılması mümkün deyil.

Beləliklə, böyük humanist yazıçı, teoloq və xeyriyyəçi Lev Tolstoy pravoslav kilsəsi üçün persona-non-qrata olaraq qalmaqdadır. Sözsüz ki, bu xoşagəlməz qərar yalnız kilsənin mövqeyini əks etdirə bilər, lakin Tolstoyun insanlıq qarşısındakı xidmətləri, mənəvi dərsləri, ölməz əsərləri əbədi olaraq yaşayacaq.

**Murad KÖHNƏQALA**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 100 (30504) 15 may 2024-cü il, çərşənbə

# Azərbaycanlı–fransız ailə cütlüyü Afrikada

**"Azərbaycanın Dostları Təşkilatı"nın sədri Billurə Bayramova–Bernard 2022-ci ildən Anqolanın paytaxtı Luandada yaşayır. Afrikada uzun illər yaşamasının səbəbi həyat yoldaşı, fransız Antuanın neft sahəsində işləməsidir. Anqolaya gəlməzdən öncə 9 il Nigeriyada yaşayan Billurə görünüşcə çox zərifdir. Amma onunla söhbətdən, gördüyü işlərin həcmini öyrəndikdən, həyata keçirdiyi layihələrə nəzər saldıqdan sonra bu qədər yükü necə daşımasına heyran qalmamaq olmur. "Beynəlxalq Ailə Günü"ndə 43 yaşlı Billurə xanımın XQ-yə verdiyi müsahibə ilə onun Afrika həyatını və uğur hekayətini dinləyək:**





**– İsmayıllı rayonu hara, Afrika hara? Özü də qadın. Bir az qəribə səslənmirmi? Bu qitədən o qitəyə necə gedib çıxmısan?**

– Qəribə səslənsə də belədir. Lahıcda doğulub böyümüşəm. Atam orta məktəbdə müəllim, xalçaçı anam isə evdar xanım olub. Ailənin təhsil alıb işləyən 6 uşağından biriyəm. Məndən başqa, hamısı Azərbaycandadır. Uşaqlıqdan jurnalist olmaq, xaricdə təhsil almaq, Azərbaycanı dünyada tanıtmaq, biznes qurmaq arzulamışam.

**– Həm də xarici ölkədə yaşamaq, eləmi?**

– O qədər də yox. İlk ali təhsilimi jurnalistika deyil, filologiya üzrə aldım, magistr dərəcəsini də bitirdim. Sonradan Azərbaycan Dövlət İqtisad Universitetində ikinci təhsil alıb, İsveç Krallığının Lund Universitetində maliyə iqtisadiyyatı üzrə magistr dərəcəsi aldım.

**– Bizi maraqlandıran əsas məsələ ailənin beynəlmiləl olmasıdır.**

– Həyat yoldaşım Antuan fransızdır. Təhsilindən sonra ilk işinə Bakıda neft şirkətində başlayıb. İxtisasca mühəndisdir. Onunla Bakıda tanış olmuşduq. Burada bir neçə il çalışandan sonra işi ilə bağlı Qazaxstana getsə də, əlaqəmiz kəsilmədi. Telefonla zəngləşir, dost kimi fikirlərimizi bölüşürdük. Xarici vətəndaşlarda "səni sevirəm, sənsiz ölərəm, filan" yoxdur. Düz 5 il sonra ondan evlilik təklifi aldım. Elə bil, illərdir ki, bu təklifi gözləyirdim. Dərhal da qəbul etdim. Əslində, o zaman arzularımda nəinki xarici vətəndaşla evlənmək, ümumiyyətlə ailə qurmaq fikri yox idi. Amma ailə qurandan, övladlarım dünyaya gələndən, Antuanın bizə münasibətindən sonra nə qədər düzgün addım atdığımın fərqinə vardım. İndi vaxtımın çoxunu uşaqlara və həyat yoldaşıma həsr edirəm və bundan həzz alıram.

**– Valideynlərinin bu sevgini eşidəndə reaksiyası necə oldu?**

– Əvvəl bu barədə söz açmağa cəsarət etməsəm də, sonradan hər şeyi açıb dedim. Bildirdim ki, deyəsən, mən Azərbaycandan gedəcəyəm. Hər şey el adəti ilə, amma tez müddətdə baş verdi. Toyumuz həyat yoldaşımın istəyi ilə Lahıcda, rəsmi evlilik isə Fransada oldu. Onun ailəsi də Lahıcda olan toy mərasimində iştirak edirdi. Siz kənd sakinlərinin o toyda Antuana, onun valideynlərinə necə maraqla baxdıqlarını görəydiniz. Qohum-əqrabaya qoşulub milli musiqimizin sədalarına necə qol qaldırıb rəqs etdiklərini seyr edəydiniz... Həmin gün mən özümü göyün yeddinci qatında hiss edirdim. Hər iki ailə bu evliliyə ancaq sevinirdi. Çünki onlar üçün önəmli olan övladlarının xoşbəxtliyi idi. Toydan sonra biz Fransaya, bir il sonra Antuanın işi ilə bağlı Nigeriyaya köçdük.

Üç övladım oldu. Uşaqlarla çalışıram öz dilimdə danışım. Böyük oğlum Tomas dilimizi gözəl bilir. Aleksandr və Hüqo da öyrənir. İldə ən azı 1 dəfə Azərbaycana gəlirəm. Övladlarım məktəbə getdiyindən yalnız yay ayını onlarla birlikdə Azərbaycanda oluram. Allahımdan çox razıyam ki, mənim qarşıma həyat yolunda qoşa addımlamaq üçün Antuanı çıxarıb. O mənə hər kəsi əvəz edir və işlərimə həm maddi, həm mənəvi dəstək olur.

**– Bir az iş-gücündən söz aç. Hazırda nə işlə məşğulsan?**

– Anqolada fəaliyyətim Nigeriyada qurduğum təşkilatın işini davam etdirməkdir. Azərbaycan mədəniyyətinin, musiqisinin, tarixinin, mətbəxinin yaşadığım ölkənin insanlarına təbliği ilə məşğulam. Mən Nigeriyaya köçəndə orada yeganə azərbaycanlı idim. Afrika ölkələrində ölkəmizin konsulluqları barmaqla sayılacaq qədərdir. Nigeriya da o az ölkələrin sırasındadır. 2013-cü ildə Nigeriyaya köçmüşəm. O vaxt təkcə yerli əhali üçün deyil, orada yaşayan



xarici vətəndaşlar üçün də Azərbaycanla bağlı məlumat çox az idi. Nigeriyanın sosial-ictimai həyatında fəallıq göstərirdim. Yerli və beynəlxalq təşkilatlarda müxtəlif vəzifələrdə təmənnasız, könüllü işləmişəm. Bir vaxt qərara gəldim ki, orada paralel olaraq Vətənimi tanıtmaqla bağlı bir təşkilat yaradım. Düşündüm ki, Nigeriyada azərbaycanlı yaşamasa da, burada yaşayanları ölkəmizə dost edə bilərəm və bu adı seçdim. Mənə bu işdə xarici dostlarım kömək etdi. Təsisçilər 4 nəfərdir. Mən, Nigeriyada 2 şirkəti olan bir fransız, digəri ingilis vətəndaşı və nigeriyalı bir hüquqşünas xanımdır. Könüllü şəkildə təşkilatın hüquqi işlərini o aparır.

Təşkilatın əsas maliyyə mənbəyi bizim ailə qazancımızdır. Çoxları buna bəzən şübhə ilə yanaşır. Hər kəsin həyatda qazancını xərclədiyi ünvanlar fərqlidir. Mən də qazancımı layihələrə xərcləməyi sevirəm. Layihələr vasitəsilə həm öz ölkəmin mədəniyyətini təbliğ edirəm, həm mədəniyyətlər arasında körpü yaratmağa çalışıram. Ölkələr arasında turizmə dəstək verir, sahibkarları tanıtmağa çalışır, həm də dəstəyə ehtiyacı olan insanlara kömək edirəm.

Bu işdə mənə həm maddi və həm də mənəvi dəstək olan həyat yoldaşım da usanmır. Əslində, daha çox dəstək verir ki, mən özümü xoşbəxt hiss edim. Buna görə ona çox minnətdaram. O da bilir ki, mədəniyyət üzərindən daha mükəmməl təbliğat aparmaq mümkündür. Məncə, mədəniyyət təbliğat üçün ən güclü silahdır.

Onu da deyim ki, mətbəx işlərini sevdiyimdən kiçik bir "Kuzinşe Billura" adlı şirkət yaratmışam. Oradan gələn gəlir birbaşa təşkilatımıza yönəlir. Şirkəti yaratmaqla, həm evimi restorana çevirdim, həm də Nigeriyada yaşayan səfirlərin, digər diplomatik korpusların, şirkət rəhbərlərinin nahar yeməklərini təşkil edirdim. Onların yeni bir dada ehtiyacları olduğunu bildiyimdən düşündüm ki, bu üsulla maliyə vəsaiti əldə edib layihələrimə davam edə bilərəm. "Kuzinşe Billura" pandemiyaya qədər davam etdi. Amma hələ də əvvəlki aktivliyini bərpa edə bilmir.

**– Təşkilatın xətti ilə hansı layihələri reallaşdırmısan?**

– "Azərbaycanın Dostları Təşkilatı" bir neçə iri layihə həyata keçirib. 2018-ci ildə "İpək yolu" adı altında Azərbaycan Demokratik Respublikasının 100 illiyinə həsr olunmuş konsert təşkil etdik. Konsertdə Əməkdar artist tarzən Sahib Paşazadəni və Fransada yaşayan istedadlı pianoçumuz Səidə Zülfüqarovanı dəvət etdik. Konsertdə onlarla birlikdə Nigeriyanın gözəl səsi olan tenor Jozef, həmin vaxt orada çalışan İsveçrənin konsulunun soprano səsli həyat yoldaşı iştirak etdi. Layihə uğurla həyata keçdi. Ora gələnlər üçün bizim tar qeyri-adi göründü. Tar onlar üçün yeni bir kəşf idi. İstər quruluşu, istər səsi onlarda böyük maraq oyatdı. Konsert o qədər bəyənildi ki, Nigeriyada yerli şirkət rəhbərlərinin dəstəyi ilə 2-cü gün də təkrar edildi. Yerli media, televiziya, radioda çıxışlarımız oldu. Musiqiçilərimiz "Vozobiya" yerli televiziya kanalının səhər proqramında çıxış etdilər. 4 aydan sonra Sahib Paşazadə və Səidə Zülfüqarova Nigeriyada keçirilən "Qərb ilə Şərq görüşəndə" musiqi festivalına dəvət aldılar.

"Kuzinşe Billura" adı ilə müxtəlif ölkələrin mətbəxlərinin birləşməsi layihələrində iştirak edirdik. Orada yaşayan insanlara ölkəmizin mətbəx dərslərini keçirdim. Bundan sonra Nigeriya televiziyasının çox tanınmış proqramından dəvət gəldi və mən ayda 1 dəfə həmin verilişdə çəkilişlərə qatılır və hər dəfə Azərbaycan mətbəxindən 1 yeməyin hazırlanmasını nigeriyalılara çatdırırdım.

Bundan sonra 2 jurnalistlə Azərbaycana səfər etdik. "Azərbaycanın dadı" adlı layihə həyata keçirdik. Verilişin aparıcısı Cina xanımla 10 gün Bakı, Şəki və Lahıcda olduq. Müxtəlif bölgələrin yeməkləri ilə bağlı çəkilişlər etdik. Tarixi yerlər, muzeylər, yerli insanların yaşayışı, ölkəmizdə yaşayan nigeriyalıların həyatı ilə bağlı çəkiliş apardıq. "Azərbaycanın dadı" layihəsi ilə bağlı 10 epizoddan, 2-ci layihə ilə bağlı 7 epizoddan ibarət qısametrajlı film hazırlandı. Filmlər bir il müddətində yalnız Nigeriyada deyil, Amerikada, İngiltərədə də afrikalıların 10 müxtəlif televiziya kanallarında nümayiş olundu. Pandemiya işimizi dayandırdı...

Fəaliyyətimiz Anqolada davam edir. Ötən il "Tarın səsi–birləşmiş səslər" adlı layihə icra etdik. Tarın təbliği ilə bağlı Nigeriyanın musiqi məktəblərində tar dərslərinin keçilməsini düşünürdük. Anqolaya köçdüyümüzdən o işimiz yarımçıq qaldı. Bu ideyanı Luandada davam etdirmək istədim. Sahib Paşazadə 1 həftəlik Luandaya gəldi və iki yerli incəsənət və mədəniyyət mərkəzində musiqiçi uşaqları ilə 5 günlük ustad dərsləri keçdi. Tarın tarixi, ifa qaydası ilə bağlı müəyyən bilgilər verdi. Yaşadığım ölkədə kimliyindən asılı olmayaraq həmvətənlərimi bir araya gətirməyi sevirəm. Əslində, mədəniyyətlərin təbliği, digərlərinə yardım üçün millətin fərqli olması önəm kəsb etmir. Bu kimi təbliğat, xeyriyyə işləri üçün heç bir sərhəd yoxdur.

***...Billurə Bernard həyata keçirdiyi daha çox sayda layihələrdən söz açdı. Ona işində uğurlar, ailə bağlarının daha möhkəm olmasını arzulayıb ayrıldıq.***

*Müsahibəni apardı:*
***Zərifə BƏŞİRQIZI***
***XQ***

## İDMAN

### Beynəlxalq güləş turnirində 3 mükafat



**Azərbaycanın yunan-Roma güləşçiləri Rusiyanın Kaspiysk şəhərində "Surakat Asiyatilov"un xatirəsinə həsr edilmiş 20 yaşadək yeniyetmələr arasında beynəlxalq turnirdə uğurla çıxış ediblər.**

Yığmanın heyətində mübarizə aparan Təvəkkül Xəziyev (67 kq) yalnız finalda məğlub olaraq gümüş medala sahib olub. Tural Əhmədov (60 kq) və Cocu Səmədov (87 kq) isə bürünc mükafata yiyələniblər.

Qeyd edək ki, turnirdə 7 ölkədən ümumilikdə 190 güləşçi mübarizə aparıb.

### Şahmatçımızın Avstriya qələbəsi



**Avstriyada keçirilən "Grand Prix Plus City" turnirində Azərbaycan şahmatçısı Məhəmməd Muradlı qızıl medal qazanıb.**

Təmsilçimiz blits yarışında 13 turda 11 xal toplamaqla bütün rəqiblərini üstələyib. Həmin yarışda iştirak edən Şəhriyar Məmmədyarov isə 10 xalla turnirin bürünc medalını qazanıb.

### Bakı hokkeyçilərinin Kazan uğuru



**Azərbaycanın Xokkey üzrə "Baku Flames" komandası Tatarıstanın paytaxtı Kazanda keçirilən "Orxis Cup" beynəlxalq turnirində daha bir qələbə qazanıb.**

İslam ölkələri arasında keçirilən yarışda təmsilçimizin növbəti rəqibi İran olub. Qarşılaşma komandamızın 11:6 hesablı üstünlüyü ilə başa çatıb.

Qeyd edək ki, "Baku Flames" Bəhreyn komandası ilə keçirdiyi ilk qarşılaşmada 8:3 hesablı qələbə qazanıb. Tarixində ilk dəfə beynəlxalq turnirdə iştirak edən Azərbaycan komandası ilə yanaşı, medallar uğrunda Türkiyə, Qazaxıstan, Pakistan, Monqolustan, İran, Livan, Bəhreyn, Tatarıstan və Qırğızıstan təmsilçiləri də mübarizə aparırlar.

***L.QURBANOVA***
***XQ***

## "Puta-Nəqliyyat-2" ASC səhmdarlarının nəzərinə!

29 iyun 2024-cü il saat 12.00-da "Puta-Nəqliyyat-2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ünvan- Bakı şəhəri, Qaradağ rayonu, Puta qəsəbəsi, Qobu-Güzdək-Puta yolunun 3-4-cü kilometrliyi 3, inzibati bina.

Yığıncağın gündəliyi:

1. Cəmiyyətin 2023-cü il üçün maliyyə-təsərrüfat fəaliyyətinə aid idarə heyətinin hesabatı və illik hesabatların təsdiqi.
2. Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür.

Yığıncaqda bütün səhmdarların şəxsiyyəti təsdiqləyən sənədlə (vəkil edilmiş nümayəndələr notarial təsdiq olunmuş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirakı vacibdir.

***İdarə heyəti***

## BİLDİRİŞ

*"Xalq qəzeti"nin 19 mart 2024-cü il tarixli nömrəsində dərc edilmiş "Nəsiboğlu" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı 1 iyul 2024-cü il saat 10.00-da Bakı şəhəri, Xətai rayonu, 8 Noyabr prospekti 143 nömrəli ünvanda keçiriləcəkdir.*

## Abşeronda yağmursuz, bölgələrdə yağış, duman, dağlarda şaxta

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, mayın 15-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi yerlərdə yağış yağacağı, qısamüddətli intensivləşəcəyi ehtimalı var.**



Şimal-qərb küləyi əsəcək. Gecə 10-13°, gündüz 16-19° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə 70-75, gündüz 45-55 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gündüz əksər rayonlarda yağıntıda fasilə olacaq. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 8-12°, gündüz 18-23° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-9° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

## İsmayıllıda "Qərbi Azərbaycan mətbəxi"



**İsmayıllı Dövlət Peşə Təhsil Mərkəzində gənc kulinarların respublika çempionatı keçirilib. Yarışdan əvvəl mərkəzin müəllim və şagirdlərinə Qərbi Azərbaycan şirniyyatlarının hazırlanma texnologiyası, tarixi, etnoqrafiyası və s. barədə mühazirələr oxunub.**

Sonra müsabiqə keçirilərək onun nəticələri elan olunub. İsmayıllı Dövlət Peşə Təhsili Mərkəzinin şagirdləri fətir, gül mürəbbəsi, gülqənd, zoğal və ərik mürəbbələri və ayrı-ayrı şirniyyat və yemək növləri üzrə ən yaxşı aşpazlar müəyyən olunublar.

Qeyd edək ki, növbəti müsabiqələrin ölkəmizin digər bölgələrdə və xarici ölkələrdə keçirilməsi planlaşdırılır. Sonda vurğulayaq ki, gənc kulinarların çempionatının keçirilməsində məqsəd Qərbi Azərbaycan mətbəxinin tanıdılmasıdır.

***Fidan SALMANOVA***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3937
SİFARİŞ 962
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00